Azərbaycan Respublikasının
Qaçqınların və Məcburi Köçkünlərin İşləri
üzrə Dövlət Komitəsi

Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması layihəsi üçün

# ƏMƏLİYYAT TƏLİMATI (ƏT)

**Dövlət Sülh Quruculuğu Fondu (DSQF) tərəfindən maliyyələşdirilir**

SPF STATE AND PEACEBUILDING FUND

**Bakı, 18 yanvar 2023-cü il**

## Mündəricat


1. Layihənin təsviri
1.1. Ümumi məlumat
1.2. Layihənin inkişaf məqsədləri

2. Layihə komponentlərinin və hədəflərinin xülasəsi
2.1. Komponent 1: Bacarıqların inkişafı
2.2. Komponent 2: Məşğulluq və biznesin inkişafına dəstək
2.3. Komponent 3: Vətəndaş iştirakı, sosial birlik, monitorinq və əməliyyat dəstəyi
2.4. Layihə benefisiarları
2.5. Hədəf icmalar və benefisiarlar

3. Komponentlərin təfərrüatlı icrası
3.1. Komponent 1: Bacarıqların inkişafı
3.2. Komponent 2: Məşğulluq və biznesin inkişafına dəstək
3.3. Komponent 3: Vətəndaş iştirakı, sosial birlik, monitorinq və əməliyyat dəstəyi

4. Təşkilatı tədbirlər
4.1. İcraçı qurum
4.2. Rəhbər Komitə
4.3. Layihənin maraqlı tərəfləri

5. Satınalma

6. Maliyyə idarəetməsi və audit
6.1. Maliyyə idarəetməsi
6.2. Audit
6.3. Hesabat prosedurları

7. Ekoloji və sosial çərçivə

Əlavələr

**Əlavələrin siyahısı**


Əlavə 1. Benefisiarların seçiləcəyi şəhərlər və rayonlar

Əlavə 2. Nəticələr çərçivəsi

Əlavə 3. Ərizə forması

Əlavə 4. Təlimdən sonra tamamlama sorğusu

Əlavə 5. İlkin sorğu forması

Əlavə 6. Yerli əmək bazarı və biznes plan forması

Əlavə 7. Təşkilati sxem

Əlavə 8. LİQ heyətinin texniki tapşırıqları

Əlavə 9. “Vətəndaş iştirakı xidməti təminatçısı” üçün ilkin texniki tapşırıq

Əlavə 10. Maraqlı tərəflərin iştirakı planı

## Akronimlər

| | |
|---|---|
| İK | İcra komitəsi |
| AH | Azərbaycan Hökuməti |
| İQ | İcraçı qurum |
| MKHŞYL | Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması layihəsi |
| MK | Məcburi köçkünlər |
| YŞGL | Yaşayış şəraiti və gəlir imkanları layihəsi |
| ƏƏSMN | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| M&Q | Monitorinq və qiymətləndirmə |
| QHT-lar | Qeyri-hökumət təşkilatları |
| ƏT | Əməliyyat təlimatı |
| LİM-lər | Layihənin İnkişaf Məqsədləri |
| LİQ | Layihə icra qrupu |
| QMKİDK | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| AQUPDK | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| DMA | Dövlət Məşğulluq Agentliyi |
| MKSİF | Məcburi Köçkünlərin Sosial İnkişafı Fondu |
| DSQF | Dövlət və Sülh Quruculuğu Fondu |
| BMT QAK | Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı |

**Azərbaycan Respublikası**
**Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması layihəsi**
**Əməliyyat təlimatı**

Bu layihənin Əməliyyat Təlimatı (ƏT) məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması layihəsini (MKHŞYL) həyata keçirmək məqsədi ilə Azərbaycan Hökumətinə (AH) verilən Dövlət və Sülh Quruculuğu Fondunun Qrantından istifadə üçün Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (bundan sonra QMİDK), layihənin sahə heyəti və icmalar tərəfindən riayət olunacaq qayda və prosedurları müəyyən edir.

Bu təlimatın əsas məqsədi maraqlı tərəflərə layihə dövrünün istənilən mərhələsində onların vəzifəsi ilə bağlı bir sıra qaydaların təqdim edilməsindən ibarətdir. Bu qaydalara riayət olunması Dünya Bankı tərəfindən təmin edilən vəsaitləri şəffaf və hesabatlı şəkildə əlaqələndirməyə və istifadə etməyə imkan verəcək, eyni zamanda layihənin məqsədlərinə çatmaq üçün yüksək dərəcədə səmərəliliyi və effektivliyi qoruyacaqdır.

Təlimatda layihənin icrası ilə bağlı ölkədəki vəziyyətin qısa təsviri, layihənin məqsəd və komponentləri, əhatə dairəsi və hədəfi, layihə dövrü, vəsaitlərin hərəkəti mexanizmləri, satınalma qaydaları, eləcə də monitorinq və qiymətləndirmə mexanizmləri yer alır.

ƏT əldə edilmiş təcrübəni nəzərə almaqla layihənin icrası zamanı nəzərdən keçiriləcək və yenilənəcək olan işlənib hazırlanmaqda olan sənəddir. ƏT-nin dizaynı və bu layihəyə olan ehtiyac iki sənədin tövsiyə və nəticələrinə əsaslanır. Birinci sənəd 2022-ci ildə həyata keçirilmiş *Məcburi köçkünlərin gəlir imkanlarını dəstəkləmək üçün təcrübələrin və ehtiyacların qiymətləndirilməsi* çərçivəsində analitik iş vasitəsilə müəyyən edilmiş tövsiyələr və imkanlardan ibarətdir. İkinci sənəd MK-lər üçün nəzərdə tutulmuş məşğulluq və həyat şəraitinin yaxşılaşdırılması proqramları haqqında məlumatlandırmaq məqsədi ilə MK-lərin demoqrafik, sosial və iqtisadi vəziyyəti, ehtiyacları və gəlir əldə etmək imkanları və bacarıqları ilə bağlı istəkləri haqqında məlumatların toplandığı 2022-ci ilin iyun-iyul aylarında həyata keçirilmiş *ilkin ehtiyacların qiymətləndirilməsi sorğusundan* ibarətdir. Bu yaxınlarda həyata keçirilmiş 2011-2019-cu illərdə *MK-lərin yaşayış şəraiti və gəlir imkanları layihəsinin ("YŞGL Layihəsi")* təsiri ilə bağlı əsaslı sübutlar irəli sürülmüş arqumentləri dəstəkləyir.

# 1. Layihənin təsviri

## 1.1. Ümumi məlumat

- Ölkə haqqında məlumat

27 sentyabr 2020-ci il tarixində işğal olunmuş Azərbaycan torpaqlarında yerləşmiş Ermənistan silahlı qüvvələrinin Azərbaycanın hərbi mövqelərini və mülki yaşayış məntəqələrini atəşə tutmasından sonra iki ölkə arasında onilliklər boyu davam edən münaqişə alovlanıb. Əks-hücum əməliyyatları zamanı Azərbaycan silahlı qüvvələri 300-dən artıq yaşayış məntəqəsini, o cümlədən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini Ermənistanın 30 ildən artıq davam edən işğalından azad edib. 2020-ci il noyabrın 10-da Ermənistan, Azərbaycan və Rusiyanın imzaladığı üçtərəfli bəyanatla

müharibə başa çatıb. Bəyanata uyğun olaraq, Ermənistan həmçinin Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytarıb.

Minlərlə insan yeni məskunlaşıb, yüz minlərlə insanın isə vəziyyəti hələ öz həllini tapmayıb. Əraziyə nəzarət dəyişdiyi və yüksək həssas olaraq qaldığı üçün, insanların onilliklər əvvəl boşaldıqları şəhər və kəndlərə qayıtmaq imkanları yaranır. Bununla belə, aydındır ki, məcburi köçkünlərin gələcək köçürülməsi müxtəlif səbəblərə görə, o cümlədən davam edən mübahisələrə və münaqişənin təsirinə məruz qalmış ərazilərdə minaların olması səbəbindən təhlükəsizliklə bağlı narahatlıqlara görə zaman tələb edəcəkdir. Beləliklə, həm yeni məskunlaşanların, həm də uzun müddətdir ki, köçkünlük səbəbindən yoxsul və həssas olaraq qalan insanların ehtiyacları qarşılanmalıdır.

- Sektor üzrə məlumat

Hazırda Azərbaycanda 600 000-dən çox insan məcburi köçkün olaraq qalır ki, bu da ölkəni dünyada adambaşına düşən MK-lərin ən yüksək cəmləşdiyi yerlərdən birinə çevirir. MK-lər Azərbaycanın 69 rayonunda, əksəriyyəti şəhərlərdə, xüsusilə Bakı və Sumqayıtın əsas şəhər mərkəzlərində yaşayırlar. AH onlara öz evlərinə qayıdana qədər müvəqqəti dəstək məqsədi daşıyan çoxsaylı proqramlar vasitəsilə (məcburi köçkünlərlə bağlı Prezidentin 70-dən çox fərmanı, 300 Hökumət bəyanatı, qanunvericilik aktları və qərarlarda öz əksini tapıb) yardım edir. MK-lər *fərdi birbaşa pul köçürmələri, həmçinin subsidiyalar və xidmətlər paketi alırlar (məsələn, "2008-2015-ci illərdə Azərbaycanda yoxsulluğun azaldılması Dövlət Proqramı", "2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı").* Hökumət köçkünlərin ehtiyaclarını ödəmək üçün öz yanaşmasını tədricən dəyişib və onların müvəqqəti (lakin indi uzunmüddətli) yaşayış yerlərində yaşayış şəraitlərinə və iqtisadi imkanlarına daha sistematik investisiyalar qoyulur.

Bununla belə, MK-lərin bacarıqların inkişafı təlimlərinə, istehsal resurslarına, kreditlərə və bazar imkanlarına çıxışını məhdudlaşdıran sosial-iqtisadi maneələr hələ də qalmaqdadır. Digər kritik səbəb regionlarda MK-lər üçün peşə hazırlığı imkanlarının olmamasıdır. Əslində ölkədə say və keyfiyyət baxımından belə qurumlar çatışmır. Bundan əlavə, cəmiyyətdə, xüsusilə ucqar rayonlarda hökm sürən müəyyən stereotiplər qızları məktəbi bitirdikdən sonra işləməkdən çəkindirir.

### 1.2. Layihənin inkişaf məqsədləri (LİM)

LİM Azərbaycanda həssas MK ailələri üçün vətəndaş iştirakını, texniki bacarıqları və gəlir əldə etmək imkanlarını artırmaqdan ibarətdir. Layihə həmçinin həssas MK-lərə yönəlmiş yaşayış şəraitinin yaxşılaşdırılması proqramlarını hazırlamaq və həyata keçirmək üçün Hökumətin imkanlarını dəstəkləyəcəkdir.

Əsas benefisiarlar hazırda yaşayış şəraitinə görə yoxsul və həssas olaraq müəyyən olunmuş MK-lər olacaqdır.

Aşağıdakı **<u>nəticə göstəriciləri</u>** yuxarıda qeyd olunan göstəriciləri əhatə edəcəkdir (2 saylı Əlavədə ölçülə bilən göstəricilərlə birgə layihə üzrə tam Nəticələr Çərçivəsi təqdim olunur):

- Birbaşa layihə benefisiarlarının sayı və qadınların faizlə payı

- Layihədə qeydiyyat zamanı gəliri olmayan şəxslərlə müqayisə etmək məqsədi ilə ailələrin əsas gəlir mənbəyi öz biznesləri və ya əmək haqqı olan (toplanacaq ilkin məlumatlar ilə müqayisədə) hədəf benefisiarların faizi
- Layihə fəaliyyətləri vasitəsilə əldə etdikləri bacarıqlardan öz gəlirlərini yaratmaq və ya artırmaq üçün gündəlik həyatlarında istifadə etdiklərini bildirən benefisiarların faizi
- Yaradılan yeni bizneslərin sayı

## 2. Layihə komponentlərinin və hədəflərinin xülasəsi

LİM-ə nail olmaq üçün layihə əlaqəli və bir-birini tamamlayan üç əsas komponentdən ibarətdir. Komponentlər birlikdə sosial-iqtisadi imkanların yaxşılaşdırılmasına və MK-lərin hədəf icmalara daxil edilməsinə yönəlib.

### 2.1. Komponent 1: Bacarıqların inkişafı

Bu komponent peşə təhsili, biznesin inkişafına dəstək və mentorluq, eləcə də digər həyati zəruri bacarıqlardan ibarət texniki yardım paketi vasitəsilə biznes/məşğulluq imkanlarını əldə etməkdə maraqlı olan MK-lərə dəstək verəcəkdir. Bu komponentin məqsədini seçilmiş MK-lərə peşə mənimsəmək və sonradan yeni bizneslərini inkişaf etdirmək və yaşadıqları yerlərdə iş yerləri əldə etmək imkanı vermək təşkil edir.

QMKİDK həmçinin ərizə formasının bir hissəsi kimi ilkin məlumatları toplayacaq ki, bu da Komitəyə seçilmiş və seçilməmiş şəxslərdən alınan məlumatları müqayisə etməyə imkan verəcəkdir. İlkin forma MK-lərin öz ərizələrinin bir hissəsi kimi özlərinin doldurması üçün kifayət qədər sadədir və əksər layihə göstəriciləri haqqında məlumatlandırır. Ailə gəlir forması layihə iştirakçıları seçildikdən sonra mentorlar tərəfindən ayrıca doldurulacaqdır. Mentorlar bununla bağlı QMKİDK-dən təlim alacaqlar.

MK-lərin real imkanlarını, xüsusilə layihə ərazilərində ən çox tələb olunan peşə növlərini daha yaxşı anlamaq üçün, layihə MK-lərdən (müraciət prosesindən əvvəl) əmək bazarının qiymətləndirilməsi formasını doldurmağı istəyəcəkdir. Bunun üçün mentorların potensial layihə iştirakçıları ilə işlədiyi və onlara öz icmalarındakı imkanlar və müxtəlif fəaliyyətlərdən potensial gəlirləri haqqında necə daha çox məlumat əldə edə biləcəklərini izah edəcəkləri bir gün seçiləcəkdir. MK-lər əmək bazarı haqqında hər şeyi bilmədikləri üçün, onlara yardım üçün əlavə məlumat təqdim olunacaqdır.

Bu komponent üzrə nəzarət edilə bilən nəticələrə aşağıdakılar daxildir:

- Hədəf icmaların hər biri üçün ilkin və yerli bazar ehtiyaclarının qiymətləndirilməsinin (ərizəçilər və mentorlar tərəfindən təqdim olunan məlumat əsasında) müəyyən edilməsi;
- İştirak edən icmalardan ən azı 500 tələbəyə şagirdlik (ixtisas təlimi) təliminin (ustalar tərəfindən keçirilən təlim kursları) və təqaüdlərin (peşə məktəbi əsaslı təlimlər) verilməsi;
- Seçilmiş tələbələrin ən azı 85%-nin şagirdlik/təlimləri tamamlaması;
- Təlim iştirakçılarının ən azı 50%-ni qadınların təşkil etməsi;

- İştirak etməkdə marağını ifadə edən və prioritet layihə dəstəyi ehtiyaclarını müəyyən edən və ilkin siyahıya daxil edilən MK-lərin sayı.

Layihə Layihənin İcra Qrupu (LİQ) tərəfindən həyata keçiriləcəkdir. LİQ hədəf ərazilərdə icra hakimiyyətinin, bələdiyyələrin, VİXT, icmaların və digər aidiyyəti qurumların nümayəndələri ilə görüşlər təşkil edəcəkdir. Bu görüşlər zamanı iştirakçılara Layihə, onun məqsədləri və prosedurları, eləcə də MK icmalarında təklif olunan layihə fəaliyyətləri haqqında məlumat veriləcəkdir. Belə görüşlər nəticəsində yerli hökumət nümayəndələri keçmiş fəaliyyətlərin uğurlu nəticələri, MK-lər üçün faydaları və gələcək layihə fəaliyyətlərində mümkün əməkdaşlıq yolları barədə məlumat əldə edəcəklər.

Şəhərlərdə, kənd yerlərində və yeni qəsəbələrdə MK-lərin məskunlaşdığı ərazilərdə maarifləndirmə və təbliğat tədbirləri davam etdiriləcəkdir. Layihə üzrə məlumatlar MK-lər arasında qrup və fərdi görüşlər, ictimai yerlərdə (klub, məktəblər, mağazalar, poçt və s.) elanlar, kitabçalar vasitəsilə yayılacaqdır. LİQ həmçinin yerli qəzetlərdə, sosial şəbəkələrdə, televiziya və radio stansiyalarında və s. reklamlar yerləşdirməyi planlaşdırır.

**Peşə təhsili müəssisələri**

Dövlət Komitəsi tərəfindən peşə təhsili müəssisələrinin və özəl təlim təminatçılarının seçimində aşağıdakı meyarlardan istifadə olunacaqdır:

- MK-lərin məskunlaşdığı hədəf ərazilərə/icmalara əlçatan yer;
- Vəsaitlərin keyfiyyəti;
- MK-ləri təlim proqramlarına cəlb etmə bacarığı;
- Öyrənilən bacarıqların çeşidi;
- Aşağıdakılarla bağlı uğurlu təcrübə:
    - Yüksək keyfiyyətli peşə hazırlığının təmin edilməsi;
    - Təlimin MK-lərin potensialına və ehtiyaclarına uyğunlaşdırılması;
    - Məzun tələbələrin yüksək səviyyəsi;
    - Büdcə və müddət üzrə hesabat və icra;
    - Tələbələrin müvafiq işlərə yerləşdirilməsi və ya özüməşğulluq üzrə uğurlu yardım.

LİQ bütün hədəf ərazilərə səfər edəcək və eyni zamanda müvafiq dövlət qurumlarına sorğular göndəriləcəkdir. LİQ onlara xidmətləri üçün müraciət edəcək və bu ərazilərdə fəaliyyət göstərən peşəkar ustalar ilə bağlı məsləhət alacaqdır. Ustaların seçilməsi onların sahələri üzrə bilikləri və müvafiq təcrübəsinə əsasən müəyyən ediləcəkdir. Qrup həmçinin bu ustaların keçmişdə şagirdlik təlimi üzrə təcrübəsinin olub-olmamasını da araşdıracaqdır.

Həm tədris müəssisələri, həm də ustalar üçün 6 ay müddətinə xidmət müqavilələri bağlanacaqdır. Müqavilədə neçə tələbənin və hansı fənlər üzrə təhsil alacağı, dəqiq müddətin nə qədər olacağı kimi bütün təfsilatlar yer alacaqdır. İlkin olaraq 30% ilkin ödəniş ediləcəkdir. 50% ödəniş proqramın ortasında, qalan 20% isə proqram uğurla başa çatdıqdan sonra ödəniləcəkdir. Müqavilələr birbaşa olaraq QMKİDK və ustalar də daxil olmaqla təlim təminatçıları arasında imzalanacaqdır. Heç bir vauçer və ya digər mexanizmdən istifadə edilməyəcəkdir.

### 2.2. Komponent 2: Məşğulluq və biznesin inkişafına dəstək

Bu komponent peşə hazırlığını uğurla başa vurmuş MK-lərin potensialının artırılması və yeni yaradılan biznes və iş yerlərinin davamlılığını dəstəkləmək üçün təlim, mentorluq, biznesə dəstək və məşğulluq xidmətlərini maliyyələşdirəcəkdir. Bu komponent MK-lərə yeni biznes qurmaq və ya muzdla işləmək, gəlir əldə etmək, MK icmasının üzvlərini işə götürmək, öz icmalarına və bütövlükdə cəmiyyətə fayda gətirən mal və xidmətlər təqdim etmək səylərində dəstəkləmək məqsədi daşıyır. Komponent həmçinin biznesin inkişafı üçün dəstəyi genişləndirmək və kredit götürmək qərarına gələnlərə daimi yardım göstərmək məqsədilə iştirakçılar, kommersiya bankları və mikrokredit agentlikləri arasında görüşlərin keçirilməsini təşviq edəcəkdir.

Bu komponent üzrə nəzarət edilə bilən aralıq və yekun nəticələrə aşağıdakılar daxildir:

- Ən azı 400 (ümumi məbləğin 80%-i) yeni biznesin yaradılması və/və ya iş yerinin əldə edilməsi və 12 aydan sonra fəaliyyətin davam etməsi;
- Yaradılan yeni bizneslərin və əldə edilən iş yerlərinin ən azı 50%-nin qadınların payına düşməsi.

### 2.3. Komponent 3: Vətəndaş iştirakı, sosial birlik, monitorinq və əməliyyat dəstəyi

Bu komponent layihənin benefisiarları üçün dövlət xidmətlərinə çıxış, vətəndaşların və icmanın iştirakı, icma qruplarının yaradılması, etimad əsasında münasibətlərin qurulması və məcburi köçkünlərin yeni yaşayış mühitinə sülh yolu ilə və birgə keçidini dəstəkləmək üçün müvafiq üsullar üzrə təlimi dəstəkləyəcəkdir. Bu cür dəstək qarşıdakı aylarda və illərdə mühüm sosial-iqtisadi keçidin baş verə biləcəyi MK-lərin cəmləşdiyi icmalarda sosial birliyin qurulmasına kömək edəcəkdir. İştirakçıların təliminə əlavə olaraq, bu komponent layihə iştirakçıları, onların ailələri, digər MK-lər və digər maraqlı tərəflərlə (məsələn, treyser/benefisiarların sorğuları, benefisiarların rəyi/şikayət mexanizmləri, hökumət-vətəndaş cəmiyyəti birgə layihə komitəsi) vətəndaşların cəlb edilməsi üzrə intensiv təşəbbüsü hazırlamaq və həyata keçirmək üçün AH-nə dəstəyi əhatə edir. Bu komponent MK-lərə dəstək fəaliyyətlərinin müxtəlif qrupların dəyişən ehtiyaclarına və istəklərinə cavab verməsi üçün vətəndaşlar və hökumət arasında davamlı əks əlaqə yaratmağa imkan verir. Bu komponentə həmçinin LİQ vasitəsilə Dövlət Komitəsi tərəfindən layihənin ümumi icrası, monitorinqi və qiymətləndirilməsi, eləcə də kommunikasiyalar üçün resurslar daxildir.

Bu komponent üzrə nəzarət edilə bilən aralıq və yekun nəticələrə aşağıdakılar daxildir:

- Layihə iştirakçıları üçün təlimlərin sayı;
- İcmanın səfərbərliyi və etimadın yaradılması üsulları üzrə təlim keçmiş insanların sayı (50%-ni qadınlar təşkil etməklə)

Komitə proqramın benefisiarların ailə gəlirlərinə təsirini izləmək üçün ailə başçıları ilə görüşlər zamanı ailənin öz fəaliyyətindən illik gəliri formasından istifadə edəcəkdir.

### 2.4. **Layihə benefisiarları**

Layihənin 36 aylıq müddəti (2022-ci ilin oktyabrından 2025-ci ilin oktyabrına qədər) ərzində ölkənin 18 şəhər və rayonundan (Əlavə 1) ən azı 500 birbaşa benefisiarın cəlb edilməsi

gözlənilir. Bu ərazilər MK-lərin daha çox cəmləşdiyi bölgələrdir. Dolayı benefisiarlar baxımından, Komitə əvvəlki təcrübəyə əsaslanaraq müşahidə edib ki, bir ailə üzvünün gəlir gətirən bacarıqları varsa və bununla da yerli məşğulluq və ya özünüməşğulluq imkanları üçün rəqabət qabiliyyəti artırsa, bundan bir qayda olaraq bütün ailə üzvləri faydalanır. Orta hesabla 5 nəfərlik ailə ölçüsünə əsasən, layihə müddətində ümumilikdə 2500 birbaşa və dolayı benefisiarların əhatə olunması nəzərdə tutulur.

Daha da əhəmiyyətlisi, layihə boyu təqdim edilən qabaqcıl biznes idarəetməsi və icma səfərbərliyi bacarıqları və bilikləri MK-lərin fərdi və bütövlükdə daha yaxşı yaşamasına yardım etmək üçün daha çox daxili və xarici resurslardan istifadə etməyə səbəb olacaqdır. Layihə həm də inklüziv olacaq və əlilliyi olan şəxsləri əhatə edəcəkdir. Layihə əlilliyi olan insanların müraciətlərini təşviq etmək üçün onlarla işləyən təşkilatlarla əməkdaşlıq edəcək və onların layihəyə daxil edilməsi üçün lazımi tədbirlər görəcəkdir.

### 2.5. Hədəf icmalar və benefisiarlar

Təşkilati məqsədlər üçün layihə çərçivəsində ölkə coğrafi olaraq aşağıdakı 4 rayona bölünür: (i) qərb bölgəsi, (ii) cənub bölgəsi, (iii) şimal bölgəsi və (iv) Bakı, Sumqayıt, Abşeron yarımadası. MK-lərin əksəriyyətinin cəmləşdiyi konkret bölgələr aşağıdakılardır:

Bakı, Sumqayıt, Abşeron yarımadası – 350 mindən çox MK-lər

Şimal bölgəsi (Oğuz, Qəbələ, Mingəçevir şəhəri) – 24343 MK-lər

Cənub bölgəsi (Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Tərtər) – 137976 MK-lər

Qərb bölgəsi (Samux, Daşkəsən, Göygöl, Goranboy, Gəncə şəhəri, Yevlax) – 52538 MK-lər

**<u>Bölgələr üzrə bölgü</u>**

| | **Şimal bölgəsi** | **Cənub bölgəsi** | **Qərb bölgəsi** |
|---|---|---|---|
| Bakı<br>Sumqayıt<br>Abşeron yarımadası | Oğuz<br>Qəbələ<br>Mingəçevir şəhəri | Ağdam<br>Ağcabədi<br>Bərdə<br>Beyləqan<br>Füzuli<br>Tərtər | Samux<br>Daşkəsən<br>Göygöl<br>Goranboy<br>Gəncə şəhəri<br>Yevlax |

Layihə çərçivəsində bütün coğrafi regionların təmsil olunması üçün benefisiarlar aşağıdakı şəkildə seçiləcəkdir:

- 40% Bakı, Sumqayıt və Abşeron yarımadası
- 30% cənub bölgəsi
- 20% qərb bölgəsi
- 10% şimal bölgəsi

Bu bölgü bu ərazilərdə məskunlaşan MK-lərin əhalisinə təxminən mütənasibdir.

Toplanacaq ilkin məlumatlar əsasında daha yoxsul ailələrdən olan MK-lərə üstünlük veriləcəkdir. Layihə iştirakçılarının seçimi onların yaşayış yerlərinin şəraitinə və növünə uyğun olaraq aparılacaqdır. AH məcburi köçkünlərin məqbul mənzil şəraitini təmin etmək üçün son on ildə 116-dan çox yeni qəsəbə salıb və 300 mindən çox MK-lər həmin qəsəbələrə köçürülüb.

Komponent çərçivəsində aşağıdakı MK-lər dəstəklənəcəkdir:

(i) orta məktəbi bitirmiş, lakin başqa heç bir rəsmi universitet və ya peşə təhsili almamış MK-lər;
(ii) gəlir səviyyəsi, təhsil səviyyəsi, xidmətlərə çıxış imkanı, məşğulluq statusu, əlilliyi və yaşayış yeri növü ilə ölçülməklə həssas qrup hesab edilən MK-lər;
(iii) benefisiarların ən azı 50%-nin qadın olması şərti ilə gender balansının təmin edilməsi;
(iv) ehtiyaclar araşdırılarkən yüksək tələbat olduğu müəyyən edilmiş təlimləri iş yerlərində almaq istəyən MK-lər.

## 3. Komponentlərin təfərrüatlı icrası

### 3.1. Komponent 1: Bacarıqların inkişafı

Bu komponent çərçivəsində MK-lərə müvafiq peşə təhsili imkanları veriləcəkdir. Bu, ya əyani peşə təhsili, ya da usta təlimçilər ilə ənənəvi şagirdlik təlimi formasında olacaqdır.

Bu komponent üzrə fəaliyyət göstəriciləri aşağıdakılardır:

1) Bacarıqların inkişafı proqramına müraciət edənlərin sayı (ilkin siyahı)
2) Proqrama qəbul olunan qadın tələbələrin faizi (ən azı 50%)
3) Peşə/şagirdlik təlimlərində iştirak edən tələbələrin sayı (yaş, cins və doğum yerinə görə bölgü ilə)
4) Peşə və şagirdlik proqramlarına yerləşdirilən MK-lərin sayı və tədris olunan proqramların növləri
5) Təlim buraxılış imtahanından müvəffəqiyyətlə keçən şagirdlik və peşə hazırlığı iştirakçılarının faiz göstəricisi

**Mentorlar**

500 tələbəyə dəstək olacaq ən azı 6 mentorun cəlb olması planlaşdırılır. Hər qrupda 250 tələbədən ibarət 2 qəbul olacaq, beləliklə, hər qrupda hər mentora təxminən 42 tələbə düşəcəkdir.

Mentorlar Mentor Koordinatoru ilə əlaqədə olacaq və mütəmadi olaraq fəaliyyət haqqında məlumatı koordinatora təqdim edəcəklər (gedişatın izlənməsi).

Mentor Koordinatorunun vəzifələri aşağıdakılardan ibarət olacaqdır:

- mentorun işi üzrə ümumi fəaliyyət hesabatının LİQ direktoruna təqdim edilməsi
- LİQ-i maraqlandıran hər hansı məsələlər barədə hesabat verilməsi
- layihə haqqında mentorlar və layihə iştirakçılarının suallarının qəbul edilməsi və cavablandırılması
- iştirakçılara və maraqlı tərəflərə proqram üzrə məsləhət verilməsi və tələblərə əsasən layihə iştirakçısına uyğun mentorun seçilməsi üçün mentorluqla bağlı təlimat verilməsi.

Mentorlar LİQ işçiləri üçün Texniki Tapşırıqda qeyd olunan əsas vəzifələrindən başqa, həmçinin "ustalar" və digər təlimçilər ilə birlikdə təlimlərinə əsas biznes konsepsiyalarını daxil etməkdə kömək edəcəklər (məsələn: peşə üçün tələb olunan materialları müzakirə edərkən, təlimçilər həmçinin onların qiymətini, bu materiallara tələbat tezliyini, materialları toplu və ya daha yaxşı qiymətə necə əldə etməklə və s. bağlı müzakilər aparmalıdır). Layihə iştirakçılarından əsas biznes məlumatlarının qeydiyyatının aparılması istəniləcəkdir. Texniki təlimlərin sonunda MK-lər biznes təlimi təminatçısı ilə birlikdə ilkin biznes planı hazırlamaq üçün seçdikləri bizneslə bağlı bütün əvvəlki məlumatlardan istifadə edəcəkləri 5 günlük biznes təlimində iştirak edəcəklər. Bu təlimin yekun hissəsi kimi benefisiarlar həmçinin pulun idarə edilməsi üzrə təlim alacaqlar ki, bura əsas ailə büdcəsinin idarə edilməsi, habelə gözlənilməz halların planlaşdırılması və biznesin genişləndirilməsi üzrə təlimlər daxildir.

Mentorluq həm də qadınların təhsildən yayınmasının qarşısını almaq və sosial məsələlərdə layihə iştirakçılarına dəstək olmaq üsuludur. Məsələn, valideynlər layihənin gənc iştirakçıları üçün maneələr yaradırsa və ya gənclər bacarıqların inkişafı təliminə əlyetərlikdə çətinlik çəkirsə və ya gənc qadınlar evlənmək qərarına gəlirlərsə, mentorlar gənclər və onların ailələri ilə birlikdə problemlərə həll yollarını tapmağa çalışacaqlar. Mentorlar həmçinin təlimlərdə və biznes startaplarında uğur qazanılmasına diqqət yetirəcəklər. Onlar layihə iştirakçılarının materialı öyrənməkdə çətinlik çəkdiklərini və ya biznes fəaliyyətlərinə başlayarkən əlavə dəstəyə ehtiyaclarının olub olmadığını biləcəklər. Mentorlar həmçinin digərlərindən daha üstün göstəriciləri olan iştirakçıları müəyyən edəcək və onları mikro kredit imkanları və ya digər biznes inkişafı fəaliyyətləri ilə əlaqələndirərək imkanlarını daha da genişləndirmək yollarını axtaracaqlar. Bu iştirakçılardan eyni zamanda zəif göstəricili digərlərinə də mentorluq etmək istəniləcəkdir. Mentorluq konkret layihə mərhələsi ilə bitməyəcəkdir; onlar təlimi başa vurduqdan sonra layihə iştirakçılarına mentorluq və təlim keçməyə davam edəcək və əlavə dəstəyə ehtiyacı olan və ya xüsusi imkanlar təqdim oluna bilənləri təyin edəcəklər.

**Uğurlu (yüksək göstəricili) ərizəçilərin seçilməsi**

Layihəni təşviq etmək və insanların müraciət etməsinə maraq yaratmaq üçün MK icmaları ilə bir sıra məlumatlandırma görüşləri keçiriləcəkdir. Mentorlar MK-lərə işləyərək onlara seçdikləri peşə üzrə peşə hazırlığı üçün ərizə formasını doldurmağa kömək edəcəklər. Bu Ərizə Forması (Əlavə 3) şəxsin peşə təhsili və ya şagirdlik təlimi üçün müraciət etdiyini göstərəcəkdir. Müraciət edənlər istəklərini qeyd edəcəklər, lakin yekun olaraq Seçki Komitəsi onlar üçün hansının ən uyğun olduğuna qərar verəcəkdir. Həmçinin təhsil haqqı, nəqliyyat və yemək xərcləri də daxil olmaqla xərclərin layihə tərəfindən qarşılanacağı da bildiriləcəkdir. Qəbul edilmiş ərizələrə əsasən, LİQ Seçki Komitəsi tərəfindən nəzərdən keçirmək, yeniləmək (lazım olduqda) və təsdiq etmək üçün namizədlərin qısa siyahısını hazırlayacaqdır. Qısa siyahı kurs və ya şagirdlik olmasından asılı olmayaraq, təlimin mövzusunu və üsulunu təsdiq edəcəkdir. Və növbəti addım benefisiarların qeydiyyatı olacaqdır.

Ərizə ilə birlikdə aşağıdakı formalar (Əlavə 3) üzrə məlumatlar toplanacaqdır:

a. **Ərizə forması**

Komitə ərizəçilərin ailəsinin iqtisadi vəziyyəti haqqında məlumat toplamaq, ailələrin gəlir və xərcləri və proqramın təsiri ilə bağlı gözləntiləri barədə suallar vermək məqsədi ilə seçilmiş hər bir benefisiar ilə sorğu aparacaqdır.

b. **Ailənin öz fəaliyyətindən illik gəlir forması**

Komitə proqramın benefisiarların ailə gəlirlərinə təsirini izləmək üçün ərizəçi ailə başçıları ilə görüşlər zamanı bu üsuldan istifadə edəcəkdir.

c. **Yerli əmək bazarı üzrə sorğu forması**

Komitə bu formadan istifadə etməklə seçilmiş proqram benefisiarları ilə sorğu aparacaqdır. Bu sorğu benefisiarların yaşayış yerlərindəki bizneslər və mövcud bizneslərin gəlirli olub-olmaması haqqında biliklərini sorğulamaq məqsədi daşıyır.

Müraciət və qiymətləndirmə müddəti qısa siyahıya salınmış namizədlərin təsdiqi üçün 4 həftə və müraciət prosesi üçün 8 həftə daxil olmaqla 12 həftə davam edəcəkdir. Seçki Komitəsi ərizələrə baxmaq üçün yalnız iki dəfə görüşəcəkdir. Hər qrupda 2 paket və 250 benefisiar olacaqdlr. İlkin siyahının tərtibi LİQ, ekspertlər, mentorlar və sahə heyəti tərəfindən aparılacaqdır.

**Təlim təminatçılarının müəyyənləşdirilməsi, seçilməsi və onlarla razılaşma**

Bütün LİQ heyəti təlim təminatçılarının və usta təlimçilərin seçilməsində iştirak edəcəkdir. Razılaşma mexanizmi yuxarıda şərh edilib. LİQ heyəti, xüsusilə M&Q üzrə mütəxəssis və mentor koordinatoru razılaşmaların icrasına nəzarət edəcəkdir.

**Təlim təminatçılarına ödənişlər**

Peşə təhsili və ya şagirdlik təlimi üçün müraciət edən ərizəçi Seçki Komitəsi tərəfindən seçildikdən sonra, LİQ digər ərizəçilərə namizədin seçilməsi barədə məlumat verəcəkdir. Onlara həmçinin təlimin mövzusu, onun formatı və təxmini başlama vaxtı barədə məlumat veriləcəkdir. Onlar həmçinin qeydiyyatın son tarixi, hansı təlim təminatçısına müraciət etmələri və s. barədə məlumatlandırılacaqlar. Təlim təminatçıları ilə xidmət müqaviləsi seçilmiş peşə üzrə təxminən 6 aylıq (kursdan asılı olaraq Azərbaycanda təlimlər üçün orta müddətdir) təlim və ya şagirdlik müddətini, benefisiarın təlimdə iştirak etməsi üçün yemək və bütün nəqliyyat xərclərini əhatə edəcəkdir.

Təlim təminatçılarına hər bir tələbənin qeydiyyatı təsdiqləndikdən və qeydiyyatdan keçmiş tələbələrin siyahısı ilə hesab-faktura alındıqdan sonra 50% ödəniləcəkdir. Hər bir təlim təminatçısından tələbələr haqqında məlumat, məsələn, davamiyyət, kursu bitirmə və s. kimi məlumatlar tələb olunacaqdır.

Hər bir təlim təminatçısı hər bir tələbəyə düşən təhsil haqqından əlavə, onları yemək və nəqliyyatla təmin etmək üçün əlavə vəsait alacaqdır. Bu vəsaitlər təlim təminatçılarına ödənişin bir hissəsi kimi köçürüləcək və LİQ ilə razılaşdırılmış hesabatlar vasitəsilə nəzarət ediləcəkdir.

**Peşə bacarıqları imtahanı**

Bütün MK-lərin təlim zamanı əldə etdikləri bilik və bacarıqları yoxlanılacaqlar. İmtahanlar təlim təminatçıları tərəfindən həyata keçiriləcəkdir. İmtahan sessiyaları onların müvafiq imtahan komissiyaları tərəfindən aparılacaqdır. Onlar ədalətli kənar qiymətləndirmə üçün tələbələri təqdim olunan kursların kurikulumunda əhatə olunmuş material üzrə imtahan edəcəklər. Dövlət və ya özəl qurum olmasından asılı olmayaraq, hər bir müəssisə öz imtahanını keçirəcək və sertifikat verəcəkdir. Dövlət peşə təhsili müəssisəsi dövlət tərəfindən təsdiq edilmiş sertifikat verəcəkdir. İmtahandan keçmək üçün ikinci imkanın verilməsi və 2-ci Komponent üzrə maliyyələşdirilən avadanlıq qrantlarının əldə edilməsi

üçün ilk sınaqda imtahandan keçə bilməyən MK-lər kurslarını digər təlimçilər ilə təkrarlamaq şansı əldə edəcək və 3 aydan sonra onlar üçün yeni xüsusi imtahan təşkil olunacaqdır. Tələbələrin təkrar 3 aylıq kursa ehtiyacı ola biləcək təxminən 5%-ni əhatə etmək üçün kiçik büdcə ayrılacaqdır.

**Monitorinq və qiymətləndirmə**

Komiyə tərəfindən layihənin ümumi monitorinq və qiymətləndirmə sistemində müəyyən edilmiş qrafikə uyğun olaraq aralıq və yekun nəticə göstəriciləri üzrə məlumatlar toplanılacaqdır. Komitə daxilindəki qrup layihənin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə cavabdeh olacaqdır. Nəticələr Çərçivəsinə hər yarımillik layihə hesabatı zamanı hesabat verilə bilən göstəricilər daxil ediləcəkdir.

## 3.2. Komponent 2: Məşğulluq və biznesin inkişafına dəstək komponenti

Bu komponentə biznesin inkişafı fəaliyyətləri, işə yerləşdirmə və yeni bizneslərin və ya iş yerlərinin yaradılması üçün əsas alətlər və avadanlıqlar üçün vəsaitlərin verilməsi daxildir. Təlim məzunlarına öz bizneslərini qurmaqda köməklik üçün kredit əldə etmələrinə dəstək veriləcəkdir. Mentorlar bir çox digər vəzifələri arasında digərlərindən daha üstün göstəricləri olan iştirakçıları müəyyən edəcək və onları mikro kredit imkanları və ya digər biznes inkişafı fəaliyyətləri ilə əlaqələndirərək imkanlarını daha da genişləndirmək yollarını axtaracaqlar.

Bu komponent üzrə əsas fəaliyyət göstəriciləri aşağıdakılardır:

1) Təlim proqramı çərçivəsində biznes təlimi üzrə buraxılış imtahanından uğurla keçən biznesin inkişafı və sosial bacarıqlar üzrə təlim iştirakçılarının faizi
2) Biznesin inkişafı və şagirdlik/peşə təlimi üzrə muzdlu işlə təmin edilmiş MK iştirakçılarının sayı
3) Biznesin inkişafı və şagirdlik/peşə təlimi üzrə öz biznesini qurmuş MK iştirakçılarının sayı
4) Tələbələr tərəfindən hazırlanmış və Seçki Komitəsi tərəfindən təsdiq edilmiş uğurlu biznes planlarının faizi (öz biznesini qurmaqdansa, işə düzəlməyə üstünlük verənlər də müvafiq dəstək üçün müraciət edə bilərlər)
5) Biznesin inkişafı təliminin iştirakçıları ilə mikro-kredit təşkilatları arasında təşkil olunan interaktiv görüşlərin sayı

**Mentorların vəzifələri və öhdəlikləri**

Mentorlar layihənin 3-cü ayında fəaliyyətə başlayacaqlar. Hər bir mentor layihə boyunca təxminən 80 (40 nəfərdən ibarət 2 qrup) tələbəni dəstəkləyəcəkdir. Onlar ilə müsabiqə əsasında müqavilə bağlanacaq və ayın bütün iş günlərini işləyəcəklər. Təfərrüatlar Satınalma bölməsində təqdim edilir. Mentorlar LİQ direktoruna hesabat verəcək və aylıq ödəniş alacaqlar.

**Əsas öhdəliklər**

1) Mentor layihə iştirakçılarını Layihə və digər gəlir gətirən və peşəkar imkanlarla tanış etmək üçün resurs və məsləhətçidir;

2) Benefisiarların gələcək biznes/özünüməşğulluq sahələrinin seçilməsinə dəstək və benefisiarların peşə hazırlığının təşkili (benefisiarların müvafiq peşə təhsili müəssisələrinə/ustalara təqdim edilməsi). Mentorlar onlara təlim təminatçıları ilə bağlı məsləhətlər verəcək və bu, yekun siyahıda Seçki Komitəsinə hansı kurs və ya şagirdliyin təklif olunmasının müəyyənləşdirilməsində istifadə olunacaqdır;
3) Peşəkar biznes təlimləri və potensialın gücləndirilməsi xidmətləri vasitəsilə benefisiarlara biznesin əsasları haqqında lazımi məlumatların verilməsi;
4) Təlim başa çatdıqdan sonra iş əldə etməkdə və ya biznes planın hazırlanmasında köməklik göstərilməsi və benefisiara lazım gəldikdə biznesin qurulması ilə bağlı lazımi məsləhətlərin verilməsi;
5) Komponent üzrə benefisiarların özəl sektorla əlaqəsinin təmin edilməsi, potensial işəgötürənlərlə əlaqələr yaratmaqla əmək bazarının ehtiyaclarına uyğun bizneslərin/bacarıqların genişləndirilməsi və iş yerlərinin tapılması;
6) Davamlı əməliyyat və biznesin davamlılığına dəstək xidmətlərinin təmin edilməsi (hüquqi və tənzimləyici məsləhət xidmətləri, biznesin qeydiyyatı və rəsmiləşdirilməsi, ekoloji və sosial ekspertiza, maliyyəyə çıxış, yeni məhsulun işlənib hazırlanması, marketinq, şəbəkə qurulması və mühasibatlıq və s. daxil olmaqla, lakin bununla məhdudlaşmayan mentorluq kursları);
7) İştirakçılara avadanlıq və vasitələr üçün qrant ərizəsi hazırlamağa kömək edilməsi;
8) Zəruri hallarda kredit və ya lizinq məqsədləri üçün sənədlərin hazırlanmasına köməklik göstərilməsi;
9) M&Q üzrə mütəxəssis ilə sıx əməkdaşlıqda biznesin qurulmasından sonra benefisiar fəaliyyətlərin monitorinqi. Mentorların TT-larına mentorluq etdikləri hər bir şəxs və onların statusu haqqında yeniliklərin təqdim olunduğu vaxt cədvəlləri və hesab-fakturalarla birlikdə təqdim olunacaq aylıq hesabatlar daxildir.
10) Layihə çərçivəsində yaradılmış iş yerləri və bizneslərə sonrakı dəstəyin təmin olunması;
11) Proqram benefisiarlarının yerli, regional və milli səviyyədə biznes icması ilə əlaqələrindən və şəbəkələrindən yararlanması.

**Biznes təlimi, biznes planlarının hazırlanması, o cümlədən alətlər və avadanlıq üçün qrantı təklifi, biznes kursu imtahanı**

Komitə dərslərin minimum 85%-də iştirak edən və imtahandan müvəffəqiyyətlə keçən və öz biznesini qurmaq niyyətində olan MK-lər üçün biznes bacarıqları üzrə ən azı 15 günlük təlimlər təşkil edəcəkdir. Məzunların ən azı 70%-nin öz bizneslərini quracağı, təxminən 30%-nin isə iş tapacağı təxmin edilir. Bu kurslara təlim təminatçıları tərəfindən biznes üzrə 5 günlük təlim və bazar araşdırması, tələbin müəyyənləşdirilməsi, şirkətlərlə görüşlər, əsas mühasibat uçotu, vergilər və s. üzrə 10 günlük mentorluq dəstəyi daxildir. Təlim kurslarının təfərrüatları və planı aşağıda şərh olunur.

1. Biznesin idarə edilməsi
   - Yeni biznesin başlanması;
   - Maliyyə idarəetməsi;
   - Mikro kredit üzrə məlumatlandırma təlimi;
   - Alətlərin maliyyələşdirilməsi üzrə Biznes Planlarının hazırlanması;
   - Büdcə tərtibi və marketinq üzrə təlim;
   - İnventarın idarə edilməsi;
   - Əmanətlər və investisiyalar;
   - Gözlənilməz hallarda vəsaitlərin idarə edilməsi və əldə edilməsi;
   - Vəsaitərin idarə edilməsi;

- Biliklərini başqalarına ötürmək istəyən insanlar üçün bacarıqların ötürülməsi təlimi.

2. Mikromaliyyə üzrə təqdimat
   - Kredit ərizəsinin təqdim edilməsi;
   - Qrup və fərdi kreditlər;
   - Aqrar kreditlər;
   - Sahibkarlığın və kənd təsərrüfatının istənilən sektorunda məsləhətçi yardım;
   - Mikromaliyyə sahəsində qadınlar (mikromaliyyə məsləhətləri/təlimləri vasitəsilə MK qadınlara dəstək)

3. Biznes qaydaları
   - Vergilərin tənzimlənməsi üzrə təlim;
   - Fərdi sahibkarlığın yaradılması və qeydiyyatı üzrə təlimlərin hüquqi tənzimlənməsi;

**Təlim kursları planı:**

| KURSLAR | MÖVZULAR | GÜN İLƏ MÜDDƏTİ | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| Biznesin idarə edilməsi | Yeni biznesin başlanması | ■ | ■ | | | | | | | | | | | | | |
| | Maliyyə idarəetməsi; İnventarın idarə edilməsi; Biliklərini başqalarına ötürmək istəyən insanlar üçün bacarıqların ötürülməsi təlimi | | ■ | ■ | | | | | | | | | | | | |
| | Biznes planlarının hazırlanması; Gözlənilməz hallarda vəsaitlərin idarə edilməsi və əldə edilməsi; İş tapmaq / şəbəkə qurmaq üçün bacarıqlar | | | | ■ | ■ | | | | | | | | | | |
| | Mikro kredit üzrə məlumatlandırma təlimi; Əmanətlər və investisiyalar; Mikromaliyyə sahəsində qadınlar | | | | | | ■ | ■ | ■ | | | | | | | |
| | Büdcə tərtibi və marketinq üzrə təlim; Vəsaitərin idarə edilməsi | | | | | | | | ■ | ■ | | | | | | |
| Mikromaliyyə üzrə təqdimat | Kredit ərizəsinin təqdim edilməsi | | | | | | | | | | ■ | | | | | |
| | Qrup və fərdi kreditlər | | | | | | | | | | | ■ | | | | |
| | Aqrar kreditlər | | | | | | | | | | | | ■ | | | |
| | Sahibkarlığın və kənd təsərrüfatının istənilən sektorunda məsləhətçi yardım | | | | | | | | | | | | ■ | | | |
| Biznes qaydaları | Vergilərin tənzimlənməsi | | | | | | | | | | | | | ■ | | |
| | Fərdi sahibkarlığın yaradılması və qeydiyyatının hüquqi aspektləri | | | | | | | | | | | | | | ■ | |
| | | | | | | | | | | | | | | | | ■ |

Təlim iştirakçıları biznes planının hazırlanmasının bir hissəsi olaraq 1500 ABŞ dollarına qədər məbləğdə ehtiyacları olan alətlər və avadanlıqlar üçün yazılı təklif verəcəklər. Biznes planları üçün ərizə forması 3 saylı Əlavədə təqdim olunur. Təlim iştirakçılarına biznes planlarının hazırlanmasında mentorlar tərəfindən köməklik göstəriləcəkdir.

**Biznes planların Seçki Komitəsi tərəfindən təsdiqi**

Biznes planlar LİQ tərəfindən tövsiyələr daxil olmaqla ümumiləşdiriləcək və nəzərdən keçirmək, yeniləmək (tələb olunduqda) və təsdiqlənmək üçün Seçki Komitəsinə təqdim ediləcəkdir. SK üzvlərinin bu xüsusi tapşırıq üçün maksimum 2 həftə vaxt ayıracağı gözlənilir. Seçki Komitəsi təklifləri qiymətləndirmək və avadanlıqların alınması üzrə müqavilələrin razılaşdırılması üçün şəffaf prosedurdan istifadə edəcəkdir. Komitə təklifləri qiymətləndirəcək və benefisiarların yekun siyahısını və büdcəni təsdiq edəcəkdir. Seçki Komitəsi biznes planlarında təsvir olunan biznes və ya iş növü üçün bazar tələbatı əsasında maliyyə sənədlərinin, o cümlədən mənfəət və məxaric proqnozlarının müvafiqliyi və biznes planın ümumi keyfiyyəti barədə qərar qəbul edəcəkdir. Başqa firmalarda iş əldə etmiş ərizəçilər təklif etdikləri avadanlıq paketinə görə qiymətləndiriləcəklər. Onlardan işəgötürənlərinin təsdiqini təqdim etmələri istəniləcəkdir. Bundan əlavə, Seçki Komitəsi bütün tələb olunan avadanlığın təklif olunan biznes və planla aydın şəkildə əlaqəli olduğunu yoxlayacaqdır.
Mentorlar həm dövlət, həm də özəl sektorda müvafiq iş axtaran şəxslərə köməklik göstərəcəklər. Bundan əlavə, LİQ məcburi köçkün benefisiarlar arasında məşğulluğu təşviq etmək üçün biznes nümayəndələri, məşğulluq agentlikləri və s. ilə görüşlərin/panel müzakirələrinin/təqdimatların keçirilməsinə köməklik göstərəcəkdir.

**Avadanlıq paketlərinin təmin oluması**

Peşə təhsili və biznes təlimi imtahanlarından qənaətbəxş səviyyədə keçmiş və biznes planları Seçki Komitəsi tərəfindən təsdiq edilmiş məzunlar yeni biznes müəssisələrinə və ya işlə təmin olunmalarına dəstək üçün avadanlıq və alətlər paketi alacaqlar. Alət və avadanlıqların ümumi dəyəri adambaşına maksimum 1500 ABŞ dolları təşkil edəcəkdir (avadanlığın və daşıma dəyəri daxil olmaqla). Komitə avadanlıq və alətləri alış-veriş üsulu ilə satın alacaqdır.

Komitə uğur qazanan namizədlər üçün avadanlıq və alətlərin verilməsi tədbirlərini təşkil edəcək və yerli İcra Hakimiyyətinin nümayəndələrini, donor nümayəndələrini, valideynləri, mikro kredit təşkilatlarını və yerli KİV-ləri dəvət edəcəkdir.

**Kreditə çıxışın təşviqi**

MK-lər rəsmi maliyyələşdirmə əldə etmək üçün bir sıra məhdudiyyətlərlə üzləşirlər, o cümlədən onların kredit reytinqi, girov üçün aktivləri və biznes təcrübəsinin olmaması, həmçinin onların çox zaman qanunvericilikdən kənarda qalması faktı da onlarla bağlanmış müqavilə sazişinin hüquqi cəhətdən icrasını mümkünsüz edir. Bu səbəblər, eləcə də MK-lərin daha yüksək risklərə məruz qalması ilə bağlı təsəvvür onların maliyyəyə çıxışını əngəlləyir. Nəticədə, MK sahibkarlar öz bizneslərini qurmaq və genişləndirmək üçün çox vaxt ailələrinə və dostlarına müraciət etməli olurlar. Bu baxımdan, avadanlıq və alətlər üçün qrant alınması layihə çərçivəsində biznes startaplarının inkişafına böyük töhfə olacaqdır. Hal-hazırda MK-lərin kredit alması üçün xüsusi qanun yoxdur.

Mentorlar məcburi köçkün benefisiarlarını mikrokredit təşkilatları ilə əlaqələndirmək üçün müxtəlif fəaliyyətlər vasitəsilə kiçik biznesin inkişafında davamlı texniki dəstək verəcəklər. Onlar benefisiarlara kredit əldə etməkdə kömək edəcək, MK-ləri uğurlu

bizneslərlə əlaqələndirəcək; və biznes seminarları və dəyirmi masalar, səfərlər, şəbəkələşmə və s. keçirəcəkdir. Komitə mikrokredit imkanlarını müzakirə etmək üçün mikrokredit təşkilatlarını məzunları ziyarət etməyə və onlarla görüşməyə təşviq edəcəkdir. Bəzi banklar və bank olmayan maliyyə institutları da məcburi köçkünlərin sabit işi və ya müəyyən aktivləri, bank kartı, vergi ödəyicisinin identifikasiya nömrəsi və s. olduğu halda onlara kredit verə bilər.

### 3.3. Komponent 3: Vətəndaş iştirakı, sosial birlik, monitorinq və əməliyyat dəstəyi komponenti

Bu komponent həm layihə benefisiarlarının, həm də digər maraqlı tərəflərin öz icmalarında fəal iştirak potensialının artırılması üçün dəstəyi, eləcə də əsasən Layihənin İcra Qrupu (LİQ) formasında olan ümumi layihənin icra potensialını əhatə edir.

Vətəndaş iştirakı və sosial birlik

Bu komponent layihənin benefisiarları üçün dövlət xidmətlərinə çıxış, vətəndaşların və icmanın iştirakı, icma qruplarının yaradılması, etimad əsasında münasibətlərin qurulması və MK-lərin yeni yaşayış mühitinə sülh yolu ilə və birgə keçidini dəstəkləmək üçün müvafiq üsullar üzrə təlimi dəstəkləyəcəkdir.

Komitə MK-lərin azad edilmiş ərazilərə qaytarılması üzrə cavabdehdir. Zəngilanın Ağalı ağıllı kəndinə qayıdışın 2-ci mərhələsi 2022-ci ilin sentyabrında baş tutub. Prosesə bütün aidiyyəti dövlət qurumları cəlb olunub. İlkin olaraq ehtiyacların qiymətləndirilməsi aparılır, sonra infrastruktur təmin edilir və Komitə yeni qəsəbələrə köçəcək insanları müəyyən edir.

İştirakçıların təliminə əlavə olaraq, komponent çərçivəsində MK-lərə dəstək fəaliyyətlərinin müxtəlif qrupların dəyişən ehtiyaclarına və istəklərinə cavab verməsini təmin etmək üçün vətəndaşlar və hökumət arasında davamlı əks əlaqə yaradılması məqsədi ilə, layihə iştirakçıları, onların ailələri, digər MK-lər və digər maraqlı tərəflərlə intensiv vətəndaş iştirakı təşəbbüsünün hazırlanması və həyata keçirilməsində AH-nə dəstək təmin olunacaqdır.

Bütün Layihə üzrə ümumi nəticə göstəriciləri ilə yanaşı, bu komponent üzrə fəaliyyət göstəriciləri aşağıdakılardır:

1) Layihə fəaliyyətlərinin məcburi köçkünlər, VİXT, hökumət və digər maraqlı tərəflər arasında əməkdaşlığı yaxşılaşdırdığını bildirən sorğuda iştirakçısı benefisiarların faizi. Bu göstəricini qiymətləndirmək üçün sorğudan istifadə olunacaqdır.
2) icma səfərbərliyi və etimadın yaradılması üsulları üzrə təlim keçmiş insanların sayı (qadınların iştirak payı)

**Vətəndaş iştirakı xidməti təminatçısı (VİXT)**

Layihə çərçivəsində vətəndaş iştirakı və sosial birlik fəaliyyətləri üçün əsas dəstək təminatçısı kimi vətəndaş iştirakı xidməti təminatçısı (VİXT) ilə müqavilə bağlanacaqdır. İlkin TT 8 saylı Əlavədə şərh olunur, lakin bu müqavilə üzrə maliyyələşdirilən fəaliyyətlərin qısa xülasəsinə aşağıdakılar daxildir:

- MK-lərin yeni məskunlaşdıqları ərazilər də daxil olmaqla, hədəf ərazilərdə MK-lərin vətəndaş iştirakı ehtiyaclarının qiymətləndirilməsinin yerinə yetirilməsi
- MK-lərin yaşadıqları icmalarda, o cümlədən MK-lərin yeni məskunlaşdıqları ərazilərdə və hökumət tərəfindən bərpa və sülh quruculuğu fəaliyyətlərin həyata keçirilməsi ilə bağlı fəal iştirakını dəstəkləmək üçün MK-lər üçün Vətəndaş İştirakı üzrə Fəaliyyət Planının elementlərinin hazırlanması və həyata keçirilməsi;
- 1 və 2-ci Komponentlərin bütün benefisiarları üçün vətəndaş iştirakı və sosial birlik üzrə 2 günlük təlimin hazırlanması və keçirilməsi;
- yerli tələblərə yönümlü VCT-lər üçün vətəndaş iştirakı və sosial birlik üzrə MK icması üzvləri üçün kontekst əsaslı, keyfiyyətli, praktiki təlimlər təklif etmə imkanı yaratmaq məqsədi ilə beş hədəf sahədə regional potensialın gücləndirilməsi seminarlarının hazırlanması və həyata keçirilməsi. VCT-lər Məcburi Köçkünlər üçün vətəndaş iştirakı Fəaliyyət Planında müəyyən edilmiş müxtəlif tədbirləri həyata keçirməyə təşviq edilə bilər.
- layihənin bağlanmasına qədər icranın effektivliyini artırmaq üçün layihənin icrası ilə bağlı benefisiarlardan rəylərin alınmasının səmərəliliyinin artırılması.

**VİXT-in vəzifələri və öhdəlikləri**

VİXT aşağıdakıları yerinə yetirəcəkdir:

- Müfəssəl iş planı və qrafikinin hazırlanması və baxış və təsdiq üçün Dövlət Komitəsinə təqdim edilməsi.
- Vətəndaş iştirakı üçün mövcud mexanizmlərin, vətəndaş iştirakı üzrə mövcud təcrübələrinin, MK (o cümlədən köçürülmüş MK-lər) və yerli icraedici orqanlar/hökumət arasında vətəndaş iştirakı üçün maraq doğuran sahələrin müəyyən edilməsi məqsədi ilə, bütün hədəf ərazilərdə, eləcə də Zəngilan rayonunun yeni məskunlaşmış Ağalı kəndində yaşayan MK-lərin vətəndaş iştirakı ehtiyaclarının qiymətləndirilməsinin aparılması. Gənclər, yaşlılar, qadınlar, əlillər, müxtəlif cinsi oriyentasiya və gender kimliyi olan şəxslər də daxil olmaqla həssas qruplara xüsusi diqqət yetiriləcəkdir. Bu ehtiyacların qiymətləndirilməsinə yerli məmurlar və MK liderləri ilə aparıcı məlumat mənbəyi müsahibələri (kişi və qadınların balansı saxlanılmaqla), fokus qrupları və onların effektivliyini və potensialını qiymətləndirmək üçün hər hansı sənədləşmə və ya rəqəmsal vətəndaş iştirakı sistemlərinin nəzərdən keçirilməsi daxildir.
- Ehtiyacların qiymətləndirilməsinin nəticələrinə əsasən, layihə benefisiarlarının, yerli MK icması liderlərinin və milli QHT-lərin əvvəllər işğal olunmuş ərazilərdə bərpa və sülh quruculuğu üzrə milli proqramlarda fəal iştirakı, icma qruplarının yaradılması, etimad əsasında münasibətlərin qurulması və MK-lərin yeni yaşayış mühitinə sülh yolu ilə və birgə keçidini dəstəkləmək üçün potensalın artırılması məqsədilə MK-lər üçün Vətəndaş İştirakı üzrə Fəaliyyət Planın hazırlanması. Konsepsiya/strateji fəaliyyət planına digər məsələlərlə yanaşı, hədəf auditoriya(lar), kontekst, nəzərdə tutulan yekun nəticələr, müvafiq və innovativ ideya(lar) və mexanizmlər daxil olmalıdır. Konsepsiya/strateji fəaliyyət planını yekunlaşdırmaq üçün hədəf auditoriyaların nümayəndələri ilə məsləhət görüşünün keçirilməsi.
- Layihəyə töhfə və həyata keçirilən fəaliyyətlərlə bağlı rəy təmin etmək üçün hədəf ərazilərdə benefisiarlar da daxil olmaqla, MK-lər üçün rəqəmsal platforma/mexanizmin hazırlanması və və həyata keçirilməsi. Rəqəmsal platformanın fəaliyyəti və yaranan ideyalar barədə Dövlət Komitəsinə rüblük icmal hesabatların təqdim olunması.

- Təlimlə bağlı Benefisiar rəyinin hazırlanması; işəgötürənlərin rəyi; benefisiarların öz icmalarında vətəndaş iştirakı fəaliyyətlərində iştirakının monitorinqi və təşviqi.
- Əlilliyi olan MK-lər üçün onların icma fəaliyyətlərində fəal iştirakını dəstəkləyən və onların fəal iştirakını və layihəyə töhfələrini təmin edən fərdil vətəndaş iştirakı təliminin hazırlanması və həyata keçirilməsi. Bu, əlilliyi olan şəxsləri dəstəkləyən bir və ya bir neçə ixtisaslaşmış VCT ilə tərəfdaşlığa yol aça bilər.
- 1 və 2-ci komponentlərin bütün benefisiarları üçün vətəndaş iştirakı üzrə 2 günlük təlim kursunun hazırlanması və təşkili. Hər kurs üçün 500 benefisiar və 50 iştirakçı hədəfi ilə ümumilikdə 10 tədbir həyata keçiriləcəkdir.
- Hədəf MK-lərin, aktiv MK icma qruplarının və milli/regional VCT-lərin potensialını artıran innovativ və əsaslı kontekst, vizual cəlbedici və əsaslı şəkildə hazırlanmış materiallar və regional iştirak fəaliyyətləri ilə seminarların təşkili.
- Vətəndaş iştirakı və sosial birlik mövzusunda məcburi köçkün icmasının üzvləri üçün kontekst əsaslı, keyfiyyətli, praktiki təlimlər təklif etmək imkanı yaratmaq məqsədi ilə yerli tələblərə yönümlü VCT-lər üçün beş hədəf regionda regional potensialın gücləndirilməsi seminarlarının keçirilməsi. VCT-lər MK-lər üçün vətəndaş iştirakı üzrə Fəaliyyət Planında müəyyən edilmiş müxtəlif tədbirləri həyata keçirməyə təşviq edilə bilər.
- Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə yarımillik tərəqqi hesabatları, habelə yekun icmal hesabatın təqdim olunması.

Seçilmiş VİXT əlavə olaraq aşağıdakıları müəyyənləşdirəcəkdir:

- Ehtiyacların qiymətləndirilməsi metodologiyası və fokus qrup müzakirələrinin və sorğu metodlarının uyğunluğunu nəzərə alaraq müxtəlif iştiraklı sorğu metodlarının müvafiqliyi;
- Nümunə ölçüsü;
- Vaxt çərçivəsi;
- Tədqiqatçıların və sorğu keçirənlərin sayı daxil olmaqla icra tədbirləri;
- Qiymətləndirmənin nəzərdə tutulan məqsədi və miqyası;
- Ehtiyacların qiymətləndirilməsi üzrə nəticələrin yayılması strategiyası.

VİXT yerli MK icması liderləri və milli QHT-lərlə birlikdə onları bərpa və sülh quruculuğu üzrə milli proqramlarda fəal iştirak etməyə təşviq edəcəkdir.

VİXT-in layihə müddətindən sonra hökumət və inkişaf təşkilatları ilə peşəkar əlaqələr saxlaması olduqca vacibdir. Bu, digər prioritet problemlərin həlli, eləcə də gələcəkdə etimadın yaradılması və MK-lərin dinc və birgə şəkildə yeni yaşayış mühitinə köçürülməsi üçün xüsusilə vacibdir. VİXT MK icmasının nümayəndə qrupları ilə birgə işləmək üçün hökumətin müvafiq sektorlarını cəlb edəcəkdir. VİXT layihə müddətində icmanı regionlarda fəaliyyət göstərən digər özəl müəssisə və ya təşkilatlarla əlaqələndirmək üçün bütün imkanları nəzərə alacaqdır.

## 4. Təşkilatı tədbirlər

### 4.1. İcraçı qurum (İQ)

Layihə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun (MKSİF) texniki dəstəyi ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (Komitə) tərəfindən idarə olunacaqdır. Komitə MK proqramlarını dəstəkləmək və yerli idarəetmə orqanları və ya icra komitələri ilə əlaqə yaratmaq üçün əsas məsuliyyət daşıyan dövlət qurumudur. MKSİF Komitənin sədrinin rəhbərlik etdiyi Müşahidə Şurasına tabe olan muxtar təşkilatdır. MKSİF qeyri-kommersiya təşkilatıdır.

Komitə layihənin ümumi idarə edilməsi, əlaqələndirilməsi və icrası, o cümlədən bütün texniki, fidusiar və inzibati məsələlərə nəzarət üzrə cavabdeh olacaqdır. Komitənin, MKSİF-in əməkdaşlarından, və ehtiyac olduqda digər məsləhətçilərdən ibarət LİQ yaradılacaqdır. M&Q üzrə məsləhətçilər və mentorlar müsabiqə əsasında seçiləcəkdir. Layihə Komitənin regional ofislərinin insan resurslarından da istifadə edəcək, lakin onlara ödəniş edilməyəcəkdir.

Layihə üzrə LİQ-nin vəzifələri və öhdəlikləri aşağıdakıları əhatə edir:

- Dünya Bankı ilə razılaşdırılmış prosedurlara uyğun olaraq bütün satınalma məsələlərinin idarə edilməsi;
- Dünya Bankının fidusiar tələblərinə uyğun olaraq bütün maliyyə idarəetmə məsələlərinin həyata keçirilməsi;
- Dünya Bankı və Hökumət üçün layihənin ümumi tərəqqi hesabatlarının hazırlanması;
- Xidmət/təlim provayderləri ilə müqavilələrin hazırlanması, idarə edilməsi və onlara nəzarət edilməsi (3-cü Komponentə uyğun VİXT);
- Xidmət/təlim təminatçıları arasında inzibati, satınalma və fidusiar uyğunluğun təmin edilməsi;
- Yerli Komitə ofislərinə texniki dəstəyin göstərilməsi və icra ilə bağlı bütün problemlərinin həllində fəal iştirak;
- Seçki Komitəsinin fəaliyyətinə nəzarət edilməsi və əlaqələndirilməsi;
- Hökumət və donorlar da daxil olmaqla, daha geniş maraqlı tərəflər icmasına layihənin təmsil edilməs;
- Layihənin digər hökumət və donor tərəfindən maliyyələşdirilən və MK icmalarına yönəlmiş müdaxilələrlə əlaqələndirilməsi.

**QMKİDK-in vəzifələri**

Layihə üzrə ümumi məsuliyyət QMKİDK-nin üzərinə düşür. O, (i) bütün layihəni idarə etmə potensialını təmin etmək (ii) ən həssas MK-lərin cəmləşdiyi ərazilərdə ən əhatəli coğrafi yayılmanı təmin etmək və (iii) komponentlər üzrə tapşırıqları yerinə yetirməyə imkan verən bir sıra texniki resursları təmin etmək məqsədi ilə işçi tərəfdaşların siyahısını tərtib edir.

QMKİDK hər bir komponentin məqsədlərinə nail olmaq üçün bütün komponentlər üçün məsuliyyət daşıyır. Komitənin əhatə edəcəyi vəzifə və öhdəliklərə layihənin idarə edilməsinin bütün aspektləri daxildir:

a. Layihənin idarə edilməsi;
b. 3-cü Komponent üzrə monitorinq, qiymətləndirmə və Komitəyə gedişat barədə hesabatvermə;
c. Kompleks icma səfərbərliyi xidmətlərinin göstərilməsi;

d. Geniş spektrli təlim və bacarıqların artırılması xidmətlərinin göstərilməsi;
e. Müəyyən sahələrdə yüksək keyfiyyətli texniki və peşəkar resurs kadrlarının təmin edilməsi.

### 4.2. Seçki Komitəsi

SK-nin vəzifəsi benefisiarların və layihə vəsaitlərinin resipientlərinin seçilməsi üçün bütün təklifləri nəzərdən keçirmək və təsdiq etməkdən ibarətdir. SK LİQ tərəfindən layihənin icrasının operativ idarə edilməsində iştirak etmir və/yaxud LİQ ilə konkret xidmətlərin yerinə yetirilməsi üçün müqavilə bağladığı xidmət təminatçıları arasında münasibətlərin tərəfi deyildir.

SK aşağıdakı prinsiplər və öhdəliklər əsasında fəaliyyət göstərir:

- SK Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin qurumlarının üç nümayəndəsindən, Dövlət Məşğulluq Agentliyinin nümayəndəsindən, beynəlxalq donor icmasının nümayəndəsindən, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) nümayəndəsindən ibarətdir. Yalnız bu beş üzv səsvermə hüququna malikdir.
- SK üzvləri iştirakçı qurumlar tərəfindən seçilir və şəxsən təyin edilir. Təyinatlarda edilən dəyişikliklər iştirakçı qurum tərəfindən LİQ-ə bildirilməlidir.
- SK-ə BMT QAK-ın nümayəndəsi, o, olmadıqda isə Dövlət Məşğulluq Agentliyinin nümayəndəsi sədrlik edir.
- SK ən azı altı ayda bir dəfə və/və ya daha tez-tez LİQ tərəfindən təqdim olunan layihə benefisiarlarının seçilməsi ilə bağlı təklifləri nəzərdən keçirmək və qərar vermək üçün LİQ tərəfindən xüsusi sorğular əsasında iclas keçirir. Bütün lazımi sənədlər LİQ tərəfindən iclasdan ən azı on gün əvvəl SK üzvlərinə təqdim edilir.
- SK-nin iclaslarının protokolları LİQ tərəfindən aparılır və protokolların yekun variantları yalnız SK sədri tərəfindən təsdiq edildikdən sonra rəsmiləşdirilir.
- SK-nin iclasları yalnız ən azı üç üzv iştirak etdikdə keçirilə bilər. İştirak edə bilməyən üzvlər iclasa ən azı iki gün qalmış SK sədrinə məlumat verməli və səbəbini (xəstəlik, digər rəsmi vəzifələri ilə üst-üstə düşmə və s.) göstərməlidirlər.
- SK 1-ci Komponent üzrə layihədən faydalanacaq 520 iştirakçını təsdiq edəcəkdir.
- SK 2-ci Komponent üzrə biznes planları təsdiq edəcəkdir.

SK-nin bütün qərarları səs çoxluğuna əsaslanmalıdır. Səsvermə hüququ iclasda iştirak edən SK üzvləri ilə məhdudlaşır. Səslər bərabər olduqda, SK sədrinin səsi iki dəfə sayılır.

### Alət və avadanlıqların satın alınması

Ayrılan vəsait kiçik bizneslərin yaradılması üçün lazım olan alət və avadanlıqların satın alınmasına yönəldiləcəkdir. QMKİDK 2-ci Komponent üzrə müəyyən edilmiş mallar, alətlər və avadanlıqların satın alınmasına cavabdehdir. Dünya Bankı alət və avadanlıqların satın alınması üzrə satınalma prosedurlarına müntəzəm nəzarət və icmalı həyata keçirəcəkdir.

### Monitorinq və əməliyyat dəstəyi

Layihə Layihənin İcra Qrupunu (LİQ) təşkil edəcək bir neçə şəxsi maliyyələşdirəcəkdir. Bu şəxslərə layihə direktoru (LİQ rəhbəri), baş mühasib, icma səfərbərliyi üzrə mütəxəssis, ofis administratoru, satınalmalar üzrə mütəxəssis, M&Q üzrə mütəxəssis, ekoloji və sosial təhlükəsizlik üzrə mütəxəssis və mentorlar daxildir.

Bu vəzifələrin hər biri üzrə ətraflı texniki tapşırıqlar bu Təlimata 7 saylı Əlavədə təqdim olunur.

Bu komponent çərçivəsində maliyyələşdirilən işçi heyətinə əlavə olaraq, əsas əməliyyat xərcləri nəqliyyat vasitələrinin texniki xidməti, yanacaq və s. xərcləri əhatə edəcəkdir. Ofis ərazisi, mebel, İT avadanlığı, kommunal xidmətlər və s. kimi digər əməliyyat xərcləri layihənin icraçı qurumu olaraq vəzifələrinin bir hissəsi kimi Dövlət Komitəsi tərəfindən maliyyələşdiriləcəkdir.

**Gender**

Komitə bütün Komponentlər üzrə qadınların ən azı 50%-nin benefisiar olmasını tələb edəcəkdir.

Layihə qadınların bacarıqların və sahibkarlığın inkişafında iştirakını artırmaqla iqtisadi imkanlardakı gender fərqini aradan qaldırmaq məqsədi daşıyır. Dünya Bankının ən son İcranın Tamamlanması və Nəticələr Hesabatı (IBRD-8096-AZ və IBRD-8627-AZ, 2020) göstərir ki, layihənin hazırlanması zamanı gender bərabərsizliyi MK icmalarının əsas problemlərdən biri kimi müəyyən edilib. Kəmiyyət və keyfiyyət tədqiqatları göstərib ki, işçi qüvvəsində qadın MK-lar qeyri-məcburi köçkünlərə nisbətən daha az olub və işləyən qadın MK-lar aşağı maaşlı işlərdə çalışıblar. Bundan əlavə, qadınların başçılıq edən MK ailələrin məcburi köçkün olmayan ailələrə nisbətən yoxsul olma ehtimalı daha yüksək olub, yoxsulluq səviyyəsi qadının başçılıq edən MK ailələrində 32,3 faiz, qadının başçılıq edən məcburi köçkün olmayan ailələrdə isə 23,6 faiz təşkil edib. Kişi başçılıq edən MK ailələri və kişi başçılıq edən məcburi köçkün olmayan ailələrdə yoxsulluq səviyyəsi müvafiq olaraq 22,7 faiz və 19,4 faiz təşkil edib. MK icmalarında gender bərabərsizliyinin aradan qaldırılması Dünya Bankı - Azərbaycan 2016-2020-ci illər üçün Ölkə üzrə Tərəfdaşlıq Çərçivəsində məqsəd kimi qeyd olunub.

Layihə qadınlara təlim, mentorluq, biznesin inkişafında dəstək və benefisiar qadınlara öz bizneslərini qurmaqda dəstək ilə təmin edəcəkdir. Layihə əsas göstəricilər vasitəsilə gender fərqinin azalıb-azalmamasına nəzarət edəcəkdir: (i) gəlirləri artmış layihə tərəfindən dəstəklənən qadın sahibkarların faizi (cinslərə görə bölünür; hədəf gəlirlərini artırmış ən azı 50 faiz qadın benefisiarlardır; ilkin səviyyəsi 0 faizdir); və (ii) MK qadınlar tərəfindən yaradılmış bizneslərin sayı.

### 4.3. Layihənin maraqlı tərəfləri

Layihə yerli səviyyədə aşağıdakı maraqlı tərəfləri əhatə edəcəkdir:

- Kənd Təsərrüfatı Nazirliyi
  Dəstək proqramları (maarifləndirmə, aqrar kreditlər, infrastruktur, lizinq)
- Prezidentin Qarabağ, Zəngəzur və Şuşa üzrə xüsusi nümayəndələri
  Ağalıda və digər ağıllı kəndlərdə, həmçinin Şuşada geri qayıdış tədbirləri
- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

*qadınlar və gənclərlə bağlı qanun və proqramların icrasına nəzarət üzrə cavabdehlik daşıyır. AQUPDK qadınların inkişafına əsas diqqət yetirməklə layihə çərçivəsində hökumətin əsas tərəfdaşlarından biri olacaqdır.*
*Qadın resurs mərkəzləri də cəlb olunacaqdır.*

- Dövlət Məşğulluq Agentliyi:
  Birinci və ikinci komponentlərin icrası üzrə əsas tərəfdaş –
  Seçki komissiyasının üzvü
  Layihə layihə benefisiarlarını Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən təşəbbüslərlə (özünüməşğulluq proqramı, işə düzəltmə və s.) əlaqələndirəcəkdir.
  - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:
  *layihə fəaliyyətləri qrantların verilməsi vasitəsilə MK-lərin bizneslə məşğul olmaq (lazımi bacarıqları inkişaf etdirmək) imkanlarını artırmaq məqsədi daşıyır. 2-ci Komponent həmçinin qrant resipiyentlərinin daha yaxşı bazar əlaqələrinə malik olması üçün fəaliyyətləri əhatə edir. Bu fəaliyyətlər ƏƏSMN-nin məqsədlərinə və davam edən digər milli proqramlara uyğundur. Bu səbəbdən, Nazirlik hədəf yerli hökumət nümayəndələri ilə səmərəli əməkdaşlığı təmin etmək və layihə fəaliyyətlərini müvafiq hökumət siyasətləri ilə uyğunlaşdırmaq üçün əsas maraqlı tərəf olacaqdır.*
- BMT QAK
  Seçki Komissiyasının üzvlərindən biri BMT QAK-ın nümayəndəsi olacaqdır
- Beynəlxalq Miqrasiya Təşkilatı
  Seçki Komissiyasının üzvü ola bilər
  Məcburi köçkünlər ilə işləyirlər
- Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi
  Biznes təlimi (ödənişsiz) imkanları
  Brendləşdirmə, məhsul yerləşdirməyə kömək edir
- Təhsil və Elm Nazirliyi (TEN) və TEN yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi (PTDA)
  1-ci Komponent TEN və PTDA ilə birgə həyata keçiriləcəkdir

# 5. Satınalma

**Ümumi**

Satınalmalar Dünya Bankının borcalanlar üçün mal, iş, qeyri-məsləhət və məsləhət xidmətləri üzrə investisiya layihələrinin maliyyələşdirilməsi (İLM) üçün satınalma qaydalarına uyğun olaraq həyata keçiriləcəkdir (noyabr 2020-ci il tarixli, dördüncü nəşr (satınalma qaydaları) və Dünya Bankının 15 oktyabr 2006-cı il tarixli Korrupsiyaya qarşı mübarizə qaydaları ilə tənzimlənəcəkdir (2011-ci ilin yanvarında və 1 iyul 2016-cı il tarixinə yenidən baxılıb).

**İMSS və satınalmanın planlaşdırılması**

Layihənin icrası üçün satınalma metodologiyaları layihələr üzrə inkişaf məqsədli satınalmalar strategiyasının (İMSS) nəticələrinə və LİQ ilə Bankın layihə qrupu arasında

razılaşdırılacaq satınalma planına uyğun olaraq həyata keçiriləcəkdir. Bu sənəd Bankın STEP sisteminə yüklənəcək və layihənin məlumat bazasında və Bankın xarici internet səhifəsində yerləşdiriləcəkdir.

İMSS və bazar təhlili satınalma/seçim metodunu, bazar yanaşmasını və hər bir satınalma üçün seçim mexanizmlərini müəyyənləşdirəcəkdir. İMSS satınalma planında seçim üsulları üçün uyğun əsaslandırma təqdim edir. İMSS-da detallaşdırma və təhlil səviyyəsi layihə satınalmalarının riski, dəyəri və mürəkkəbliyi ilə mütənasibdir.

Yeniləmələri də daxil olmaqla satınalma planı aşağıdakıları ehtiva etməlidir:

a. fəaliyyətlərin/müqavilələrin qısa təsviri;
b. tətbiq ediləcək seçim üsulları;
c. xərclər smetaları;
d. vaxt cədvəlləri;
e. Bankın icmal tələbləri (risk əsaslı ilkin və ya sonrakı baxış);
f. tətbiq oluna bilən satınalma sənədləri; və
g. hər hansı digər müvafiq satınalma məlumatları.

Plana edilən ixtiyari dəyişiklik hər hansı satınalma işlərinə başlamazdan əvvəl onlayn STEP sistemi vasitəsilə Bank tərəfindən nəzərdən keçirilməli və yoxlanılmalıdır.

**Satınalma prosedurları**

Yuxarıda qeyd edildiyi kimi, Layihənin məqsədlərinə MK-lərə işlə təmin oluna və öz gəlirlərini əldə edə biləcəkləri yeni mikro müəssisə açmağa imkan verən bacarıqların inkişafına sərmayə qoyuluşu, texniki dəstək və startapın maliyyələşdirilməsi yolu ilə nail olunacaqdır.

(i) Malların satın alınması üçün LİQ yalnız hüquqi şəxslərlə müqavilə bağlayacaqdır. Xidmətlərin satın alınması üçün müqavilələr isə həm hüquqi şəxslər, həm də fiziki şəxslərlə bağlana bilər.
(ii) Satınalma aşağıdakı üsullarla həyata keçiriləcəkdir:

**Fərdi məsləhətçilərin seçilməsi**
Fərdi Məsləhətçilər Satınalmalar Qaydalarının 7.34-7.39-cu bəndlərinə uyğun olaraq Fərdi Məsləhətçilərin seçilməsi əsasında üç üsuldan biri ilə seçiləcəkdir:
**- Fərdi məsləhətçilərin açıq rəqabətli seçimi**
Maraqların ifadəsi sorğusunun (MİS-lər) nəşr yolu ilə elanı. MİS-lərə tam TT daxil olmalıdır. Fərdi Məsləhətçilər MİS-na cavab olaraq maraqlarını ifadə edənlər arasından seçilir.
**- Fərdi məsləhətçilərin məhdud rəqabətli seçimi**
LİQ təcrübəli və ixtisaslı fərdlər və onların mövcudluğu haqqında məlumatlı olarsa, MİS vermək əvəzinə, tələb olunan məsləhət xidmətlərini təmin etmək üçün ixtisaslı hesab etdiyi fərdi Məsləhətçiləri (ən azı 3 ixtisaslı namizəd) dəvət edə bilər. Hazır TT dəvət ilə göndərilməlidir. Fərdi məsləhətçilər dəvətə cavab olaraq maraqlarını ifadə edənlər arasından seçilməlidir.
**- Fərdi məsləhətçilərin birbaşa seçimi**
Fərdi məsləhətçilər aşağıdakı hallarda lazımi əsaslandırmalarla birbaşa seçim əsasında seçilə bilər:

a. fərdi Məsləhətçinin müsabiqə yolu ilə seçildikdən sonra yerinə yetirdiyi əvvəlki işlərin davamı olan tapşırıqlar;
b. ümumi gözlənilən müddəti altı aydan az olan tapşırıqlar;
c. təxirəsalınmaz hallar; və ya
d. fərdi məsləhətçi bu tapşırığı yerinə yetirmək üçün müstəsna dəyəri olan müvafiq təcrübə və keyfiyyətlərə malikdir.

Komponent 1 üzrə MK-lər üçün təlimlərin yaradılmış peşə təhsili mərkəzləri vasitəsilə həyata keçiriləcəyi gözlənilir. Yalnız peşə təhsili mərkəzlərində tələb olunan təlim olmadıqda və ya əlavə təlimatçılara/təlimçilərə ehtiyac olduqda, bu ƏT-na uyğun olaraq satın alınacaqdır.

Əlavə təlimçilərə ehtiyac təlimlərin təşkili mərhələsində LİQ tərəfindən müəyyən ediləcəkdir. Təlimçilər minimum olaraq aşağıdakı tələblərə cavab verməlidirlər: 1) təlimin növündən asılı olaraq təlimçinin təcrübəsini və təhsilini sübut edən sənəd; 2) hüquqi şəxs kimi qeydiyyatdan keçməli və vergi identifikasiya nömrəsinə malik olmalıdır; 3) tədris materiallarını və metodikasını təqdim etməlidir.

**Məsləhətçi firmaların seçilməsi**

Məsləhətçi firmaların xidmətləri (QHT-lər də daxil olmaqla) satınalma qaydalarının 7.3-7.15-ci bəndlərinə uyğun olaraq aşağıdakı üsulla satın alınacaqdır (Təfərrüatlar üçün Satınalma Qaydaları, Əlavə XII, Seçim Metodlarına baxın):

- **Ən aşağı qiymət əsasında seçim (LCS):** QCBS (keyfiyyətə və qiymətə əsaslanan seçim) kimi LCS da qısa siyahıya daxil edilmiş məsləhətçi şirkətləri arasında rəqabət prosesidir. Bu proses ərzində uğurlu firma seçərkən təklifin keyfiyyəti və xidmətlərin dəyəri nəzərə alınır. LCS ümumiyyətlə yaxşı müəyyən edilmiş təcrübə və standartların mövcud olduğu standart və ya rutin (mürəkkəb olmayan işlərin mühəndisi layihələri kimi) xarakterli tapşırıqlar üçün uyğundur. Təklif sənədləri üçün sorğu texniki təkliflər üçün minimum bal təyin edir. Minimum texniki baldan yuxarı bal toplayan təkliflər arasında ən aşağı qiymətləndirilən təklif ən üstün təklif hesab olunur.

  Birbaşa seçimin bütün hallarında, Borcalan ədalətliliyi və bərabərliyi təmin etməli və aşağıdakıları həyata keçirmək üçün prosedurları müəyyən etməlidir: a. qiymətlər münasibdir və oxşar xarakterli xidmətlərin bazar qiymətlərinə uyğundur; və; rəqabətli proseslərin qarşısını almaq üçün tələb olunan məsləhət xidmətləri daha kiçik satınalmalara bölünmür.

**Mallar və avadanlıqlar paketlərinin satın alınması**. Təlimlər başa çatdıqdan sonra MK-lər biznes planlar hazırlayacaq və bu biznes planlarında kiçik biznesə başlamaq üçün lazım olan alətləri göstərəcəklər. LİQ təlimi tamamlayan hər bir qrup üçün tələb olunan alətlərin siyahısını hazırlayacaqdır. Hər bir peşə üçün tələb olunan alət dəstləri/avadanlığı üçün spesifikasiyaların siyahısı LİQ komandası tərəfindən təlimçilər və mentorlarla razılaşdırılmaqla hazırlanacaqdır. LİQ Satınalma Qaydalarının 6.7-ci bəndinə (Təklif sorğusu) uyğun olaraq kotirovkaları əldə edəcəkdir. Kotirovkalar elan vasitəsilə və ya məhdud rəqabət əsaslandırıldıqda, məhdud sayda firmalara kotirovka sorğusu (RFQ) vasitəsilə əldə edilməlidir. Rəqabəti təmin etmək üçün LİQ normal olaraq üçdən az olmayan (3) firmadan kotirovka tələb etməlidir. Bu firmalara kotirovkalarını hazırlamaq və təqdim etmək üçün kifayət qədər vaxt verilməlidir. RFQ-lərə malların təsviri, miqdarı, çatdırılma müddəti, yeri, o cümlədən hər hansı quraşdırma tələbləri

daxil edilməlidir. Sorğuda kotirovkaların təqdim edilməsi üçün son tarix də göstərilməli və onların məktub, faks və ya elektron vasitələrlə təqdim oluna biləcəyi bildirilməlidir. Kotirovkaların qiymətləndirilməsi və müqavilənin bağlanması RFQ-da göstərilən meyarlara uyğun olaraq həyata keçirilməlidir. Qəbul edilmiş kotirovkanın şərtləri müqavilə üzrə məcburi olan sənədə daxil edilməlidir.

Bu tədbirlərdən sonra Komitə təchizatçı ilə imzalanacaq “Müqavilə” hazırlayır, Müqavilənin imzalanma tarixini təyin edir və tərəflər onu imzalayır. LİQ RFQ-lər ilə bağlı bütün proseslərin qeydlərini aparmalıdır.

Alətlərin yekun siyahısı qalib firmanın təklifi əsasında hazırlanacaqdır. Siyahı Seçki Komitəsi tərəfindən təsdiq edildikdən sonra qrant vəsaiti firmanın hesabına köçürüləcəkdir.

LİQ-nin vəzifələri və məsuliyyətləri aşağıda göstərilir, lakin bunlarla məhdudlaşmır:

(a) malların, məsləhət və qeyri-məsləhət xidmətlərinin satın alınması üçün Dünya Bankının standart satınalma sənədləri əsasında tender sənədlərinin hazırlanması və LİQ-in Tender Komitəsinə təsdiq üçün təqdim edilməsi. Tender komissiyasının tərkibi LİQ komandasının üzvlərindən ibarətdir (ən azı 5 nəfər).
(c) tender təkliflərinin, kotirovkaların qiymətləndirilməsinin təşkili və qiymətləndirmə hesabatlarının hazırlanması;
(d) LİQ direktoru tərəfindən imzalanmaq üçün müqavilələrin hazırlanması;
(e) bütün müqavilələrin, müqavilə dəyişikliklərinin və müvafiq yazışmaların etibarlı şəkildə qeydə alınması və arxivləşdirilməsinin təmin edilməsi;
(f) Müqavilələrin ilkin və sonrakı baxışı üçün STEP-in yenilənməsi, o cümlədən bütün imzalanmış müqavilələrin və onlara düzəlişlərin yüklənməsi.

<u>Dünya Bankı tərəfindən etirazın olmamasını bildirən sənəd</u>
Razılaşdırılmış satınalma planına uyğun olaraq ilkin baxışdan keçirilməli olan satınalma fəaliyyətləri üçün Dünya Bankının etirazın olmadığını bildirən sənəd tələb ediləcəkdir. Bu məqsədlə LİQ STEP vasitəsilə etirazın olmadığını bildirən sənəd tələb edəcəkdir.

Malların və qeyri-məsləhət xidmətlərinin satın alınması üçün hədlər:

| Satınalma metodu | Satınalma | İlkin baxış |
|---|---|---|
| **1 - Mallar** | | |
| **Beynəlxalq RFB:** | >1 milyon ABŞ dolları | Mallar və qeyri-məsləhət xidmətləri: 1.5 milyon ABŞ dolları |
| **Milli RFB:** | ≤ 1 milyon ABŞ dolları | |
| **RFQ:** | <100 min ABŞ dolları | |
| **DC:** | Yoxdur | |
| **2- İşlər** | | |
| **Beynəlxalq RFB & RFP** | >10 milyon ABŞ dolları | |
| **Milli RFB & RFP** | ≤10 milyon ABŞ dolları | |
| **RFQ** | <200 K min ABŞ dolları | |

| | | |
|---|---|---|
| **DC** | Yoxdur | |

Məsləhətçilərin seçilməsi və işə götürülməsi üçün hədlər:

| Satınalma metodu | Satınalma | İlkin baxış |
|---|---|---|
| **3 – Məsləhət xidmətləri firmaları** | | Məsləhətçi firmalar: 500,000 ABŞ dolları<br>Fərdi məsləhətçilər: 200,000 ABŞ dolları |
| **QCBS** | | |
| **QBS** | | |
| **FBS** | | |
| **LCS** | | |
| **CQS** | ≤300,000 ABŞ dolları | |
| **DS** | | |
| **4 – Fərdi məsləhətçilər** | | |
| **IC** | | |
| **DS** | | |

<u>Sonrakı baxış</u>

Bank tərəfindən ilkin baxışdan keçirilməyən müqavilələr sonradan layihəyə təyin edilmiş Dünya Bankının satınalmalar üzrə mütəxəssisi tərəfindən baxılacaqdır. Belə baxışlar hər il keçiriləcəkdir. Bank tərəfindən ilkin baxışdan keçirilməyəcək beş satınalma paketindən ən azı biri eks-post yoxlanılacaqdır.

<u>Sənədlər və STEP</u>
LİQ bütün müvafiq sənədləri STEP-ə yükləyəcək və həmçinin hər bir fəaliyyət üçün tam qeydləri aparacaqdır. Bu qeydlərə təkliflərin təqdim edilməsi üçün sorğu (RFQ-lər), təklif üçün sorğu (RFP-lər), elanlar, kotirovkalar/alınmış təkliflər, kotirovkalar/təkliflərin qiymətləndirilməsi hesabatları, iclas protokolları, danışıqlar protokolları, etirazların olmadığını bildirən sənəd, qəbul məktubları, müqavilə razılaşmaları, avans ödəniş zəmanətləri, faktura və ödənişlərin surətləri və müvafiq yazışmalar və s. kimi hər bir müqavilə üçün tam satınalma sənədləri daxildir. Müqavilənın imzalanmasına dair məlumat dərhal STEP-də qeyd olunacaq, yekun imzalanmış müqavilələr yüklənəcək və müqavilə siyahıları saxlanılacaqdır.

<u>Satınalma tədbirləri</u>
Müxtəlif malların, o cümlədən avadanlıqların, məsləhətçilərin və qeyri-məsləhətçi xidmətlərin satın alınması LİQ tərəfindən müqavilə əsasında həyata keçiriləcəkdir. LİQ-ə bir yarımştatlı satınalma üztə məsləhətçi daxildir.

# 6. Maliyyə idarəetməsi və audit

## 6.1. Maliyyə idarəetməsi

Komitə aşağıda qeyd olunanları həyata keçirməlidir:

(a) Layihə razılaşmasında göstərilən maliyyələşdirmə müddəalarına uyğun olaraq maliyyə idarəetmə sisteminin saxlanması.

(b) semestri əhatə edən hər təqvim semestri başa çatdıqdan sonra bir aydan gec olmayaraq, Dünya Bankını qane edən formada və məzmunda Layihə üzrə aralıq, yoxlanılmamış maliyyə hesabatlarının hazırlanmasını və Dünya Bankına təqdim edilməsi.

(c) Layihə razılaşmasının maliyyə müddəalarına uyğun olaraq Layihə üzrə maliyyə hesabatlarının auditinin həyata keçirilməsi. Maliyyə hesabatlarının belə auditi vəsaitlərin Layihə Hesabından çıxarıldığı Resipientin hər bir maliyyə ilini əhatə etməlidir. Hər bir belə dövr üçün auditdən keçmiş maliyyə hesabatları həmin müddət başa çatdıqdan sonra altı aydan gec olmayaraq Dünya Bankına təqdim edilməlidir.

<u>Mühasibatlıq şöbəsi</u>

Baş mühasib bütün idarəetmə əməliyyatlarının hesablarda düzgün göstərilməsini, mühasibat uçotuna nəzarəti, əməliyyat məlumatlarının təqdim edilməsini; mühasibat (*maliyyə*) hesabatlarının vaxtında hazırlanması, ümumi prinsiplərə əməl olunmasına nəzarəti, təşkilatın maliyyə-inzibati fəaliyyətinin iqtisadi təhlilini təmin edir.

<u>Maliyyə siyasəti</u>

Layihənin maliyyə siyasəti baş mühasib tərəfindən müəyyən edilir.

Baş mühasib maliyyə siyasətinin işlənib hazırlanmasında bilavasitə iştirak edir.

<u>Layihə üçün maliyyə idarəetmə hesabatı</u>

Şirkətin maliyyə və əməliyyat fəaliyyətinin avtomatlaşdırılması üçün proqramların universal bulud sistemi olan 1C mühasibat/maliyyə sistemi Layihənin maliyyə idarəetmə sisteminin mühüm hissəsini təşkil edir və bu səbəbdən onun hazırlanması və istifadəsi böyük əhəmiyyət kəsb edir. Sistem ikili mühasibat uçotu prinsiplərinə əsaslanan Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olmalıdır.

Semester Aralıq Maliyyə Hesabatları kompyuterləşdirilmiş maliyyə idarəetmə sistemindən yaradılan Layihəyə dair müvafiq maliyyə məlumatları ehtiva edəcəkdir. Maliyyə hesabatlarına aşağıdakılar daxildir: (i) Layihə bölməsini ehtiva edən layihənin yarımillik və illik maliyyə hesabatları; bu hesabatlar vəsaitlərin mənbələri və tətbiqi; Layihə komponentləri üzrə təsnif edilən xərclər, ödəniş kateqoriyaları və xərc növləri; xərclərin xərclər smetaları ilə müqayisəsi; ödəniş qeydlərinin xülasəsindən (nağd pulun çıxarılması, xərclər haqqında hesabat) ibarətdir.

**Layihənin maliyyə hesabatları**

Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (IAS) uyğun olaraq layihənin maliyyə hesabatını təmin etmək üçün mühasibat kitablarının hazırlanması. IAS 1-ə əsasən maliyyə hesabatlarının tam dəstinə aşağıdakı komponentlər daxildir:

1. Hesabat 2-A (*Layihə mənbələri və vəsaitlərin istifadəsi)*;
2. Hesabat 2-B (*Layihə komponenti və xərc kateqoriyası üzrə vəsaitlərin istifadəsi);*
3. Hesabat 2-C (*Layihə balansı vərəqi*).

Bütün bu hesabatlar kateqoriyalar üzrə çəkilmiş xərclərin bölgüsü də daxil olmaqla Layihənin fəaliyyəti haqqında məlumatları əks etdirəcəkdir.

**Vergi məsələləri**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 165.1.2-ci bəndinə əsasən, - "Beynəlxalq geri qaytarılmayan daxilolmalar (*qrantlar*) hesabına maliyyələşdirilən malların idxalı, qrantlar üzrə malların çatdırılması, işlərin görülməsi və xidmətlərin göstərilməsinə görə ƏDV sıfır (0) dərəcəsi ilə tutulur".

### 6.2. Audit

Xarici audit

Komitə Layihənin və Komitənin (müəssisənin) Bank üçün məqbul olan müstəqil auditorlar tərəfindən kənar auditini təşkil edəcəkdir. Bu audit Bank üçün məqbul olan Texniki Tapşırıqlar (TT) çərçivəsində həyata keçiriləcəkdir. Məqbul audit standartları ISA 800 (*Xüsusi məqsədli audit tapşırıqları üzrə auditor hesabatı*) və Dünya Bankının müvafiq təlimatlarına xüsusi istinad ilə Beynəlxalq Mühasiblər Federasiyasının Beynəlxalq Audit və Təminat Standartları Şurası tərəfindən nəşr olunan Beynəlxalq Audit Standartlarıdır. Auditin həcmi audit şirkəti ilə razılaşdırılmaqla müəyyən ediləcək və ona Layihənin maliyyə hesabatlarının auditi, o cümlədən qrant daxilolmaları və xərc hesabatları əsasında həyata keçirilən ödənişlər üçün yaradılmış xüsusi hesabın auditi daxil edilməlidir. Auditin həcmi müəyyən edilmiş layihə risklərinə uyğunlaşdırılmalıdır. Maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət Komitənin/LİQ-in üzərinə düşür. Auditorun məsuliyyətini Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmış maliyyə hesabatları barədər peşəkar rəy bildirmək təşkil edir.

## 6.3. Hesabat prosedurları

Komitədən layihənin gedişatını, o cümlədən kəmiyyət və keyfiyyət baxımından fəaliyyətləri əks etdirən yarımillik hesabatlar təqdim etmək tələb olunur. Hesabatlar layihə üçün razılaşdırılmış göstəricilər üzrə məlumatları ehtiva edəcəkdir.

Hesabatda semestrlər üzrə müqayisəli təhlillər təqdim edilir. Yarımillik hesabatda əvvəlki rübdə rast gəlinən problemlər və əldə edilən uğurları vurğulayan bölmələr və növbəti altı ay üçün planlar yer alacaq, əvvəlki yarımillik hesabatlarda vurğulanan məsələlər üzrə sonrakı tədbirlər təsvir ediləcək və fiziki tərəqqi qrafik formatda əks etdiriləcəkdir.

Yarımillik hesabatlarda auditorların şərhləri də öz əksini tapır.

İllik hesabat iki semestr fəaliyyətin xülasəsidir və yarımillik hesabatla eyni bölmələri ehtiva edir, lakin əlavə olaraq maliyyə bölməsində aşağıdakıları ehtiva edəcəkdir:

- Maliyyə auditorlarının şərhlərinə reaksiya;
- Növbəti il üçün əməliyyat büdcəsi;
- İlin sonundakı maliyyə balansı (tələb əsasında).

İllik hesabat DB-yə təqdim olunacaq və məlumat məqsədləri üçün müxtəlif maraqlı tərəflərə göndəriləcəkdir. İllik hesabat təqvim ili bitdikdən sonra 1 aydan gec olmayaraq yekunlaşdırılacaqdır.

İşlərin gedişatı haqqında hesabat və digər müxtəlif layihə materialları Komitənin internet səhifəsi vasitəsilə ictimaiyyətə açıqlanacaqdır.

## 7. Ekoloji və sosial çərçivə

### 7.1 Ekoloji və sosial öhdəlik planı (ESÖP)

QMKİDK layihəni qrant razılaşmasında göstərildiyi kimi həyata keçirəcəkdir. O, layihənin ekoloji və sosial normalara (ESN-lar) və ekoloji və sosial öhdəlik planına (ESÖP) uyğun olaraq Bank üçün məqbul olan şəkildə həyata keçirilməsini təmin etməlidir. ESÖP Qrant razılaşmasını bir hissəsini təşkil edir. ESÖP-də başqa cür müəyyən edilmədiyi təqdirdə, bu ESÖP-də istifadə olunan böyük hərflərlə yazılmış terminlər istinad edilən razılaşmada onlara aid edilmiş mənaları daşıyır. ESÖP bu ƏT-na 9 saylı Əlavədə təqdim olunur.

Yuxarıda göstərilənlərlə məhdudlaşmadan ESÖP Resipient tərəfindən həyata keçirilməli və ya həyata keçirilməsi təmin edilməli mühüm tədbirləri və fəaliyyətləri, o cümlədən tədbirlər və fəaliyyətlərin vaxt çərçivələrini, təşkilati, kadr təminatı, təlim, monitorinq və hesabat tədbirlərini, o cümlədən şikayətlərin idarə edilməsini müəyyən edir. ESÖP həmçinin Layihə çərçivəsində qəbul ediləcək və həyata keçiriləcək ekoloji və sosial (E&S) alətləri müəyyən edir. Bu alətlər əvvəlcədən müzakirə edilməli və ESN-yə uyğun olaraq, həmçinin Bank üçün məqbul forma, məzmun və qaydada açıqlanmalıdır. Qəbul edildikdən sonra qeyd olunan E&S alətləri Bank tərəfindən əvvəlcədən yazılı razılıq əsasında vaxtaşırı yenidən baxıla bilər.

Bank və Resipient arasında razılaşdırıldığı kimi, ESÖP layihənin icrası zamanı layihə dəyişikliklərinin və gözlənilməz halların adaptiv idarə edilməsini əks etdirmək üçün və ya layihənin nəticələrinə cavab olaraq zəruri hallarda vaxtaşırı nəzərdən keçiriləcəkdir. Belə bir vəziyyətdə Resipient və Bank bu dəyişiklikləri nəzərə almaq üçün Bankla Dövlət Komitəsinin sədri tərəfindən təmsil olunan Resipient arasında imzalanmış məktub mübadiləsi yolu ESÖP-ü yeniləməyə razılaşır. Resipient yenilənmiş ESÖP-ü dərhal açıqlamalıdır.

### 7.2 Maraqlı Tərəflərin İştirak Planı (MTİP)

İnvestisiya layihələrinin maliyyələşdirilməsi üçün Dünya Bankının ekoloji və sosial siyasətində (ESS) qeyd edildiyi kimi, ekoloji və sosial normalar (ESN-lər) Borcalanlara layihələrin mənfi ekoloji və sosial risklərinin və təsirlərinin qarşısını almağa, minimuma endirməyə, azaltmağa və ya yumşaltmağa kömək etmək üçün layihələrə tətbiq olunur. Müvafiq olaraq, **ESN10 – maraqlı tərəflərin iştirakı və məlumatların açıqlanması**[1] Borcalan və layihənin maraqlı tərəfləri arasında açıq və şəffaf qarşılıqlı əlaqənin vacibliyini, eləcə də maraqlı tərəflərin effektiv iştirakının layihələrin ekoloji və sosial

[1] Mənbə (s. 53-64): http://documents1.worldbank.org/curated/en/383011492423734099/pdf/The-World-Bank-Environmental-and-Social-Framework.pdf

davamlılığını yaxşılaşdıra, layihənin qəbulunu artıra və uğurlu layihənin hazırlanması və həyata keçirilməsinə mühüm töhfə verə biləcəyini vurğulayır. Beləliklə, Bank Borcalandan layihənin xarakterinə və miqyasına, onun potensial risk və təsirlərinə mütənasib olan maraqlı tərəflərin iştirakı planını (MTİP) işləyib hazırlamağı və həyata keçirməyi tələb edir.

Bu MTİP ESN1 - ekoloji və sosial risklərin və təsirlərin qiymətləndirilməsi və idarə edilməsində qeyd olunduğu kimi layihənin ekoloji və sosial qiymətləndirilməsinin, eləcə də layihənin işlənib hazırlanması və həyata keçirilməsinin tərkib hissəsi kimi maraqlı tərəflərin iştirakı məqsədi ilə ESN 10-a uyğun olaraq MKHŞYL layihə komponentləri üçün hazırlanıb; beləliklə, layihələrin hazırlanması və həyata keçirilməsinin ekoloji və sosial cəhətdən davamlı şəkildə yerinə yetirilməsini təmin edəcəkdir. MTİP bu ƏT-na 10 saylı Əlavədə təqdim olunur.

### 7.3 Əməyin idarə edilməsi prosedurları (ƏİEP)

Bu əməyin idarə edilməsi prosedurları MKHŞYL layihəsi çərçivəsində əmək və iş şəraiti ilə bağlı əsas əmək tələblərini və risklərini müəyyən edir.

*Layihədə əməyin istifadəsinə ümumi baxış*

*Əsas işçilər*: layihədə çalışan işçilərin ümumi sayı, yəni QMKİDK heyəti 5 nəfərdən ibarət olacaq, onlar layihənin məqsədlərini yerinə yetirmək üçün *əsas işçilər* hesab olunacaqlar.
*Muzdlu işçilər:* Layihə iki komponentdən ibarətdir: 1) bacarıqların inkişafı və 2) məşğulluq və biznesin inkişafı. Bu komponentlər üzrə fəaliyyətlər üçün QMKİDK muzdlu işçiləri işə götürəcəkdir. Muzdlu işçilər bütün işləri müqaviləyə uyğun olaraq lazımi diqqət və ehtiyatla, informasiya texnologiyaları, informasiya sistemləri, dəstək, texniki xidmət, təlim və digər əlaqəli xidmətlərin səriştəli təchizatçısından gözlənilən bacarıq və qayğı ilə və ya qabaqcıl sənaye təcrübələrinə uyğun olaraq həyata keçirməlidir.
Layihəyə *miqrant işçinin* və ya *icma işçilərinin* cəlb edilməsi gözlənilmir.

*Əsas potensial əmək risklərinin qiymətləndirilməsi*
*Əməyin Mühafizəsi və Təhlükəsizliyi (ƏMT) riskləri:* Layihə çərçivəsində əsas işçilərin (LİQ işçiləri) ofis əməliyyatlarını həyata keçirəcəyi gözlənilir. Buna görə bu işçilərin sağlamlıq və təhlükəsizlik riskləri aşağı olaraq qiymətləndirilir. Həddindən artıq iş saatları, nizamsız əmək haqqı ödənişləri, qeyri-rəsmi iş kimi risklər gözlənilmir.

*Cinsi istismar və zorakılıq (CİZ) və cinsi təcavüz (CT)*: Layihənin bilavasitə işçilərinə qarşı cinsi istismar və ya hər hansı zorakılıq halları Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənəcəkdir. İşçilərə qarşı müəyyən xarakterli təcavüz halları baş verərsə, onlar öz daxili siyasətlərini və ya qaydalarını (əgər varsa) və ya milli qanunları tətbiq edəcəklər. Cinsi istismar və zorakılıq (CİZ) və cinsi təcavüz (CT) ilə bağlı bütün şikayətlərə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təhlükəsiz və məxfi şəkildə baxılacaqdır. Layihənin icrası zamanı digər əmək riskləri yaranarsa, QMKİDK gələcək təsirlərin qarşısını almaq üçün prosedurlar hazırlayacaqdır.

İşçilər üçün şikayətlərə baxış mexanizmi
Layihə ESÖP-ə uyğun olaraq, layihə işçiləri üçün şikayətlərə baxış mexanizmini yaradacaqdır.

QMKİDK-nin şikayətlər üçün qaynar xətti 1657 və e-poçt ünvanı info@refugee.gov.az.

**Əlavə 1. Benefisiarların seçiləcəyi şəhərlər və rayonlar**

1. Bakı
2. Abşeron yarımadası
3. Sumqayıt
4. Oğuz
5. Qəbələ
6. Mingəçevir şəhəri
7. Ağdam
8. Ağcabədi
9. Bərdə
10. Beyləqan
11. Fizuli
12. Tərtər
13. Samux
14. Daşkəsən
15. Göygöl
16. Goranboy
17. Gəncə şəhəri
18. Yevlax

## Əlavə 2. Nəticələr çərçivəsi

**Nəticələr çərçivəsi**
**ÖLKƏ : Azərbaycan**
**SPF: Improved Livelihoods for Internally Displaced Persons in Azerbaijan**

### Layihənin inkişaf məqsədləri

Azərbaycanda həssas məcburi köçkün ailələri üçün vətəndaş iştirakının, texniki bacarıqların və gəlir əldə etmək

### Layihənin inkişafı məqsədi göstəriciləri

| Göstəricinin adı | Ümumi | Ölçü vahidi | İlkin | Son hədəf | Tezlik | Məlumat mə Metodologiy |
|---|---|---|---|---|---|---|
| **Adı:** Öz biznesi olan və ya muzdla işləyən iştirakçıların faizi | | Faiz | 0.00 | 80.00 | Təlim iştirakçıları kurslarını bitirdikdən üç ay sonra bir dəfə. | Təlim başa ça sonra ən azı ü ərzində təlimd tamamlama so aparılır. |
| Təsviri: Təlim proqramlarını tamamlayan fərdi iştirakçıların ümumi sayı, biznesi qeydiyyatdan keçirmiş və ya işəgötürənin proqramlarını tamamlayan fərdi iştirakçıların sayına bölünür. | | | | | | |
| **Adı:** Layihədə iştirak edən fiziki şəxslər olan ailələrin gəlirlərinin artması | | Faiz | 0.00 | 30.00 | Başlanğıcda iki dəfə, bir dəfə və təlim başa çatdıqdan sonra bir dəfə. | Ərizəçilər layi qeydiyyatdan sonra aparılar sorğu və təlim çatdıqdan ən sonra təlimdə tamamlanma |
| Təsviri: Layihəyə qeydiyyat üçün müraciət zamanı bildirilən ümumi iştirakçı ailənin gəliri layihənin tamamlanmasından əvv | | | | | | |
| **Adı:** Təlimi bitirən və sertifikat alan qeydiyyatdan keçmiş iştirakçıların faizi | | Faiz | 0.00 | 85.00 | Qeydiyyatdan sonra iki dəfə, bir dəfə və təlim sertifikatından sonra bir dəfə. | Təlim təminat tərəfindən təq hesabatlar. |
| Təsviri: Sertifikat alan iştirakçıların ümumi sayı qeydiyyatdan keçmiş iştirakçıların ümumi sayına bölünür. | | | | | | |
| **Adı:** İş yönümlü müdaxilələrdən faydalananlar | ✔ | Say | 0.00 | 520.00 | Bir dəfə | Təlim dəstəyi edilmiş və qey keçmiş ərizəç üzvlərinin ümu |
| İş yönümlü | ✔ | Say | 0.00 | 260.00 | Bir dəfə | Təlim dəstəyi |

| Göstəricinin adı | Ümumi | Ölçü vahidi | İlkin | Son hədəf | Tezlik | Məlumat mə Metodologiy |
|---|---|---|---|---|---|---|
| tədbirlərdən faydalananlar - Qadın | | | | | | edilmiş və qey keçmiş qadın iştirakçıların a üzvlərinin ümu |
| | | | | | | |
| Təsviri: | | | | | | |
| **Adı:** İcmalarında daha fəal rol oynayan benefisiarların faizi | | Faiz | 0.00 | 50.00 | Vətəndaş iştirakı təlimindən əvvəl iki dəfə, bir dəfə və vətəndaş iştirakı təliminin bitməsindən ən azı üç ay sonra yenidən. | Layihənin 1-ci Komponentini iştirakçıları üç məlumatların t üçün ilkin sorğ təlimdən sonra tamamlama sorğusundan i olunacaq. Yal Komponentin kimi təlim keçı üçün ayrıca tə sorğu, eləcə d vətəndaş iştira təlimindən ən sonra növbəti keçiriləcək. |
| İcmalarında daha fəal rol oynayan benefisiarların faizi - qadın | | Faiz | 0.00 | 50.00 | Vətəndaş iştirakı təlimindən əvvəl iki dəfə, bir dəfə və vətəndaş iştirakı təliminin bitməsindən ən azı üç ay sonra yenidən. | Layihənin 1-ci Komponentini iştirakçıları üç məlumatların t üçün ilkin sorğ təlimdən sonra tamamlama sorğusundan i olunacaq. Yal Komponentin kimi təlim keçı üçün ayrıca tə sorğu, eləcə d vətəndaş iştira təlimindən ən sonra növbəti keçiriləcək. |
| İcmalarında daha fəal rol oynayan benefisiarların faizi - əlil | | Faiz | 0.00 | 50.00 | Vətəndaş iştirakı təlimindən əvvəl iki dəfə, bir dəfə və vətəndaş iştirakı təliminin bitməsindən ən azı üç ay sonra yenidən. | Layihənin 1-ci Komponentini iştirakçıları üç məlumatların t üçün ilkin sorğ təlimdən sonra tamamlama sorğusundan i olunacaq. Yal Komponentin kimi təlim keçı üçün ayrıca tə |

| Göstəricinin adı | Ümumi | Ölçü vahidi | İlkin | Son hədəf | Tezlik | Məlumat mə Metodologiy |
|---|---|---|---|---|---|---|
| | | | | | | sorğu, eləcə d vətəndaş iştira təlimindən ən sonra növbəti keçiriləcək. |

Təsvir: Təlim və dəstək almadan əvvəl bildirilən səviyyə ilə müqayisədə icma fəaliyyətinin daha yüksək səviyyədə olduğun mövzularında təlim keçmiş şəxslərin ümumi sayı.

## Aralıq nəticə göstəriciləri

| Göstəricinin adı | Ümumi | Ölçü vahidi | İlkin | Son hədəf | Tezlik | Məlumat mən Metodologiya |
|---|---|---|---|---|---|---|
| **Adı:** Vətəndaş iştirakı ilə bağlı təlimdə iştirak edən yerli icraedici orqanların sayı | | Say | 0.00 | 15.00 | Yarım illik | Vətəndaş iştiral xidmət təminatç tərəfindən təqd hesabatlar |
| Təsviri: Təlimlərdə iştirak edən yerli idarəetmə strukturlarının ümumi sayı | | | | | | |
| **Adı:** İştirakçıların vətəndaş iştirakı konsepsiyaları və metodologiyaları haqqında biliklərinin faiz artımı | | Faiz | 0.00 | 50.00 | Hər bir vətəndaş iştirakı təlimindən əvvəl və sonra | Təlimdən əvvəl sonrakı sınaqla |
| Əlillər və əlilliyi olan şəxslərin təşkilatlarının nümayəndələri arasında vətəndaş iştirakı konsepsiyaları və metodologiyaları üzrə biliklərin faiz artımı | | Faiz | 0.00 | 50.00 | Hər bir vətəndaş iştirakı təlimindən əvvəl və sonra | Təlimdən əvvəl sonrakı testlər |
| Təsviri: Vətəndaş iştirakı təlimində iştirak etmiş şəxslər üçün təlimdən əvvəl və sonrakı sınaq ballarında faiz artımı | | | | | | |
| **Adı:** Üç aydan sonra hələ də aktiv olan yeni bizneslərin və iş yerlərinin faizi | | Faiz | 0.00 | 75.00 | Təlim başa çatdıqdan ən azı üç ay sonra, lazım gəldikdə əlavə sorğuların keçirilməsi imkanı ilə | Təlimdən sonra tamamlama sor |
| Təsviri: Üç aydan sonra layihə iştirakçıları tərəfindən yaradılmış hələ də aktiv olan bizneslərin və ya iş yerlərinin ümumi say | | | | | | |

| Göstəricinin adı | Ümumi | Ölçü vahidi | İlkin | Son hədəf | Tezlik | Məlumat mən Metodologiya |
|---|---|---|---|---|---|---|
| **Adı:** Vətəndaş iştirakı üzrə rəqəmsal platforma yaradılıb və fəaliyyət göstərir | | Bəli/Xeyr | X | B | Davam edən əməliyyatları təmin etmək üçün sonrakı tədbirlərlə bir dəfə | Vətəndaş iştiral xidmət təminatç tərəfindən elan |
| | | | | | | |
| Təsviri: Layihənin benefisiarları və hədəf ərazilərdəki digər məcburi köçkünlər üçün layihə və əlaqəli dolanışıq məsələləri ila üçün rəqəmsal platformanın işə salınması | | | | | | |

**Əlavə 3. Ərizə forması**

## DSQF: AZƏRBAYCANDA MƏCBURİ KÖÇKÜNLƏRİN HƏYAT ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASI
## Ərizə forması

1. Ərizəçinin adı:

2. Doğum tarixi:

3. Cinsi: Kişi ____ Qadın ______

4. Yaşayış yeri haqqında məlumat:
   Şəhər:
   Rayon:
   Kənd:
   Qəsəbə:

5. Hansı peşə təlimi üçün müraciət edirsiniz?

6. Nə üçün bu təlimə müraciət etmək qərarına gəldiniz?

7. Sizcə bu təlim proqramı həyatınızı necə yaxşılaşdıracaq?

8. Əgər bu təlimə və ya şagirdlik kursuna qəbul olunmasanız, ikinci seçiminiz hansıdır?

9. Zəhmət olmasa seçiminizi əsaslandırın.

10. Eviniz varmı?

    Bəli ______ Xeyr ______

11. Ailənizin aylıq gəliri nə qədərdir?

12. Təhsil səviyyəniz nədir?

    Orta təhsil _______ Peşə təhsili və təlimi _____ Ali təhsil _____

13. Hal-hazırda işləyirsiniz?
    Bəli _______ Xeyr _______

14. Hansısa şirkətdə işləyirsiniz, və ya öz biznesiniz var?

15. Əlilliyiniz varmı?
    Bəli_____ Xeyr ______

16. Əgər əlilliyiniz varsa, dəqiqləşdirin
    _____________________________________________

## Əlavə 4. Təlimdən sonra tamamlama sorğusu

**DSQF: AZƏRBAYCANDA MƏCBURİ KÖÇKÜNLƏRİN HƏYAT ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASI**
**Təlimdən sonra tamamlama sorğusu**

1. Ad:

2. Doğum tarixi:

3. Cins: Kişi _____ Qadın ______

4. Hazırki ünvan:

5. Doğum yeri:

6. Hal-hazırda gəliriniz varmı? Bəli ____ Xeyr ____

7. Varsa, ayda nə qədər qazanırsınız?

8. Muzdlu işdə işləyirsinizsə, harada işləyirsiniz? (Şəhər/kənd/qəsəbə):

9. Şirkətin adı nədir?

10. Vəzifəniz nədir?

11. Əgər fərdi sahibkarsınızsa, zəhmət olmasa biznesiniz haqqında məlumat verin.

12. Əldə etdiyiniz gəlirlə nə edirsiniz?
a) Zəruri ehtiyaclarıma xərcləyirəm
b) Əyləncəmə xərcləyirəm
c) Digər şəxslərə xərcləyirəm. Zəhmət olmasa dəqiqləşdirin ________
d) Digər _____________ Zəhmət olmasa dəqiqləşdirin

13. İcmanızı dəstəkləyirsinizmi? Bəli _____ Xeyr _____

14. Əgər dəstəkləyirsinizsə, zəhmət olmasa icmanızı hansı şəkildə dəstəklədiyinizi açıqlayın.

15. İcmanızı həftədə təxminən neçə saat dəstəkləyirsiniz?

16. Səsinizin yerli hökumətə çatdığını düşünürsünüzmü? Bəli ____ Xeyr _____

17. İcmanıza təsir edən qərar və proseslərdə kifayət qədər iştirak etdiyinizi düşünürsünüzmü?
Bəli ____ Xeyr _____

18. İcmanızda daha fəal rol oynamaq istərdinizmi? Bəli ____ Xeyr ____

19. Əgər istəyirsinizsə, başqa nə etmək istərdiniz?

20. Seçkilərdə iştirak edirsinizmi? Bəli ____ Xeyr _____

21. Zərurət yarandıqda dövlət məmurları ilə əlaqə saxlayırsınızmı? Bəli ____ Xeyr ____

22. İcmanıza təsir edən kampaniyalarda iştirak edirsinizmi? Bəli ____ Xeyr ____

23. İcmanız üçün könüllü olursunuzmu? Bəli ____ Xeyr _____

24. Hər hansı ictimai birliyin/qrupun üzvüsünüz? Bəli ____ Xeyr _____

25. Hər hansı məktəb assosiasiyasının üzvüsünüz? Bəli ____ Xeyr _____

26. Hansı təlimi almısınız?

27. Hansı sessiya(lar)/hissə(lər) sizə xüsusilə faydalı olub və nə üçün?

28. Bu fəaliyyətlər bacarıqlarınızı inkişaf etdirməkdə sizə necə dəstək olub? Zəhmət olmasa nümunələr göstərin.

29. Ümumi Layihə dəstəyini necə qiymətləndirirsiniz?

    a) qeyri-kafı, b) kafi, c) yaxşı, d) əla

30. Layihənin sizə/icmanıza dəstəyinin daha da təkmilləşdirilməsi ilə bağlı təklifləriniz

31. Əgər planınız biznes qurmaq idisə, bunu reallaşdıra bildinizmi? Bəli ____ Xeyr ____

32. Reallaşdıra bilmədinizsə, niyə? Zəhmət olmasa ətraflı məlumat verin.

## AİLƏNİN ÖZ FƏALİYYƏTİNDƏN İLLİK GƏLİRİ

| | |
|---|---|
| Benefisiarin adı | |
| Kənd | |
| Rayon | |
| Tarix | |

| # | Benefisiarın ailəsində gəlir mənbəyi | Aylıq məbləğ | Şəxsi fəaliyyətdən B/X |
|---|---|---|---|
| 1 | Hökumət subsidiyaları - çörək pulu | | |
| 2 | Hökumət subsidiyaları – digər | | |
| 3 | Əmək haqları | | |
| 4 | Məvaciblər | | |
| 5 | Heyvandarlıq məhsullarının satışı – süd | | |
| 6 | Heyvandarlıq məhsullarının satışı – pendir | | |
| 7 | Heyvandarlıq məhsullarının satışı – ət | | |
| 8 | Heyvandarlıq məhsullarının satışı – yumurta/quş əti | | |
| 9 | Heyvandarlıq məhsullarının satışı – digər | | |
| 10 | Məhsul satışı – dəqiqləşdirin | | |
| 11 | Məhsul satışı – dəqiqləşdirin | | |
| 12 | Məhsul satışı – dəqiqləşdirin | | |
| 13 | Tərəvəzlərin satışı | | |
| 14 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 15 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 16 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 17 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 18 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 19 | ÜMUMİ GƏLİR (1-18 ƏLAVƏ EDİN) | | |
| 20 | ŞƏXSİ FƏALİYYƏTDƏN ƏLDƏ OLUNAN ÜMUMİ GƏLİR (1-2 ƏLAVƏ EDİN) | | |
| 21 | Faiz nisbəti (20/19x100) | | |

## Əlavə 5. İlkin sorğu forması

### DSQF: AZƏRBAYCANDA MƏCBURİ KÖÇKÜNLƏRİN HƏYAT ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASI
### İlkin sorğu

1. Ad:

2. Doğum tarixi:

3. Cins: Kişi _____ Qadın ______

4. Hazırki ünvan:

5. Doğum yeri:

6. 6. Bu təlim imkanından necə xəbərdar oldunuz?
   a) Valideynlər
   b) Dostlar
   c) İcma ilə görüş
   d) Digər ___________________ (dəqiqləşdirin)

7. Bu təlimə müraciət etməyiniz üçün kim qərar verdi?
   a) Özünüz
   b) Valideynləriniz
   c) Valideynlərim/dostlarım ilə məsləhətləşmə yolu ilə
   d) Digər _____________________________ (dəqiqləşdirin)

8. Aşağıdakılar ilə bağlı kim qərar verəcək:

a) Nəticədə hansı işi seçəcəyinizi Özünüz ____ Valideynləriniz _____ Həyat yoldaşınız _____ Digərləri ______

b) b) Qazanacağınız pulu necə xərcləyəcəyinizi Özünüz ____ Valideynləriniz _____ Həyat yoldaşınız _____ Digərləri ______

9. Hal-hazırda gəliriniz varmı? Bəli ____ Xeyr ____

10. Varsa, ayda nə qədər qazanırsınız?

11. Muzdlu işdə işləyirsinizsə, harada işləyirsiniz? (Şəhər/kənd/qəsəbə):

12. Şirkətin adı nədir?

13. Vəzifəniz nədir?

14. Əgər fərdi sahibkarsınızsa, zəhmət olmasa biznesiniz haqqında məlumat verin.

15. Əldə etdiyiniz gəlirlə nə edirsiniz?

e) Zəruri ehtiyaclarıma xərcləyirəm
f) Əyləncəmə xərcləyirəm
g) Digər şəxslərə xərcləyirəm. Zəhmət olmasa dəqiqləşdirin ________
h) Digər _____________ Zəhmət olmasa dəqiqləşdirin

16. İcmanızı dəstəkləyirsinizmi? Bəli _____ Xeyr _____

17. Əgər dəstəkləyirsinizsə, zəhmət olmasa icmanızı hansı şəkildə dəstəklədiyinizi açıqlayın.

18. İcmanızı həftədə təxminən neçə saat dəstəkləyirsiniz?

19. Səsinizin yerli hökumətə çatdığını düşünürsünüzmü? Bəli ____ Xeyr _____

20. İcmanıza təsir edən qərar və proseslərdə kifayət qədər iştirak etdiyinizi düşünürsünüzmü?
Bəli ____ Xeyr _____

21. İcmanızda daha fəal rol oynamaq istərdinizmi? Bəli ____ Xeyr ____

22. Əgər istəyirsinizsə, başqa nə etmək istərdiniz?

23. Seçkilərdə iştirak edirsinizmi? Bəli ____ Xeyr _____

24. Zərurət yarandıqda dövlət məmurları ilə əlaqə saxlayırsınızmı? Bəli ____ Xeyr ____

25. İcmanıza təsir edən kampaniyalarda iştirak edirsinizmi? Bəli ____ Xeyr ____

26. İcmanız üçün könüllü olursunuzmu? Bəli ____ Xeyr _____

27. Hər hansı ictimai birliyin/qrupun üzvüsünüz? Bəli ____ Xeyr _____

28. Hər hansı məktəb assosiasiyasının üzvüsünüz? Bəli ____ Xeyr _____

## AİLƏNİN ÖZ FƏALİYYƏTİNDƏN İLLİK GƏLİRİ

| | |
|---|---|
| Benefisiarin adı | |
| Kənd | |
| Rayon | |
| Tarix | |

| # | Benefisiarın ailəsində gəlir mənbəyi | Aylıq məbləğ | Şəxsi fəaliyyətdən B/X |
|---|---|---|---|
| 1 | Hökumət subsidiyaları - çörək pulu | | |
| 2 | Hökumət subsidiyaları – digər | | |
| 3 | Əmək haqları | | |
| 4 | Məvaciblər | | |
| 5 | Heyvandarlıq məhsullarının satışı – süd | | |
| 6 | Heyvandarlıq məhsullarının satışı – pendir | | |
| 7 | Heyvandarlıq məhsullarının satışı – ət | | |
| 8 | Heyvandarlıq məhsullarının satışı – yumurta/quş əti | | |
| 9 | Heyvandarlıq məhsullarının satışı – digər | | |
| 10 | Məhsul satışı – dəqiqləşdirin | | |
| 11 | Məhsul satışı – dəqiqləşdirin | | |
| 12 | Məhsul satışı – dəqiqləşdirin | | |
| 13 | Tərəvəzlərin satışı | | |
| 14 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 15 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 16 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 17 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 18 | Digər gəlirlər (dəqiqləşdirin) | | |
| 19 | ÜMUMİ GƏLİR (1-18 ƏLAVƏ EDİN) | | |
| 20 | ŞƏXSİ FƏALİYYƏTDƏN ƏLDƏ OLUNAN ÜMUMİ GƏLİR (1-2 ƏLAVƏ EDİN) | | |
| 21 | Faiz nisbəti (20/19x100) | | |

**Əlavə 6. Yerli əmək bazarı və biznes plan forması**

***Yerli əmək bazarı üzrə sorğu (seçilmiş tələbə)***

1. *Respondent haqqında məlumat:*

Adı: ____________________ Doğum tarixi ___________________________
Hazırki ünvanı ________________ Doğum yeri______________________________
Kişi/Qadın __________________ Seçilmiş peşə: _______________________

2. *Yaşayış məntəqənizdəki biznes növləri haqqında məlumatınız varmı?*

- __________________________________________________________________
- __________________________________________________________________
- __________________________________________________________________
- __________________________________________________________________

3. *Qəsəbənizdə seçmək istədiyiniz eyni peşəyə malik neçə nəfər var?*

Sayı__________

4. *Hal-hazırda neçə nəfər işləyir?*

Sayı__________

5. *Onların biznesləri gəlir gətirirmi?*

- Ən gəlirli __________________________
- Az gəlirli__ _________________________
- Gəlirsiz___ _________________________

6. *Gələcək biznesinizin gəlirli olacağını düşünürsünüzsə, səbəbini izah edin.*

- ____________________________________________________________________
- ____________________________________________________________________
- ____________________________________________________________________

### *Yerli əmək bazarı üzrə sorğunun icmalı*

***7.*** *İcmada sorğuda iştirak edən iş yerləri*

- ____________________ 
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________
- ____________________

***8.*** *Hansı bizneslər ən çox gəlir gətirir?*

____________________

____________________

***9.*** *Hansı bizneslər ən az gəlir gətirir?*

____________________

____________________

***10.*** *Hansı bizneslər daha çox işçi cəlb edir?*

____________________

____________________

*11. Hansı bacarıqlar tələb olunur?*

____________________

# BİZNES PLAN

peşə və biznes təlimlərini uğurla başa vurmuş məcburi köçkünlər tərəfindən təqdim edilib

______________________________________________

(Ad, soyad)

______________________________________________

(Biznes ünvanı)

| | | | |
|---|---|---|---|
| Yaş | | İcmanın adı | |
| Biznes sektoru | | Biznes növü | |

Biznesin təsviri

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

## Biznesin inkişafı üçün lazım olan avadanlıq/resurslar

| | |
|---|---|
| Avadanlığın/resursun adı | |

## Biznesin inkişafı üzrə gələcək planlar

Onlar qrant çərçivəsində avadanlıq/resurs aldıqdan sonra öz bizneslərini necə görürlər?

| | Cari | |
|---|---|---|
| Satış | | |
| Qiyməti | | |
| Gəlir | | |
| Biznes xərcləri | | |
| Biznes gəliri | | |
| Mikrokredit təşkilatları ilə əlaqə | | |

Qeyd:

___________________________________________________________________
___________________________________________________________________
___________________________________________________________________

İmza:

**Əlavə 7. Təşkilati sxem**

Azərbaycan Respublikasının
Qaçqınların və Məcburi Köçkünlərin İşləri
üzrə Dövlət Komitəsi

# LİQ-in təşkilati sxemi

***Bakı, 2022***

# LİQ-in təşkilati sxemi



## Əlavə 8. LİQ heyətinin texniki tapşırıqları

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

---

**TEXNİKİ TAPŞIRIQ**

**Layihə direktoru (LİQ rəhbəri)**

***Əsas vəzifələr:***

- LİQ-in heyətini Əməliyyat Təlimatı ilə tanış etmək və heyətin Əməliyyat Təlimatının prosedur və qaydalarına riayət etməsinə nəzarət etmək;
- Əməliyyat Təlimatının prosedurları və qaydalarını sınamaq və zəruri hallarda dəyişikliklər üçün müvafiq tədbirlər görmək;
- LİQ əməkdaşlarının fəaliyyətinə nəzarət etmək;
- Layihə müddətində maliyyələşdirmə əməliyyatlarının düzgün icrasına nəzarət etmək;
- Monitorinq və qiymətləndirmənin həyata keçirilməsinə nəzarət etmək;
- Məcburi köçkün icmaları tərəfindən təqdim olunan müraciətlərin obyektiv seçiminə nəzarət etmək;
- Layihənin gedişatı ilə bağlı Dünya Bankının heyəti ilə əlaqə saxlamaq və DB missiyasının səfərləri zamanı müzakirələrdə iştirak etmək;
- Satınalma Planına lazımi dəyişikliklərin və düzəlişlərin edilməsinə nəzarət etmək;
- Layihənin bütün komponentləri üzrə işlərin icrasının müvafiq iş qrafikinə əsaslanmasına nəzarət etmək;
- Ətraf mühit və sosial məsələlər üzrə mütəxəssisin fəaliyyətini əlaqələndirmək;
- Əsas heyət tərəfindən hazırlanmış hesabatlar əsasında Dünya Bankı üçün ümumi yarımillik hesabatları (və digər tələb olunan hesabatları) hazırlamaq;
- Bacarıqların inkişafı, məşğulluq və icmanın inkişafının dəstəklənməsi mərhələlərinə və ƏT prosedurlarına uyğunluğa nəzarət etmək;
- Layihə sahələrinə müvəqqəti səfərlər etmək;
- Dünya Bankının Layihə Qrupu və Regional Ofisi, missiyalar, məsləhətçilər və Layihənin maraqlı tərəfləri ilə sıx əməkdaşlıq etmək;
- Dövləti təmsil edən müvafiq maraqlı tərəflər ilə əlaqədə olmaq və hökumətə təqdim olunan bütün zəruri hesabatların Dövlət Komitəsi daxilində və xaricində həyata keçirilməsini təmin etmək.

***Tələblər və kvalifikasiyalar:***

**Təhsil**

- Sosial siyasət və idarəetmə sahəsində magistr və ya ekvivalent universitet dərəcəsi;

**Təcrübə və biliklər**

- Layihənin idarə edilməsi üzrə rəhbər vəzifədə ən azı beş illik iş təcrübəsi;
- Azərbaycanda dövlət idarəetmə sistemi haqqında mükəmməl bilik;
- Dünya Bankı və BMİ-nin digər inkişaf layihələri üzrə müvafiq təcrübəyə və məlumatlılığa üstünlük veriləcəkdir;
- Məcburi köçkün məsələləri üzrə mükəmməl bilik;

- Məcburi köçkünlər və ya əhalinin digər sosial həssas qrupları üçün sosial və iqtisadi inkişafa dəstək layihələrinin hazırlanması və həyata keçirilməsi üzrə təcrübəyə üstünlük veriləcəkdir;
- İcma işi və ya icma əsaslı təşkilatlarla iş təcrübəsinə üstünlük veriləcəkdir;

**Digər bacarıqlar**

- Rəhbərlik bacarıqları;
- Mükəmməl komanda işi və komanda qurma təcrübəsi;
- Mükəmməl təşkilatçılıq və qərar qəbul etmə bacarığı;
- İşçilərə səlahiyyət vermək, həvəsləndirmək, təlimatlandırmaq və onlara nəzarət etmək bacarığı da daxil olmaqla, nəzarət/liderlik bacarıqları;
- Mükəmməl ünsiyyət və təqdimat bacarığı;
- Mükəmməl hesabat yazma və rəsmi ünsiyyət bacarıqları;
- Büdcə monitorinqi və dövlət satınalmalarının idarə edilməsi üzrə bacarıqlar (Dünya Bankı və ya BMİ-nin digər inkişaf üzrə satınalma və fidusiar qaydaları sahəsində biliklərə üstünlük veriləcəkdir);
- Mükəmməl səviyyədə şifahi və yazılı Azərbaycan və ingilis dilləri biliyi;
- Ofis proqramlarından və əsas İT avadanlıqlarından istifadə bacarığı;

***İş şərtləri:***

Direktor tələb olunduqda bölgələrə səfər etməyə hazır olmalıdır.

***Müqavilə şərtləri:***

Layihə direktoru işinin qiymətləndirilməsindən sonra müqaviləni uzatmaq imkanı ilə 36 ay müddətinə müqavilə əsasında işə götürülür. Layihə direktoru DB-nin Tapşırıq Qrupunun Rəhbərinə layihənin icrası barədə hesabat verəcək, iş cədvəlləri və hesabatları mütəmadi olaraq təqdim edəcək, ödənişləri təsdiq etdirəcək və s.

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

---

**TEXNİKİ TAPŞIRIQ**

**Baş mühasib**

***Əsas vəzifələr:***

- Baş mühasib Azərbaycan Respublikasının mövcud normativ hüquqi aktlarına və Dünya Bankının tələblərinə uyğun olaraq mühasibat uçotunu təşkil edir, bütün inzibati əməliyyatların hesablarda düzgün əks etdirilməsini, mühasibat uçotunun aparılmasına nəzarəti, operativ məlumatların təqdim edilməsini, mühasibat uçotunun (maliyyə hesabatları) vaxtında hazırlanmasını və aidiyyəti orqanlara təqdim edilməsini təmin edir, ümumi prinsiplərə riayət olunmasına nəzarət edir və onların düzgünlüyünə cavabdehlik daşıyır;
- Baş mühasib təqdim edilmiş əsas (hesab-faktura, qəbz və s.) və əlavə sənədlərin Bankın və qanunvericilik tələblərinə uyğunluğunu yoxlayır. Mühasibat uçotuna nəzarəti təmin edir. Bütün ödəniş tapşırıqları baş mühasibin imzası ilə təsdiq edilir. Baş mühasib LİQ-nin direktoru ilə birlikdə mallar, materiallar, vəsaitlər, resursların qəbulu haqqında sənədləri imzalayır və pul vəsaitlərinin vaxtında və düzgün ödənilməsinə cavabdehdir;

***Mühasibin vəzifələrinə həmçinin aşağıdakılar daxildir:***

- Müəyyən edilmiş hesabın artırılması üçün vəsaitin çıxarılması üzrə müraciətlərin vaxtında hazırlanması və Dünya Bankına təqdim edilməsi;
- Maliyyə Nazirliyi, beynəlxalq və yerli maliyyə institutları ilə əməkdaşlıq edilməsi;
- Dünya Bankının vəsaitlərinin hesaba uyğunlaşdırılması. Daxili ödənişlər üçün müraciətlərin və üzləşdirmə aktlarının hazırlanması;
- Razılaşdırılmış format və müddətdə tələb olunan hesabatların hazırlanması və Dünya Bankına və hökumət orqanlarına təqdim olunması;
- Zəruri hallarda illik layihə büdcələrinin hazırlanması və yenilənməsi;
- Kənar audit şirkətlərini cəlb etməklə layihənin Qrant Müqaviləsinə uyğun olaraq illik layihə auditinin təşkil edilməsi;
- 1 C 2.0 mühasibat uçotu proqramında yuxarıda göstərilən bütün qeydlərin aparılmasına nəzarət edilməsi;
- LİQ-in kassa kitablarının bank çıxarışları ilə uzlaşdırılmasına nəzarət edilməsi;
- Əməliyyat Təlimatının və LİQ-in digər sənədlərinin qayda və prosedurlarına əməl olunması;
- İşçilərin əmək haqqının hesablanması və əmək haqqı cədvəlinə nəzarət edilməsi. Mühasib fəaliyyətinin, o cümlədən kiçik miqyaslı kassa əməliyyatlarının *(davamlı yenilənən kassa kitabında qeyd olunan bütün daxilolmalar və nağd ödənişlər)* və əmək haqqı cədvəlinin hesablanmasının həyata keçirilməsi;
- Əməliyyat Təlimatının, Maliyyə Planının hazırlanmasında iştirak;
- DB-nin idarə etdiyi Dövlət və Sülh Quruculuğu Fondunun qrantı çərçivəsində həyata keçirilən *“Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması”* üzrə maliyyə əməliyyatlarının idarə edilməsi və Azərbaycan Respublikası Maliyyə Nazirliyi üçün maliyyə hesabatlarının hazırlanması;

- Baş Mühasib Layihənin Rəhbər Komitənin üzvüdür.

***Tələblər və kvalifikasiyalar:***

**Təhsil**

- Maliyyə/mühasibatlıq sahəsində ali təhsil;
- Praktik mühasib sertifikatı üstünlük hesab olunacaqdır;

**Təcrübə və biliklər**

- Azərbaycanın mühasibat uçotu və vergi qaydaları üzrə biliklər;
- Azərbaycan Respublikasının büdcə sisteminin qaydaları üzrə biliklər;
- Ən azı 5 il praktiki iş təcrübəsi;
- Sərbəst Azərbaycan dili, yaxşı səviyyədə ingilis dili biliyi;
- Beynəlxalq maliyyə hesabatı standartları biliyi;
- 1C 2.0 əsaslı mühasibat proqramında mühasibat uçotunun aparılması üzrə təcrübə;
- Dünya Bankının maliyyə idarəçiliyi və vəsaitlərin ödənilməsi ilə bağlı müvafiq siyasət və prosedurları üzrə biliklər;

**Digər bacarıqlar**

- Beynəlxalq təşkilatlarda maliyyə və ya mühasibat mütəxəssisi kimi iş təcrübəsi;
- Yaxşı səviyyədə ingilis dilində danışıq və yazı bacarıqları;
- Kollektivdə işləmək və yaxşı ünsiyyət qurmaq bacarığı.

***İş şərtləri:***

Baş mühasib əsasən Bakıda yaşayacaqdır. Bəzən işgüzar səfərlər tələb olunacaqdır.

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

---

## TEXNİKİ TAPŞIRIQ

### İcma səfərbərliyi üzrə mütəxəssis

***Ə**sas v**əzifələr:***
İcma səfərbərliyi üzrə mütəxəssis birbaşa Direktora hesabat verəcəkdir. Mütəxəssisin əsas vəzifələri aşağıdakılardır:

- Respublika və yerli səviyyədə Layihənin məqsədləri, hədəfləri və fəaliyyətləri haqqında məlumatların yayılmasına nəzarət etmək;
- İcmalar üzrə müvafiq keyfiyyət və kəmiyyət məlumatlarını toplamaq üçün monitorinq və qiymətləndirmə üzrə mütəxəssis ilə sıx əməkdaşlıq etmək;
- Vətəndaş iştirakı xidməti təminatçısının texniki qiymətləndirilməsini idarə etmək, onların işinə nəzarət etmək və dəstəkləmək;
- ƏT-də müəyyən olunan meyarlar əsasında hədəf icmaların siyahılarını hazırlamaq;
- Layihənin bütün komponentləri üzrə həyata keçirilən icma səfərbərlik fəaliyyətlərinn əlaqələndirmək, nəzarət etmək və keyfiyyətini təmin etmək;
- Layihə fəaliyyətlərində icma üzvlərinin maksimum dərəcədə iştirakını təmin etmək;
- Hədəf benefisiarlara öz təkliflərini hazırlamaqda kömək etmək üçün LİQ işçilərini dəstəkləmək və onlara təlim keçmək;
- Biznes/gəlir yaratma, sosial, sağlamlıq və s. kimi müxtəlif maraq sahələrində cəmiyyətin iştirakını asanlaşdırmaq;
- Şikayətlərə baxış prosedurlarını idarə etmək və daxil olmuş şikayətlər üzrə rüblük hesabatları hazırlamaq;
- Yerli hakimiyyət orqanları/icaedici orqanlar, QHT-lər, beynəlxalq donor təşkilatları ilə səmərəli əlaqələr yaratmaq və bu maraqlı tərəfləri onlara aid olan layihə fəaliyyətləri haqqında məlumatlandırmaq.

**Təhsil**

- Sosial elmlər (sosiologiya, idarəetmə, politologiya və ya əlaqəli sahə üzrə) sahə üzrə magistr dərəcəsi (magistr və ya daha yüksək);

**Təcrübə və biliklər**

- İdarəetmə öhdəlikləri tələb edən fəaliyyətlərdə minimum 5 il iş təcrübəsi. Bura nəzarət/liderlik bacarıqları, o cümlədən heyəti səlahiyyətləndirmək, həvəsləndirmək, mentorluq etmək və onlara nəzarət etmək bacarığı daxildir;
- İqtisadi və sosial inkişaf layihələrində əsas maraqlı tərəflər, o cümlədən az təmsil olunan qruplar (məsələn, yoxsullar) üçün məsləhətçi və iştirakçı yanaşmalardan istifadə üzrə ən azı 7 illik birbaşa təcrübə;
- Məcburi köçkün və qaçqınlarla ən azı 8 il iş təcrübəsi;
- Aşağıdakılardan ən azı biri və ya bir neçəsi üzrə bacarıqlar və birbaşa iş təcrübəsi: ictimai məsləhətləşmələr; iştiraka əsaslanan araşdırma metodları (o cümlədən müşahidə, sorğular); iştiraka əsaslanan kənd və şəhər qiymətləndirməsi;

yoxsulluğun iştiraka əsaslanan qiymətləndirilməsi; iştiraka əsaslanan monitorinq və qiymətləndirmə; şikayətlərə baxış mexanizmləri.

- Dünya Bankı və/yaxud donorlar tərəfindən maliyyələşdirilən sosial və iqtisadi inkişaf layihələrinin hazırlanması və icrası üzrə müvafiq təcrübə, xüsusilə icma qruplarının və yerli icra orqanlarının inteqrasiyasını ehtiva edən layihələrlə tanışlıq və ya təcrübəyə üstünlük veriləcəkdir;
- Mükəmməl hesabat hazırlama və rəsmi ünsiyyət bacarıqları tələb olunur;
- İcma işi və ya icma əsaslı təşkilatlarla iş təcrübəsinə üstünlük veriləcəkdir;

**Digər bacarıqlar**

- Mükəmməl səviyyədə Azərbaycan dil biliyi;
- Yaxşı səviyyədə yazılı və şifahi ingilis dili biliyi tələb olunur;
- Əla kompyuter bilikləri (MS Windows, MS Excel, Word);
- Həssas qruplarla işləmək bacarığı;

***İş şərtləri:***

İcma səfərbərliyi üzrə mütəxəssis müntəzəm işgüzar səfərlərə hazır olmalıdır.

***Müqavilə şərtləri:***

İcma səfərbərliyi üzrə mütəxəssis işinin qiymətləndirilməsindən sonra müqaviləni uzatmaq imkanı ilə 30 ay müddətinə müqavilə əsasında işə götürülür.

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

---

**TEXNİKİ TAPŞIRIQ**

**Ofis administratoru/Baş mühasibin köməkçisi**

***Əsas vəzifələr:***
Ofis administratoru ofisin idarə edilməsi, inzibatçılıq və maddi-texniki təchizat, kadr və insan resurslarının inkişafı məsələləri, LİQ Rəhbər Komitədə iştirak və işçilərin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı bütün məsələlərə cavabdeh olacaqdır. Ofis administratoru direktora hesabat verir.

- LİQ-in əməkdaşlarından öz vəzifələrini, əmək müqavilələrində nəzərdə tutulmuş şərtləri vaxtında və səmərəli şəkildə yerinə yetirməsini tələb etmək;
- Əmək müqaviləsinin şərtlərini və LİQ-in daxili qaydalarını pozduqda işçiləri məsuliyyətə cəlb etmək;
- İnzibati siyasətin icrasında iştirak etmək;
- Kadrların idarə olunmasında direktora köməklik etmək;
- Aylıq olaraq işçilərin davamiyyətini yoxlamaq və müvafiq hesabatları təqdim etmək;
- LİQ əmrlərini hazırlamaq (kadrların işə qəbulu, təyinatı, digər insan resursları məsələləri, struktur dəyişiklikləri, ezamiyyətlər və s.) və onların icrasına nəzarət etmək;
- Tender və kadrlar şöbəsi ilə bağlı LİQ sənədlərini arxivləşdirmək;
- LİQ-nin layihə hesabında qeydiyyatın aparılması, Beynəlxalq Mühasibat Uçotu Standartlarından (BMS) istifadə etməklə 1 C 2.0 Mühasibat Uçotu Proqramında layihə hesabından istifadə etməklə yerinə yetirilən əməliyyatların və ödənişlərin işlənib hazırlanması, bütün kiçik məbləğdə vəsaitlərin hesabatlarının hazırlanması və baş mühasibə təqdim edilməsi. Tikinti, dizayn işləri və məsləhətçilər üçün əməliyyatlar daxil olmaqla təqdim edilmiş hesab-fakturalar üzrə layihə hesabı vasitəsilə ödənişlərin həyata keçirilməsi;
- Yuxarıda qeyd olunan əməliyyatlar və ödənişlər üzrə ilkin sənədlərin uçotunun aparılması (fakturalar və qaimə-fakturaların hazırlanması və qeydiyyatı);
- Maliyyə idarəetməsi və daxili nəzarət sistemlərinin, o cümlədən maliyyə hesabatlarının Dünya Bankı üçün məqbul mühasibat uçotu standartlarına, daxili və xarici audit sistemlərinə uyğun aparılmasında baş mühasibə köməklik etmək;
- Daxili ödənişlər üzrə ərizələrin və üzləşdirmə aktlarının hazırlanmasında baş mühasibə köməklik etmək;
- Maliyyə Nazirliyi *(aylıq və illik)*, vergi orqanları *(rüblük gəlir (əmək haqqı) vergi hesabatları, digər vergi hesabları və illik balans)*, Dövlət Statistika İdarəsi *(rüblük və illik)*, İqtisadiyyat Nazirliyi *(yarımillik və illik)*, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi *(dövri və məcmu illik)* daxil olmaqla, icraedici orqanlara hesabatların hazırlanmasında baş mühasibə köməklik etmək *(tələb olunan hesabatların tərtibi üçün ilkin məlumatların hazırlanması);*
- Yuxarıda göstərilən bütün qeydləri 1 C 2.0 Mühasibat Proqramına daxil etmək;
- Daha yaxşı icra üçün baş mühasibin digər tələblərini yerinə yetirmək.

***Tələblər və kvalifikasiyalar:***

**Təhsil**

Maliyyə/mühasibatlıq sahəsində ali təhsil (minimum bakalavr dərəcəsi, magistr dərəcəsinə üstünlük verilir);

**Təcrübə və biliklər**

- Ofis idarəçiliyi və idarəetmə sahəsində ən azı üç illik müvafiq iş təcrübəsi və tanışlıq;
- Effektiv ofis prosedurlarını hazırlamaq və tətbiq etmək bacarığı;
- LİQ-nin iş proqramının məqsədləri və onun fəaliyyət göstərdiyi daha geniş kontekst haqqında anlayış;
- Satınalma üzrə milli prosedurlar üzrə biliklər və tender sənədlərinin hazırlanması üzrə praktiki təcrübə;

**Digər bacarıqlar**

- Mühasibat uçotunun əsası, ofis büdcəsinin icrası və monitorinqi üzrə uyğun bacarıqlar;
- Ofis üçün satınalmaların idarə edilməsində üstün bacarıqlar;
- Mükəmməl hesabat hazırlama və rəsmi ünsiyyət bacarıqları;
- Komandada işləmə bacarığı;
- Azərbaycan dilində mükəmməl səviyyədə şifahi və yazılı biliklər;
- Office proqramlarından istifadə bacarığı;
- Ofis avadanlıqlarının istismarı üzrə biliklər;
- Dəqiqlik və punktuallıq;

***Müqavilə şərtləri:***

Müqavilə fəaliyyətin qiymətləndirilməsindən sonra uzatmaq imkanı ilə 36 ay müddətinə bağlanılır.

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

______________________________________________

**TEXNİKİ TAPŞIRIQ**

**Satınalma üzrə mütəxəssis**

Satınalmalar üzrə menecer Dünya Bankının İLM Borcalanları üçün satınalma qaydalarına və “Dövlət Satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalma proseslərini aparmalı, onlara nəzarət etməli, məsləhət verməli və dəstək göstərməlidir.

***Əsas vəzifələr:***
- Tender sənədlərini hazırlamaq, Dünya Bankından tender sənədlərinə “etirazın olmaması” sənədini qəbul etmək;
- Satınalma haqqında bildirişi nəşr etmək, tender sənədlərini aydınlaşdırmaq, tender təkliflərini qəbul etmək və açmaq;
- Müqavilə imzalanması üçün DB-dən “etirazın olmaması” sənədini almaq və uğursuz tender iştirakçılarına məlumat vermək və tender təklifi zəmanətini buraxmaq;
- Müqavilələrin ilkin varintlarını hazırlamaq, müqavilələrin ilkin varintları üçün DB-nin razılığını almaq, müqavilələri imzalamaq və yekun müqavilənin surətini DB-ə təqdim etmək;

***Tələb olunan kvalifikasiyalar:***
**Təhsil**
- İqtisadiyyat, biznesin idarə edilməsi, mühəndislik və ya idarəetmə sahəsində ali təhsil (minimum bakalavr dərəcəsi, magistr dərəcəsinə üstünlük verilir);

**Təcrübə və biliklər**
- Xüsusilə Dünya Bankı və ya donor tərəfindən maliyyələşdirilən digər layihələrdə satınalma proseslərinin idarə olunması üzrə ən azı 3 il təcrübə;
- Azərbaycanın Satınalma Qaydaları haqqında biliklər;

**Digər bacarıqlar**
- Mükəmməl səviyyədə Azərbaycan və ingilis dilləri biliyi;
- Yaxşı kompyuter bilikləri (MS Windows, MS Excel, Word bilikləri).

***Müqavilə şərtləri:***
Satınalma meneceri işinin qiymətləndirilməsindən sonra müqaviləni uzatmaq imkanı ilə 30 ay müddətinə müqavilə əsasında işə götürülür.

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

## TEXNİKİ TAPŞIRIQ

### Monitorinq və qiymətləndirmə üzrə mütəxəssis

***Əsas vəzifələr:***

- Əməliyyat Təlimatının prosedurlarına uyğun olaraq LİQ tərəfindən həyata keçirilən bütün Layihə dövrünə nəzarət etmək və monitorinq etmək;
- Layihə üzrə məcburi köçkün icmaları ilə monitorinqin təşkili görüşünü keçirmək;
- Layihə üzrə məlumat toplamaq və xüsusi sorğu formasından istifadə etməklə qiymətləndirmə aparmaq;
- Layihə hesabatı üçün tələb olunan bütün məlumatları özündə cəmləşdirən və layihə çərçivəsində aralıq və yekun nəticələr üzrə hesabatın hazırlanmasını asanlaşdıran, nəticələrin müxtəlif maraqlı tərəflərlə bölüşdürülməsi üçün onlayn görünmə funksiyalı İdarəetmə İnformasiya Sistemini (İİS) yaratmaq və idarə etmək;
- Monitorinq və qiymətləndirmə hesabatlarının hazırlanmasında, o cümlədən həyata keçirilən işlərdə benefisiarların fəal iştirakını təmin etmək üçün icma səfərbərliyi üzrə mütəxəssisi ilə sıx əməkdaşlıq etmək;
- Yarımillik layihə hesabatları üçün layihə üzrə Nəticələr Çərçivəsi göstəricilərini yeniləmək və ehtiyac olduqda xüsusi olaraq hazırlamaq;
- Komponentlərin hər biri üzrə benefisiarlara layihənin təsirini təhlil etmək, ümumiləşdirmək, hesabatlar təqdim etmək;
- Layihənin icrası haqqında Komitənin internet səhifəsi vasitəsilə məlumat vermək və onu müntəzəm olaraq yeniləmək;
- Tələb olunduqda Əməliyyat Təlimatının bölmələrini yeniləmək.

***Tələblər və kvalifikasiyalar:***

**Təhsil**

- Sosial elmlər sahəsində ali təhsil (minimum bakalavr dərəcəsi, magistr dərəcəsinə üstünlük verilir);

**Təcrübə və biliklər**

- İcma iştirakı metodologiyasına uyğun olaraq ən azı 3 il iş təcrübəsi;
- Məcburi köçkünlərlə minimum 5 il iş təcrübəsi;

**Digər bacarıqlar**

- Mükəmməl səviyyədə Azərbaycan dili biliyi (ingilis dili üstünlükdür);
- Əla kompyuter bilikləri (MS Windows, MS Excel, Word);
- Həssas insanlarla işləmək bacarığı.

***İş şərtləri:***

Monitorinq və qiymətləndirmə üzrə mütəxəssis görülən işlərin monitorinqi üçün müntəzəm işgüzar səfərlərə hazır olmalıdır.

***Müqavilə şərtləri:***

Mütəxəssis işinin qiymətləndirilməsindən sonra müqaviləni uzatmaq imkanı ilə 24 ay müddətinə müqavilə əsasında işə götürülür.

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

---

**TEXNİKİ TAPŞIRIQ**

**Ekoloji və sosial təhlükəsizlik üzrə mütəxəssis**

***Əsas vəzifələr:***

Ekoloji və sosial təhlükəsizlik üzrə mütəxəssis layihənin Ətraf Mühitin İdarə Edilməsi Planının şərtlərini rəhbər tutmalıdır. Ekoloji və sosial təhlükəsizlik üzrə mütəxəssisin yerinə yetirməli olduğu konkret vəzifələr aşağıdakılardır:

- Təklif olunan biznes planlarının yoxlanılmasında və ətraf mühit kateqoriyasının təyin edilməsində LİQ-ə yardım göstərmək;
- Lazım gəldikdə, ilkin vəziyyəti və sahəyə xas potensial təsirləri qiymətləndirmək üçün təklif olunan biznes yerlərinə baş çəkmək;
- Gözlənilən ekoloji təsirlər və təsirlərin mümkün azaldılması tədbirləri və həyata keçiriləcək ekoloji ekspertizanın müvafiq növü üzrə məsləhətlər vermək; layihənin ekoloji sənədlərini nəzərdən keçirmək və lazım olduqda ərizəçiyə və icmalara tövsiyələr vermək;
- Təqdim edilmiş təkliflərin qiymətləndirilməsində iştirak etmək və təkliflərin ekoloji uyğunluğu və məqbulluğu ilə bağlı məsləhətlər vermək;
- Layihənin icrası ilə bağlı LİQ-nin müntəzəm tərəqqi hesabatlarına töhfə vermək;
- LİQ işçiləri və potensial benefisiar icmalar üçün maarifləndirmə tədbirlərini həyata keçirmək. Bunun üçün potensial ekoloji problemlərin və üstün ətraf mühitin idarə edilməsi təcrübələrinin təqdim oluna biləcəyi seminarlar keçirilə bilər;
- Zəruri hallarda Dünya Bankının Bakıdakı ətraf mühit məsələləri üzrə mütəxəssisi ilə əməkdaşlıq etmək və sorğu əsasında ətraf mühitə dair sənədləri və məlumatları təqdim etmək.

***Hesabat tələbləri və müddətləri:***

Sosial və ekoloji məsələlər üzrə mütəxəssis direktora hesabat verəcək, əksi tələb olunmadığı təqdirdə, sosial və ekoloji məsələlər üzrə mütəxəssis Layihənin ümumi ətraf mühitə uyğunluğu barədə direktora aylıq hesabat təqdim edəcəkdir.

***Tələblər və kvalifikasiyalar:***

**Təhsil**

- Ətraf mühit üzrə ali təhsil; kənd ərazilərinin inkişafı və/yaxud kənd təsərrüfatı istiqamətində;

**Təcrübə və biliklər**

- Davamlı ekoloji layihələrin hazırlanması üzrə ən azı 3 illik təcrübə;
- Tələbə əsaslanan icma inkişafı layihələrinin ekoloji aspektləri üzrə ən azı 3 illik təcrübə;
- Müxtəlik növ layihələr üzrə hökumət təşkilatları, QHT-lər və yerli icmalar üçün Ətraf Mühitin Qiymətləndirilməsi/İdarəetmə Planlarının və ətraf mühit üzrə təlim proqramlarının hazırlanması üzrə təcrübə,

- Ekoloji problemlərin prioritetləşdirilməsi, mexanizmlər və metodologiyanın inkişafı, yerli və regional səviyyədə layihələrin idarə edilməsi sahəsində üstün təcrübə;
- Beynəlxalq təşkilatlarla iş üzrə tanışlıq tələb olunur;

**Digər bacarıqlar**

- Əla ünsiyyət bacarıqları;
- Komandada işləmək bacarığı;
- Layihə zonaları daxilində və arasında tez-tez səyahət etməyi qəbul etməli və hədəf benefisiarlar ilə layihə məsələləri üzrə yaxından əlaqə saxlamalıdır;
- İnformasiya Texnologiyaları (İT) üzrə əsaslı bacarıqlar, xüsusilə WinWord və Excel proqramları (MS Office) ilə təcrübə.
- İş səviyyəsində ingilis dili biliyinə əlavə üstünlük veriləcəkdir.

***İş şərtləri:***
Ekoloji və sosial təhlükəsizlik üzrə mütəxəssis görülən işlərin monitorinqi üçün müntəzəm işgüzar səfərlərə hazır olmalıdır.

***Müqavilə şərtləri:***
Ekoloji və sosial təhlükəsizlik üzrə mütəxəssis işinin qiymətləndirilməsindən sonra müqaviləni uzatmaq imkanı ilə 20 ay müddətinə müqavilə əsasında işə götürülür.

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

---

**TEXNİKİ TAPŞIRIQ**

**Məcburi köçkünlərə davamlı iş yerləri/yaşayış vasitələrini təmin etmək üçün dəstək olan mentorlar**

***Əsas vəzifələr:***

- Mentor layihə iştirakçılarını Layihə və digər gəlir gətirən və peşəkar imkanlarla tanış etmək üçün resurs və məsləhətçidir;
- Proqram fəaliyyətlərində iştirak etmək üçün tələbə sahibkarlıq təşəbbüslərinin seçim prosesini yaratmaq;
- Benefisiarların gələcək biznes/özünüməşğulluq sahələrinin seçilməsinə dəstək və benefisiarların peşə hazırlığının təşkili (benefisiarların müvafiq peşə təhsili müəssisələrinə/ustalara təqdim edilməsi);
- Peşəkar biznes təlimləri və potensialın gücləndirilməsi xidmətləri vasitəsilə benefisiarlara biznesin əsasları haqqında lazımi məlumatları vermək;
- Biznes planın hazırlanmasında köməklik göstərmək;
- Tələb olunan aktivlərin siyahısının müəyyən edilməsində dəstək;
- Zəruri hallarda kredit və ya lizinq məqsədləri üçün sənədlərin hazırlanmasına köməklik göstərmək;
- Benefisiara biznesin qurulması ilə bağlı lazımi məsləhətləri vermək;
- M&Q üzrə mütəxəssis ilə sıx əməkdaşlıqda biznesin qurulmasından sonra benefisiar fəaliyyətlərin monitorinqi;
- Layihə çərçivəsində yaradılmış iş yerləri və bizneslərə sonrakı dəstəyi təmin etmək;
- Aylıq, rüblük və illik hesabatları təqdim etmək;

**Təhsil**

- İqtisadiyyat, biznes və ya kənd ərazilərinin inkişafı sahəsində ali təhsil (minimum bakalavr dərəcəsi, magistr dərəcəsinə üstünlük verilir);

**Təcrübə və biliklər**

- Məcburi köçkün və qaçqınlarla ən azı 5 il iş təcrübəsi;
- Sahibkarlıq təhsili və biznesin transformasiyası, hüquqi tənzimləmə və ya digər müvafiq sahələrdə ən azı 3 il iş təcrübəsi;
- İştirak əsaslı üsullar vasitəsilə məsuliyyət regionunda məcburi köçkün icmaları ilə iş təcrübəsi;
- Məsuliyyət regionu daxilində sosial proqramların və ya inkişaf layihələrinin həyata keçirilməsində üzrə təcrübə arzu olunur;
- Həssas insanlarla işdə təşəbbüskar və işgüzar münasibət
- Hədəf sahələrində kiçik və orta müəssisələrlə iş təcrübəsi
- Xüsusilə kiçik və orta sahibkarlıq ekosistemi çərçivəsində hədəf məkanda biznes mühitini anlamaq bacarığı.

**Digər bacarıqlar**

- Mükəmməl səviyyədə Azərbaycan dili biliyi

***İş şərtləri:***
Məsləhətçi müntəzəm işgüzar səfərlərə hazır olmalıdır.

***Müqavilə şərtləri:***
Məsləhətçi işinin qiymətləndirilməsindən sonra müqaviləni uzatmaq imkanı ilə 24 ay müddətinə müqavilə əsasında işə götürülür.

# Əlavə 9. "Vətəndaş iştirakı xidməti təminatçısı" üçün ilkin texniki tapşırıq

İlkin versiya

**TEXNİKİ TAPŞIRIQ**

**Layihənin adı**: Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması

**Tapşırığın adı:** Vətəndaş iştirakı xidməti təminatçısı

Tapşırığın məqsədi: yeni yaşayış mühiti də daxil olmaqla, məcburi köçkünlərin cəmləşdiyi icmalarda vətəndaş iştirakının və sosial birliyin qurulmasının faydalarına diqqət yetirməklə intensiv vətəndaş iştirakı təşəbbüsünün hazırlanması və həyata keçirilməsi.

**Qurum:** Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi

**Tapşırığın müddəti:** 20 noyabr 2022-ci il – 20 noyabr 2024-cü il.

**Yeri**: Bakı və seçilmiş rayonlar

Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi məcburi köçkünlərin dəyişən ehtiyac və istəklərinə cavab vermək üçün bir sıra innovativ yanaşmalardan (icma qruplarının cəlb edilməsi, QHT-lərin cəlb edilməsi, bacarıqların artırılması vasitələri, müxtəlif sosial marketinq üsullarından istifadə və s. cəlb oluna bilməklə) istifadə edəcəkdir.

Təklif olunan müdaxilələr yaxın aylarda və illərdə ciddi sosial-iqtisadi keçidə məruz qala biləcək MK-lərin cəmləşdiyi icmalarda sosial birliyin qurulmasına kömək etmək üçün layihə iştirakçılarına, onların ailələrinə, digər MK-lərə və digər maraqlı tərəflərə hədəflənəcəkdir.

## I. ÜMUMİ MƏLUMAT

Üçillik "Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması" layihəsi bərpa və sül quruculuğu üzrə dövlət siyasətini və proqram icrasını təkmilləşdirməklə yanaşı, Azərbaycanda həssas MK ailələrinin bacarıqlarını, dəstək xidmətlərinə çıxışını və gəlir əldə etmə imkanlarını artırmaq məqsədi daşıyır. Layihə Dünya Bankının Dövlət və Sülh Quruculuğu Fondu (DSQF) tərəfindən maliyyələşdirilir və Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən milli səviyyədə həyata keçirilir.

Bu məqsədə aşağıdakı fəaliyyətlər vasitəsilə nail olunacaqdır:

***Komponent 1: Bacarıqların inkişafı***: rəsmi və qeyri-rəsmi sektorda şagirdlik proqramları vasitəsilə peşə təhsili, biznesin inkişafına dəstək və mentorluq, eləcə də digər həyati zəruri bacarıqlardan ibarət texniki yardım paketi vasitəsilə biznes/məşğulluq imkanlarını əldə etməkdə maraqlı olan MK-ləri dəstəkləyir.

***Komponent 2: Məşğulluq və biznesin inkişafına dəstək:*** MK-lərin yeni yaradılan biznes və iş yerlərinin davamlılığını dəstəkləmək üçün təlim, mentorluq, biznesə dəstək və məşğulluq xidmətlərini təşkil edir.

***Komponent 3: Vətəndaş iştirakı, sosial birlik, monitorinq və əməliyyat dəstəyi:*** layihənin benefisiarları üçün dövlət xidmətlərinə çıxış, vətəndaşların və icmanın iştirakı, icma qruplarının yaradılması, etimad əsasında münasibətlərin qurulması və MK-lərin yeni yaşayış mühitinə sülh yolu ilə və birgə keçidini dəstəkləmək üçün potensalın artırılması təlimləri.

## II. TƏKLİF EDİLƏN XİDMƏTLƏRİN ƏHATƏ DAİRƏSİ, ÖHDƏLİKLƏRİ VƏ TƏSVİRİ

3-cü komponent çərçivəsində layihə **yeni yaşayış mühiti də daxil olmaqla, MK-lərin cəmləşdiyi icmalarda vətəndaş iştirakının və sosial birliyin qurulmasının faydalarına diqqət yetirməklə intensiv vətəndaş iştirakı təşəbbüsünün hazırlanması və həyata keçirilməsi** üçün yerli vətəndaş cəmiyyəti təşkilatının (VCT) xidmətlərinə müraciət edir**.**

Tapşırığın konkret fəaliyyətləri aşağıdakılardır:

- Müfəssəl iş planı və qrafikinin hazırlanması və baxış və təsdiq üçün Dövlət Komitəsinə təqdim edilməsi.
- Vətəndaş iştirakı üçün mövcud mexanizmlərin, vətəndaş iştirakı üzrə mövcud təcrübələrinin, MK (o cümlədən köçürülmüş məcburi köçkünlər) və yerli icraedici orqanlar/hökumət arasında vətəndaş iştirakı üçün maraq doğuran sahələrin müəyyən edilməsi məqsədi ilə, bütün hədəf ərazilərdə, eləcə də Zəngilan rayonunun yeni məskunlaşmış Ağalı kəndində yaşayan məcburi köçkünlərin vətəndaş iştirakı ehtiyaclarının qiymətləndirilməsinin aparılması. Gənclər, yaşlılar, qadınlar, əlillər, müxtəlif cinsi oriyentasiya və gender kimliyi olan şəxslər də daxil olmaqla həssas qruplara xüsusi diqqət yetiriləcəkdir. Bu ehtiyacların qiymətləndirilməsinə yerli məmurlar və MK liderləri ilə aparıcı məlumat mənbəyi müsahibələri (kişi və qadınların balansı saxlanılmaqla), fokus qrupları və onların effektivliyini və potensialını qiymətləndirmək üçün hər hansı sənədləşmə və ya rəqəmsal vətəndaş iştirakı sistemlərinin nəzərdən keçirilməsi daxildir.
- Ehtiyacların qiymətləndirilməsinin nəticələrinə əsasən, layihə benefisiarlarının, yerli MK icması liderlərinin və milli QHT-lərin əvvəllər işğal olunmuş ərazilərdə bərpa və sülh quruculuğu üzrə milli proqramlarda fəal iştirakı, icma qruplarının yaradılması, etimad əsasında münasibətlərin qurulması və MK-lərin yeni yaşayış mühitinə sülh yolu ilə və birgə keçidini dəstəkləmək üçün potensalın artırılması məqsədilə MK-lər üçün Vətəndaş İştirakı üzrə Fəaliyyət Planın hazırlanması. Konsepsiya/strateji fəaliyyət planına digər məsələlərlə yanaşı, hədəf auditoriya(lar), kontekst, nəzərdə tutulan yekun nəticələr, müvafiq və innovativ ideya(lar) və mexanizmlər daxil olmalıdır. Konsepsiya/strateji fəaliyyət planını yekunlaşdırmaq üçün hədəf auditoriyaların nümayəndələri ilə məsləhət görüşünün keçirilməsi.
- Layihəyə töhfə və həyata keçirilən fəaliyyətlərlə bağlı rəy təmin etmək üçün hədəf ərazilərdə benefisiarlar da daxil olmaqla, MK-lər üçün rəqəmsal platforma/mexanizmin hazırlanması və və həyata keçirilməsi. Rəqəmsal platformanın fəaliyyəti və yaranan ideyalar barədə Dövlət Komitəsinə rüblük icmal hesabatların təqdim olunması.
- Təlimlə bağlı Benefisiar rəyinin hazırlanması; işəgötürənlərin rəyi; benefisiarların öz icmalarında vətəndaş iştirakı fəaliyyətlərində iştirakının monitorinqi və təşviqi.
- Əlilliyi olan MK-lər üçün onların icma fəaliyyətlərində fəal iştirakını dəstəkləyən və onların fəal iştirakını və layihəyə töhfələrini təmin edən fərdil vətəndaş iştirakı təliminin hazırlanması və həyata keçirilməsi. Bu, əlilliyi olan şəxsləri dəstəkləyən bir və ya bir neçə ixtisaslaşmış VCT ilə tərəfdaşlığa yol aça bilər.
- 1 və 2-ci komponentlərin bütün benefisiarları üçün vətəndaş iştirakı üzrə 2 günlük təlim kursunun hazırlanması və təşkili. Hər kurs üçün 500 benefisiar və 50 iştirakçı hədəfi ilə ümumilikdə 10 tədbir həyata keçiriləcəkdir.
- Hədəf MK-lərin, aktiv MK icma qruplarının və milli/regional VCT-lərin potensialını artıran innovativ və əsaslı kontekst, vizual cəlbedici və əsaslı şəkildə hazırlanmış materiallar və regional iştirak fəaliyyətləri ilə seminarların təşkili.
- Vətəndaş iştirakı və sosial birlik mövzusunda MK icmasının üzvləri üçün kontekst əsaslı, keyfiyyətli, praktiki təlimlər təklif etmək imkanı yaratmaq məqsədi ilə yerli tələblərə yönümlü VCT-lər üçün beş hədəf regionda regional potensialın gücləndirilməsi seminarlarının keçirilməsi. VCT-lər Məcburi Köçkünlər üçün vətəndaş iştirakı Fəaliyyət Planında müəyyən edilmiş müxtəlif tədbirləri həyata keçirməyə təşviq edilə bilər.
- Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə yarımillik tərəqqi hesabatları, habelə yekun icmal hesabatın təqdim olunması.

## III. MONITORINQ VƏ QİYMƏTLƏNDİRMƏ:

Seçilmiş VCT LİQ direktorunun nəzarəti altında və layihə məsləhətçisi, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və QHT-lərə Dövlət Dəstəyi Agentliyinin səlahiyyətli nümayəndələri ilə sıx əməkdaşlıqda işləyəcəkdir.

**IV. UYĞUNLUQ MEYARLARI:**

- Hüquqi qeyri-kommersiya təşkilatı kimi qeydiyyat.
- Vətəndaş iştirakı və bacarıqların artırılması proqramlarının planlaşdırılması və həyata keçirilməsində ən azı üç illik sübut olunmuş təcrübə.
- Vətəndaş iştirakını və sosial birliyi təşviq etmək üçün dövlət qurumları və icma tərəfdaşlığı ilə xüsusi təcrübə üstünlük hesab olunacaqdır.
- Həssas mövzularda uğurlu, təsirli və mədəni amillərin nəzərə alındığı potensialın artırılması proqramları və maarifləndirmə kampaniyalarının hazırlanması və həyata keçirilməsi bacarığı.
- MK-lərlə iş təcrübəsi.
- İnnovativ və konkret kontekstli milli layihələrlə bağlı xüsusi təcrübəyə üstünlük veriləcəkdir.

**Əlavə 10. Maraqlı tərəflərin iştirakı planı**

## Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi

# Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması layihəsi üçün maraqlı tərəflərin iştirakı planı

## Dövlət Sülh Quruculuğu Fondu (DSQF) tərəfindən maliyyələşdirilir

**noyabr 2022-ci il**

# MÜNDƏRİCAT


**1 GİRİŞ/LAYİHƏNİN TƏSVİRİ ..... 1**

*1.1 Giriş ..... 1*

*1.2 Layihənin icmalı ..... 1*

*1.3 MTİP-in məqsədi və vəzifələri ..... 2*

**2 QAYDALAR VƏ TƏLƏBLƏR ..... 3**

*2.1 Azərbaycan Respublikasının müvafiq yerli qanunları və qaydaları ..... 3*

2.1.1 Məşğulluğa dəstək üzrə əsas qanunvericilik ..... 3

2.1.2 Vətəndaşların iştirakı və məlumatların açıqlanmasına dair milli hüquqi tələblər ..... 4

*2.2 Dünya Bankının maraqlı tərəflərin iştirakı üzrə ekoloji və sosial standartı ..... 5*

**3 MARAQLI TƏRƏFLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ TƏHLİLİ ..... 6**

*3.1 Layihənin təsirinə məruz qalan tərəflər ..... 6*

*3.2 Digər maraqlı tərəflər ..... 6*

*3.3 Aztəminatlı/həssas şəxslər və ya qruplar ..... 7*

**4 MARAQLI TƏRƏFLƏRİN İŞTİRAKI PLANI ..... 8**

*4.1 Maraqlı tərəflərin iştirakı üzrə planlaşdırılan fəaliyyətlər ..... 8*

*4.2 İstifadə olunacaq iştirak üsulları haqqında məlumat ..... 11*

4.2.1 İctimai/icma görüşləri ..... 11

4.2.2 Kommunikasiya materialları ..... 11

4.2.3 Kütləvi informasiya vasitələri/sosial media ilə əlaqə ..... 11

4.2.4 Məlumat masaları ..... 11

4.2.5 Şikayətlərə baxış mexanizminin həyata keçirilməsi ..... 11

4.2.6 Potensialın gücləndirilməsi təlimləri və seminarları ..... 12

*4.3 Həssas qrupların fikirlərini nəzərə almaq və iştiraka təşviq etmək üçün təklif olunan strategiya / diferensiallaşdırılmış tədbirlər ..... 12*

*4.4 Məlumatın açıqlanması ..... 12*

**5 MARAQLI TƏRƏFLƏRİN İŞTİRAKI ÜÇÜN VƏZİFƏLƏR, ÖHDƏLİKLƏR VƏ RESURSLAR ..... 12**

*5.1 İcra mexanizmləri ..... 12*

*5.2 Vaxt qrafiki ..... 13*

*5.3 Vəzifələr və öhdəliklər ..... 13*

**6 ŞİKAYƏTLƏRƏ BAXIŞ MEXANİZMİ ..... 13**

*6.1 Layihə üzrə ŞBM-nin yaradılması ..... 14*

*6.2 Ciddi şikayətlər üzrə protokollar və prosedurlar ..... 14*

*6.3 Şikayət jurnalları ..... 15*

*6.4 Şikayətlər üzrə monitorinq və hesabat ..... 15*

*6.5 Mərkəzi əlaqələndirici qurum – LİQ ..... 15*

*6.6 Dünya Bankının şikayətlərə baxış sistemi ..... 16*

**7 MONİTORINQ VƏ HESABAT ..... 16**

*7.1 Layihənin monitorinq hesabatları (komponentlər üzrə, müvafiq olaraq) ..... 16*

*7.2 Maraqlı tərəflərdən ibarət qruplara hesabatvermə ..... 16*

**8 ƏLAVƏLƏR ..... 18**

# Akronimlər və ixtisarlar

| | | |
|---|---|---|
| TŞ | - | Təsirlənən şəxs |
| NO | - | Nəzarət orqanı |
| İƏT | - | İcma əsaslı təşkilatlar |
| ƏMST | - | Ətraf mühit, sağlamlıq və təhlükəsizlik |
| E&S | | Ekoloji və sosial |
| ESCP | - | Ekoloji və sosial öhdəliklər planı |
| ESÇ | - | Ekoloji və sosial çərçivə |
| ESİÇ | - | Ekoloji və sosial idarəetmə çərçivəsi |
| ESİP | - | Ekoloji və sosial idarəetmə planı |
| ESS | - | Ekoloji və sosial siyasət |
| ESN | - | Ekoloji və sosial norma |
| FQM | - | Fokus qrup müzakirəsi |
| GƏZ | - | Gender əsaslı zorakılıq |
| AH | - | Azərbaycan Hökuməti |
| ŞBK | - | Şikayətlərə baxış komissiyası |
| ŞBM | - | Şikayətlərə baxış mexanizmi |
| ŞBX | - | Şikayətlərə baxış xidməti |
| BYİB | - | Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı |
| MK | - | Məcburi Köçkün |
| ƏİP | - | Əmək idarəetmə prosedurları |
| MN | - | Maliyyə Nazirliyi |
| QHT | - | Qeyri-hökumət təşkilatı |
| ƏS | - | Əməliyyat siyasəti |
| DMT | - | Digər maraqlı tərəflər |
| LTMT | - | Layihənin təsirinə məruz qalan tərəf |
| LTMQŞ | - | Layihənin təsirinə məruz qalan şəxs |
| LİQ | - | Layihə icra qrupu |
| QMKİDK | - | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| MTİP | - | Maraqlı tərəflərin iştirakı planı |
| CİZ | - | Cinsi istismar və zorakılıq |
| MTİP | - | Maraqlı tərəflərin iştirakı planı |
| STQ | - | Sosial təsirlərin qiymətləndirilməsi |
| KOBİA | - | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| TT | - | Texniki tapşırıq |
| DB | - | Dünya Bankı |
| DBŞBX | - | Dünya Bankının şikayətlərə baxış xidməti |

# 1 GİRİŞ/LAYİHƏNİN TƏSVİRİ

## 1.1 Giriş

İnvestisiya layihələrinin maliyyələşdirilməsi üçün Dünya Bankının ekoloji və sosial siyasətində (ESS) qeyd edildiyi kimi, ekoloji və sosial normalar (ESN-lar) Borcalanlara layihələrin mənfi ekoloji və sosial risklərinin və təsirlərinin qarşısını almağa, minimuma endirməyə, azaltmağa və ya yumşaltmağa kömək etmək üçün layihələrə tətbiq olunur. **ESN10 – maraqlı tərəflərin iştirakı və məlumatların açıqlanması**[2] Borcalan və layihənin maraqlı tərəfləri arasında açıq və şəffaf qarşılıqlı əlaqənin vacibliyini, eləcə də maraqlı tərəflərin effektiv iştirakının layihələrin ekoloji və sosial davamlılığını yaxşılaşdıra, layihənin qəbulunu artıra və uğurlu layihənin hazırlanması və həyata keçirilməsinə mühüm töhfə verə biləcəyini vurğulayır. Beləliklə, Bank Borcalandan layihənin xarakterinə və miqyasına, onun potensial risk və təsirlərinə mütənasib olan maraqlı tərəflərin iştirakı planını (MTİP) işləyib hazırlamağı və həyata keçirməyi tələb edir.

Bu MTİP ESN1 - ekoloji və sosial risklərin və təsirlərin qiymətləndirilməsi və idarə edilməsində qeyd olunduğu kimi layihənin ekoloji və sosial qiymətləndirilməsinin, eləcə də layihənin işlənib hazırlanması və həyata keçirilməsinin tərkib hissəsi kimi maraqlı tərəflərin iştirakı məqsədi ilə ESN 10-a uyğun olaraq MKHŞYL üçün hazırlanıb; beləliklə, layihələrin hazırlanması və həyata keçirilməsinin ekoloji və sosial cəhətdən davamlı şəkildə yerinə yetirilməsini təmin edəcəkdir.

## 1.2 Layihənin icmalı

Layihənin inkişaf məqsədi (LİM) Azərbaycanda həssas məcburi köçkün ailələrinin bacarıqlarını, dəstək xidmətlərinə çıxışını və gəlir əldə etmək imkanlarını artırmaqdan ibarətdir. Layihə həmçinin həssas məcburi köçkünləri hədəf alan dolanışıq proqramlarını hazırlamaq və həyata keçirmək üçün hökumətin imkanlarını dəstəkləyəcəkdir. Əsas faydalananlar hazırda yaşayış şəraitinə görə yoxsul və həssas olaraq müəyyən edilmiş məcburi köçkünlər olacaqdır.

Layihə Dövlət və Sülh Quruculuğu Fondunun qrantı ilə maliyyələşdirilir və Dünya Bankı tərəfindən idarə olunur. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (QMKİDK) qrant alan və layihənin icraçı qurumudur. Dövlət Komitəsi layihənin gündəlik idarə olunması üçün Layihənin İcra Qrupunu (LİQ) yaradıb.

### Layihə komponentlərinin fəaliyyəti və hədəflərinin xülasəsi

LİM-ə nail olmaq üçün layihə əlaqəli və bir-birini tamamlayan üç əsas komponentdən ibarətdir. Komponentlər birlikdə sosial-iqtisadi imkanların yaxşılaşdırılmasına və məcburi köçkünlərin hədəf icmalara daxil edilməsinə yönəlib.

#### Komponent 1: Bacarıqların inkişafı

Bu komponent peşə təhsili, biznesin inkişafına dəstək və mentorluq, eləcə də digər həyati zəruri bacarıqlardan ibarət texniki yardım paketi vasitəsilə biznes/məşğulluq imkanlarını əldə etməkdə maraqlı olan məcburi köçkünlərə dəstək verəcəkdir. Bu komponentin məqsədi seçilmiş məcburi köçkünlərə peşə mənimsəmək və sonradan yeni bizneslərini inkişaf etdirmək və yaşadıqları yerlərdə iş yerləri əldə etmək imkanı verməkdir. Komponent müxtəlif yerli bizneslər üçün ehtiyac və potensial tələbi müəyyən etmək üçün birgə ev təsərrüfatları sorğusunu maliyyələşdirəcəkdir.

[2] Mənbə (səhifə 53-64): http://documents1.worldbank.org/curated/en/383011492423734099/pdf/The-World-Bank-Environmental-and-Social-Framework.pdf

**Komponent 2: Məşğulluq və biznesin inkişafına dəstək**

Bu komponent peşə hazırlığını uğurla başa vurmuş məcburi köçkünlərin potensialının artırılması və yeni yaradılan biznes və iş yerlərinin davamlılığını dəstəkləmək üçün təlim, mentorluq, biznesə dəstək və məşğulluq xidmətlərini maliyyələşdirəcəkdir. Bu komponent məcburi köçkünlərə yeni biznes qurmaq və ya işləmək, gəlir əldə etmək, məcburi köçkün icmasının üzvlərini işə götürmək, öz icmalarına və bütövlükdə cəmiyyətə fayda gətirən mal və xidmətlər təqdim etmək səylərində dəstəkləmək məqsədi daşıyır. Komponent həmçinin biznesin inkişafı üçün dəstəyi genişləndirmək və kredit götürmək qərarına gələnlərə daimi yardım göstərmək məqsədilə iştirakçılar, kommersiya bankları və mikrokredit agentlikləri arasında görüşlərin keçirilməsini təşviq edəcəkdir.

**Komponent 3: Vətəndaş iştirakı, sosial birlik, monitorinq və əməliyyat dəstəyi**

Bu komponent layihənin benefisiarları üçün dövlət xidmətlərinə çıxış, vətəndaşların və icmanın iştirakı, icma qruplarının yaradılması, etimad əsasında münasibətlərin qurulması və məcburi köçkünlərin yeni yaşayış mühitinə sülh yolu ilə və birgə keçidini dəstəkləmək üçün müvafiq üsullar üzrə təlimi dəstəkləyəcəkdir. Bu cür dəstək qarşıdakı aylarda və illərdə mühüm sosial-iqtisadi keçidin baş verə biləcəyi məcburi köçkünlərin cəmləşdiyi icmalarda sosial birliyin qurulmasına kömək edəcəkdir. İştirakçıların təliminə əlavə olaraq, bu komponent layihə iştirakçıları, onların ev təsərrüfatları, digər məcburi köçkünlər və digər maraqlı tərəflərlə (məsələn, treyser/benefisiarların sorğuları, benefisiarların rəyi/şikayət mexanizmləri, hökumət-vətəndaş cəmiyyəti birgə layihə komitəsi) vətəndaşların cəlb edilməsi üzrə intensiv təşəbbüsü hazırlamaq və həyata keçirmək üçün Azərbaycan hökumətinə dəstəyi əhatə edir. Bu komponent məcburi köçkünlərə dəstək fəaliyyətlərinin müxtəlif qrupların dəyişən ehtiyaclarına və istəklərinə cavab verməsi üçün vətəndaşlar və hökumət arasında davamlı əks əlaqə yaratmağa imkan verir. Bu komponentə həmçinin LİQ vasitəsilə Dövlət Komitəsi tərəfindən layihənin ümumi icrası, monitorinqi və qiymətləndirilməsi, eləcə də kommunikasiyalar üçün resurslar daxildir.

## 1.3 MTİP-in məqsədi və vəzifələri

Bu maraqlı tərəflərin iştirakı planının ümumi məqsədi aşağıdakı kimi *ESN10-da* qeyd olunan məqsədlərə uyğun olaraq bütün layihə dövrü ərzində ictimai məlumatın açıqlanması və məsləhətləşmələr daxil olmaqla, maraqlı tərəflərin iştirakı üçün mütəşəkkil bir proqram yaratmaqdan ibarətdir:

- Resipientə maraqlı tərəfləri müəyyən etməyə və onlarla, xüsusilə də layihənin təsirinə məruz qalan tərəflərlə konstruktiv əlaqələr qurmağa və saxlamağa kömək edəcək maraqlı tərəflərin iştirakına sistematik yanaşmanın hazırlanması;
- Maraqlı tərəflərin layihəyə marağı və dəstəyi səviyyəsinin qiymətləndirilməsi və layihənin hazırlanmasında və onun ekoloji və sosial göstəricilərində maraqlı tərəflərin fikirlərinin nəzərə alınması imkanının yaradılması;
- Layihə dövrü ərzində layihənin təsirinə məruz qalan tərəflərlə potensial olaraq onlara təsir edə biləcək məsələlər üzrə onlarla effektiv və əhatəli əlaqə üçün vasitələrin təşviqi və təmin edilməsi;
- Ekoloji və sosial risklər və təsirlər haqqında müvafiq layihə məlumatının maraqlı tərəflərə vaxtında, başa düşülən, əlçatan və müvafiq şəkildə və formatda açıqlanmasının təmin edilməsi; və
- Layihənin təsirinə məruz qalan tərəflərin problem və şikayətlərin qaldırılması üçün əlçatan və əhatəli vasitələrlə təmin edilməsi və Resipientə bu cür şikayətlərə cavab vermək və onları idarə etmək imkanın yaradılması.

MTİP aztəminatlı və həssas qruplar da daxil olmaqla, potensial müxtəlif maraqlı tərəflərin müəyyən edilməsi, altqrupların hər biri ilə əlaqə saxlamaq üçün yanaşmanın işlənib hazırlanması, layihənin təsirinə məruz qalan tərəflərin (LTMT) və digər maraqlı tərəflərin (DMT-lər) narahatlıqları barədə məlumat verə, rəy bildirə və ya şikayət edə biləcəyi mexanizmin yaradılması, eləcə də təklif olunan layihə ilə bağlı ekoloji və sosial risklərin minimuma endirilməsi və azaldılması yollarını təqdim edir. Ümumilikdə, MTİP aşağıdakı məqsədlərə xidmət edir *(ESN10*):
Maraqlı tərəflərin müəyyənləşdirilməsi və təhlili;

(i) Maraqlı tərəflərlə qarşılıqlı əlaqənin necə baş tutacağının planlaşdırılması; (iii) məlumatların açıqlanması
(ii) Maraqlı tərəflərlə məsləhətləşmələr;
(iii) Şikayətlərə baxılması və onlara cavab verilməsi; və
(iv) Maraqlı tərəflərə hesabat verilməsi.

# 2 QAYDALAR VƏ TƏLƏBLƏR

## 2.1 Azərbaycan Respublikasının müvafiq yerli qanunları və qaydaları

### *2.1.1 Məşğulluğa dəstək üzrə əsas qanunvericilik*

Maraqlı tərəflərin iştirakı ilə bağlı **Azərbaycan Respublikasının Konstitusiyası** (12 noyabr 1995-ci il) ölkənin əsas qanunu kimi, digərləri ilə yanaşı, Azərbaycan vətəndaşlarının məşğulluğunun qanunvericilik prinsipini müəyyən edir və aşağıdakıları nəzərdə tutur:

- Vətəndaşların iştirak hüququ 54.1-ci Maddədə müəyyən edilir - "Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır".
- Məlumat azadlığı – Konstitusiya məlumat almaq hüququnu üç aspektdə təmin edir:
  (i) *Maddə 39* (Sağlam ətraf mühitdə yaşamaq hüququ) – "Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır";
  (ii) *Maddə 50* (Məlumat azadlığı) –
    - Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır;
    - Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.
  (iii) *Maddə 57 paraqraf 1*- vətəndaşlara dövlət orqanlarına müraciət etmək hüququ verir.

Azərbaycan Respublikasının **Əmək Məcəlləsi** (1 fevral 1999-cu il tarixli, № 618-IQ) işçilərlə işəgötürənlər arasında münasibətləri, habelə onlar ilə müvafiq dövlət orqanları arasında bu münasibətlərdən irəli gələn digər hüquqi münasibətləri tənzimləməyə yönəlmiş əsas qanunvericilik aktıdır. Məcəllə sağlamlıq və təhlükəsizliklə bağlı tələb və prinsipləri də müəyyən edir. Bundan əlavə, qadınların və yetkinlik yaşına çatmayanların iş şəraitini müəyyən edir.

**Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli 1196-VQ nömrəli "Məşğulluq" haqqında Qanunu** məşğulluq sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir. Bu qanun yenilənib və əvvəlki "Məşğulluq haqqında" 2 iyul 2001-ci il tarixli qanunu əvəz edir.

**Azərbaycan Respublikasının 5 oktyabr 2004-cü il tarixli 768-IIQ nömrəli "Yaşayış minimumu" haqqında Qanunu** (12 may 2006-cı il tarixli 109-IIIQD nömrəli və 6 mart 2007-ci il tarixli 260- IIIQD nömrəli Qanunlara əsasən dəyişiklik edilib) Azərbaycan Respublikasında yaşayış minimumunun müəyyənləşdirilməsinin, ona dövlət təminatının, ölkənin sosial-iqtisadi inkişafına uyğun olaraq yaşayış minimumunun yüksəldilməsinin prinsiplərini və qaydalarını müəyyən edir.

Azərbaycan 1992-ci ildə BƏT-ə üzv olub və bu təşkilatın **indiyədək 60 Konvensiyasını, o cümlədən 7 mühüm Konvensiyanı ratifikasiya edib** ("İcbari əmək" №29, "Ayrı-seçkilik (Məşğulluq və peşə)" №111, "Məşğulluq siyasəti" №122, "Məşğulluq xidməti" №88, "Peşə-əmək reabilitasiyası və məşğulluq (Əlillər)" №159 Konvensiyaları).

### *2.1.2 Vətəndaşların iştirakı və məlumatların açıqlanmasına dair milli hüquqi tələblər*

**Azərbaycan Respublikasının 30 sentyabr 2015-ci il tarixli "Vətəndaşların müraciətləri haqqında" Qanununa əsasən,** hər hansı vətəndaşın dövlət və bələdiyyə orqanlarına, dövlət və ya bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərə yazılı və ya şifahi formada müraciət etmək hüququ vardır və bu müraciətlər Ombudsmana edilən müraciətlərdən və ya məlumat sorğularından fərqli prosedurlara malikdir və anonim ola bilməz.

**Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli "İnformasiya əldə etmə hüququ haqqında" Qanunu.** Bu Qanunun Konstitusiyanın 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə təmin edilməsinin hüquqi əsaslarını, hər kəsin özünün birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququnu müəyyən edir.

**Azərbaycan Respublikasının 22 noyabr 2013-cü il tarixli "İctimai iştirakçılıq haqqında" Qanunu.**
Bu Qanun Konstitusiyanın 94-cü maddəsinə (Toplaşmaq azadlığı) uyğun olaraq, vətəndaşların dövlət idarəetməsinin həyata keçirilməsinə cəlb edilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. Qanuna görə, ictimai iştirakçılıq aşağıdakılardan ibarətdir:

- Dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində, ümumdövlət və yerli səviyyədə qərarların qəbulunda iştirak;
- Mərkəzi icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində iştirak;
- Vətəndaşların və vətəndaş cəmiyyət institutlarının dövlət və yerli özünüidarəetmə orqanlarının ictimaiyyətlə məsləhətləşməsində və ictimai rəyin nəzərə alınmasında (ictimai şuralar vasitəsilə) iştirakı.

Qanun ictimai iştirakçılığın aşağıdakı formalarını müəyən edir:

- Mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları yanında **ictimai şura**;
- İctimai əhəmiyyətli qərarların qəbulu zamanı **ictimai müzakirələr**;
- Hüquqi aktların layihələri və dövlət və ictimai həyatın müxtəlif məsələləri üzrə **ictimai dinləmə**;
- **İctimai rəyin öyrənilməsi**;
- Hüquqi aktların layihələrinin **ictimai müzakirəsi**;
- Hüquqi aktların layihələri üzrə vətəndaş cəmiyyəti institutlarının rəylərinin öyrənilməsinə dair **yazılı məsləhətləşmələr**.

Təsvir edilən qanunvericilik aktlarına əlavə olaraq, ətraf mühitə və sosial sahəyə təsirlərin qiymətləndirilməsi prosesinə Azərbaycan qanunvericiliyinə uyğun olaraq məlumatların açıqlanması və maraqlı tərəflərin iştirakı ilə bağlı fəaliyyətlər də daxil edilməlidir.

**Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi haqqında Qanun** (ƏMTQ Qanunu, 2018) ətraf mühitə təsirin qiymətləndirilməsinin əhatə dairəsini, prosedurunu və məsuliyyətlərini, həmçinin ətraf mühitin qiymətləndirilməsi zamanı ictimaiyyətlə məsləhətləşmələr və məlumatların açıqlanması tələblərini əhatə edir.

Qanuna uyğun olaraq Sifarişçi (İcraçı qurum) nəzərdə tutulan fəaliyyətin həyata keçirilməsindən əvvəl KİV və ictimai dinləmələr vasitəsilə layihə ərazisində yerli əhalini və cəmiyyəti məlumatlandırmalıdır. Eyni zamanda, ƏMTQ-nin nəticələri barədə onlara məlumat verməlidir (Maddə 12.1. 4).

Sifarişçi "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ictimai dinləmələr keçirməli və fiziki, hüquqi şəxsləri, habelə əmlak sahiblərini cəlb etməlidir (Maddə 4.10). İctimai dinləmələrin və müzakirələrin nəticələri haqqında məlumat ƏMTQ üzrə sənədə daxil edilməlidir (Maddə 5.3.12).

Qanunda həmçinin bələdiyyələrin ictimai dinləmə fəaliyyəti ilə bağlı vəzifələri də müəyyən edilir (Maddə 11). Beləliklə, layihənin (və ya nəzərdə tutulan fəaliyyətin) həyata keçirildiyi ərazidəki müvafiq bələdiyyə ƏMTQ-nin həyata keçirilməsində iştirak etməli və ƏMTQ üzrə sənədin hazırlanması üçün tələb olunan zəruri məlumatları təqdim etməlidir. Bundan əlavə, bələdiyyələr fiziki və hüquqi şəxslərə, daşınmaz əmlak sahiblərinə, habelə digər maraqlı tərəflərə (qeyri-hökumət təşkilatları, vətəndaşların təşəbbüs qrupları və bələdiyyələrin rayon komitələri və s.) onların müraciəti əsasında ictimai məsləhətləşmələrdə iştirak etməkdə köməklik göstərməlidirlər.

Bundan əlavə, insanlar və vətəndaş cəmiyyəti institutları sifarişçidən və planlaşdırma təşkilatından ƏMTQ ilə bağlı ictimai dinləmələrin keçirilməsini tələb etmək hüququna malikdir (13.2.2).

## 2.2 Dünya Bankının maraqlı tərəflərin iştirakı üzrə ekoloji və sosial standartı

Dünya Bankının 1 oktyabr 2018-ci il tarixində qüvvəyə minmiş Ekoloji və Sosial Çərçivə (ESÇ) sənədinə Ekoloji və Sosial Norma (ESN) 10, "Maraqlı tərəflərin iştirakı və məlumatların açıqlanması" sənədləri daxildir. Bu ESN10 "üstün beynəlxalq təcrübənin mühüm elementi kimi Borcalan və layihənin maraqlı tərəfləri arasında açıq və şəffaf əlaqənin vacibliyini" qəbul edir. Bu da layihələrin ekoloji və sosial davamlılığını yaxşılaşdıra, layihənin qəbulunu artıra və uğurlu layihənin hazırlanması və həyata keçirilməsinə mühüm töhfə verə bilər *(ESN10 paraqraf 1)*.

ESN10 İnvestisiya Layihəsinin Maliyyələşdirilməsi vasitəsilə Bank tərəfindən dəstəklənən bütün layihələrə şamil edilir və Borcalanın layihə müddətində həyata keçirilməli olan inklüziv proses kimi maraqlı tərəflərlə əlaqə saxlamasını tələb edir (*ESN10 paraqraf 2*). Dünya Bankının ESÇ sənədinə uyğun olaraq, ESN10-da aşağıda qeyd olunanlar müəyyən edilir ((*ESN10 paraqraf 6*-9):

- Borcalanlar layihənin bütün dövrü ərzində maraqlı tərəflərlə əlaqə saxlayacaqdır. Onlar belə qarşılıqlı əlaqəyə layihənin işlənib hazırlanması prosesində mümkün qədər tez və layihənin dizaynı üzrə maraqlı tərəflərlə konstruktiv məsləhətləşmələr aparmağa imkan verən vaxt çərçivəsində başlayacaqlar. Maraqlı tərəflərin iştirakının xarakteri, əhatə dairəsi və tezliyi layihənin xarakterinə və miqyasına, onun potensial risk və təsirlərinə mütənasib olacaqdır.
- Borcalanlar bütün maraqlı tərəflərlə konstruktiv məsləhətləşmələr aparacaqlar. Borcalanlar maraqlı tərəfləri vaxtında, müvafiq, başa düşülən və əlçatan məlumatla təmin edəcək və manipulyasiya, müdaxilə, məcburiyyət, ayrı-seçkilik və hədə-qorxu olmadan mədəni cəhətdən uyğun şəkildə onlarla məsləhətləşəcəklər.
- Maraqlı tərəflərin iştirakı prosesi ESN-də daha ətraflı təsvir olunduğu kimi aşağıdakıları əhatə edəcəkdir: (i) maraqlı tərəflərin müəyyənləşdirilməsi və təhlili; (ii) maraqlı tərəflərlə qarşılıqlı əlaqənin necə baş tutacağının planlaşdırılması; (iii) məlumatın açıqlanması; (iv) maraqlı tərəflərlə məsləhətləşmə; (v) şikayətlərə baxılması və onlara cavab verilməsi; və (vi) maraqlı tərəflərə hesabat verilməsi.
- Borcalan ekoloji və sosial qiymətləndirmənin bir hissəsi kimi məsləhətləşmiş maraqlı tərəflərin təsviri, alınan rəyin xülasəsi və rəyin necə nəzərə alındığına və ya nəzərə alınmamasının səbəblərinə dair qısa izahat daxil olmaqla maraqlı tərəflərin iştirakının sənədləşdirilmiş qeydini saxlayacaq və açıqlayacaqdır.

ESN10 paraqraf 21 "maraqlı tərəflərə layihənin riskləri, təsirləri və təsirlərin azaldılması tədbirləri haqqında öz fikirlərini ifadə etmək imkanlarını təmin edən və Borcalana onları nəzərdən keçirib cavab verməyə imkan verən şəkildə" konstruktiv məsləhətləşmələrin aparılmasının zəruriliyini vurğulayır." *ESN10 paraqraf 21* "konstruktiv məsləhətləşməni" ikitərəfli proses kimi izah edir, yəni:

(a) Layihə təklifi ilə bağlı ilkin fikirləri toplamaq və layihə dizaynı haqqında məlumat vermək üçün layihənin planlaşdırılması prosesinin əvvəlində başlayır;
(b) Xüsusilə layihənin hazırlanması və ekoloji və sosial risklərin və təsirlərin müəyyən edilməsi və azaldılmasında maraqlı tərəflərin iştirakı barədə məlumatlandırma üsulu kimi maraqlı tərəflərin əks əlaqəsini təşviq edir (problemlərin, təsirlərin və imkanların xüsusiyyəti dəyişdikcə davamlı olaraq);
(c) Risklər və təsirlər yarandıqca daimi əsasda davam edir;
(d) Maraqlı tərəflərlə mədəni baxımdan uyğun formatda, müvafiq yerli dil(lər)də və maraqlı tərəflər üçün başa düşülən şəkildə konstruktiv məsləhətləşmələr aparmağa imkan verən vaxt çərçivəsində müvafiq, şəffaf, obyektiv, konstruktiv və asanlıqla əldə edilə bilən məlumatların əvvəlcədən açıqlanmasına və yayılmasına əsaslanır;
(e) Rəyləri nəzərə alır və cavablandırır;
(f) Layihənin təsirinə məruz qalan tərəflərlə aktiv və inklüziv əlaqəni dəstəkləyir;
(g) Xarici manipulyasiya, müdaxilə, məcburiyyət, ayrı-seçkilik və hədə-qorxu yoxdur; eləcə də
(h) Borcalan tərəfindən sənədləşdirilir və açıqlanır.

# 3 MARAQLI TƏRƏFLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ TƏHLİLİ

ESN10 "maraqlı tərəf" anlayışını aşağıdakı şəxslərə və ya qruplara aid edir: (a) layihənin təsirinə məruz qalan və ya təsirinə məruz qalma ehtimalı olan (layihənin təsirinə məruz qalan tərəflər); və (b) layihədə marağı ola bilən (digər maraqlı tərəflər).

## 3.1 Layihənin təsirinə məruz qalan tərəflər

**Layihədən təsirə məruz qalan tərəflər** (LTMT) layihədən təsirlənən və ya təsirlənmə ehtimalı olan və xüsusi hallara görə aztəminatlı və ya həssas ola bilən tərəflərdir. Bu qrup çox güman ki, layihənin mənfi təsirlərinə məruz qalır və/yaxud layihənin faydalarından istifadə etmək imkanları başqalarına nisbətən daha məhdud olur (ESN10 paraqraflar 5&11).

## 3.2 Digər maraqlı tərəflər

**Digər Maraqlı Tərəflər** (DMT) layihədə marağı ola bilən və layihənin təsirləri, təsirlərin azaldılması mexanizmləri və faydaları ilə bağlı müxtəlif narahatlıqları və prioritetləri olan və fərqli və ya ayrı-ayrı iştirak formaları tələb edə bilən tərəflərdir (ESN10 paraqraflar 5&11). Ümumiyyətlə, bura layihənin icrasına təsir etmək və qərar qəbul etmək imkanına malik olan və/və ya Layihədə marağı ola biləcək insanlar, sosial qruplar və təşkilatlar daxldir. Bu qrupa layihədən faydalana biləcək dövlət qurumları, QHT-lər və özəl müəssisələr daxildir. Layihənin hər üç komponentinin aşağıda göstərildiyi kimi eyni DMT-ləri paylaşması nəzərdə tutulur.

## 3.3 Aztəminatlı/həssas şəxslər və ya qruplar

Aztəminatlı/həssas şəxslər və qruplar öz narahatlıqlarını ifadə etmək və ya layihənin təsirlərini başa düşmək üçün səs və quruma malik olmayan və beləliklə, maraqlı tərəflərin iştirakından və ya layihənin faydalarından kənarda qalma ehtimalı olan şəxslərdir.

Layihə bu qrupların layihə ilə bağlı məlumat almasını, onlarla məsləhətləşmələrin keçirilməsini və layihədə iştirak etmək və öz fikirlərini və narahatlıqlarını ifadə etmək üçün vasitələrə malik olmasını təmin etmək üçün diferensiallaşdırılmış tədbirləri özündə birləşdirəcəkdir.

# 4 MARAQLI TƏRƏFLƏRİN İŞTİRAKI PLANI

Maraqlı Tərəflərin İştirakı Planı maraqlı tərəflərin əsas xüsusiyyətlərini və maraqlarını, müxtəlif maraqlı tərəflər üçün uyğun olacaq müxtəlif səviyyələrdə iştirak və məsləhətləşmələri nəzərə alan ILIA Proqramı üçün ESÇ sənədinin mühüm komponentidir. Bu plan layihələrin ekoloji və sosial davamlılığının yaxşılaşdırılması, layihənin qəbulu prosesinin gücləndirilməsi və uğurlu layihənin hazırlığı və icrasına əhəmiyyətli töhfə verilməsi məqsədilə layihəyə bütün növ maraqlı tərəfləri cəlb etmək üçün addımları ehtiva edəcəkdir. MTİP fəaliyyət növləri və onların tezliyi layihə hazırlığının üç əsas layihə mərhələsinə uyğunlaşdırılıb: tikinti; tikinti sonrası və istismar mərhələsi.

## 4.1 Maraqlı tərəflərin iştirakı üzrə planlaşdırılan fəaliyyətlər

Aşağıdakı cədvəldə layihə çərçivəsində maraqlı tərəflərin iştirakı üzrə nəzərdə tutulan fəaliyyətlər şərh olunur.

**Cədvəl 1: Maraqlı tərəflərin iştirakı üzrə planlaşdırılan fəaliyyətlər**

| *Layihə mərhələsi* | Hədəflənmiş maraqlı tərəflər | İştirak mövzusu(ları) | İstifadə olunan metod(lar) | Yeri/tezliyi | Öhdəliklər |
|---|---|---|---|---|---|
| *1. Müfəssəl layihələndirmə* | Layihənin təsirinə məruz qalan tərəflər:<br>Layihə ərazisində yaşayan insanlar;<br>Aztəminatlı/həssas ailələr | Sənədlərin doldurulmasında köməklik;<br>Layihənin əhatə dairəsi və əsaslandırılması;<br>Layihənin E&S normaları;<br>Şikayətlərə baxış mexanizmi | İctimaiyyət ilə görüşlər, təlimlər/seminarlar, qadınlar və həssas qruplar üçün ayrıca görüşlər;<br>Kütləvi informasiya vasitələri/Sosial media ilə əlaqə - telefon zəngləri<br>Yazılı məlumatların açıqlanması - Broşuralar, plakatlar, vərəqələr, veb səhifə<br>Məlumat lövhəsi – layihə sahələrinin əvvəlində və sonunda;<br>Şikayətlərə baxış mexanizmi | Rayonlarda layihənin başlanması ilə bağlı görüşlər;<br>Təsirə məruz qalan bələdiyyələrdə və kəndlərdə aylıq görüşlər;<br>Kütləvi informasiya vasitələri/sosial media ilə əlaqə (lazım olduqda);<br>Təsirə məruz qalan bələdiyyələrdə broşuralar/plakatlar ilə məlumat masaları (davamlı) | QMKİDK<br>(Ekolji & sosial [ES] sahə üzrə qrup, İcma ilə əlaqə üzrə məsul şəxs); |

| *Layihə mərhələsi* | **Hədəflənmiş maraqlı tərəflər** | **İştirak mövzusu(ları)** | **İstifadə olunan metod(lar)** | **Yeri/tezliyi** | **Öhdəliklər** |
|---|---|---|---|---|---|
| ***1. Müfəssəl layihələndirmə*** | Digər maraqlı tərəflər (xarici)<br>Rayon (Kənd nümayəndələri daxil olmaqla) | Layihənin əhatə dairəsi, əsaslandırılması və DB-nın ESN;<br>Şikayətlərə baxış mexanizmi | Şəxsi görüşlər;<br>Birgə ictimai/icma görüşləri | Aylıq (lazım olduqda) | QMKİDK (E&S qrupu); |
| ***1. Müfəssəl layihələndirmə*** | Digər maraqlı tərəflər (xarici)<br>Mətbuat və KİV;<br>QHT-lər;<br>Müəssisələr və kommersiya təşkilatları;<br>İşçi təşkilatları;<br>Akademik qurumlar;<br>Yerli nazirlikləri;<br>Yerli dövlət idarələri;<br>Ümumi ictimaiyyət | Ətraf mühitə təsirin qiymətləndirilməsi prosesi;<br>Şikayətlərə baxış mexanizmi;<br>Layihənin əhatə dairəsi, əsaslandırılması və DB-nın ESN | İctimaiyyətlə müzakirələr/görüşlər, təlimlər/seminarlar;<br>Kütləvi informasiya vasitələri/sosial media vasitəsilə əlaqə<br>Yazılı məlumatların açıqlanması – ƏMTQ, broşuralar, plakatlar, vərəqələr, ictimaiyyətlə əlaqələr dəstləri, QMKİDK veb səhifəsi;<br>Məlumat lövhələri – layihə sahələrinin əvvəlində və sonunda;<br>Şikayətlərə baxış mexanizmi;<br>Media, yerli nümayəndələr üçün layihə turları | Layihənin başlanması ilə bağlı görüşlər;<br>Təsirə məruz qalan bələdiyyələr və kəndlərdə aylıq görüşlər;<br>Kütləvi informasiya vasitələri/sosial media vasitəsilə əlaqə (lazım olduqda);<br>Təsirə məruz qalan bələdiyyələrdə broşuralar/plakatlar ilə məlumat masaları (davamlı) | QMKİDK (E&S qrupu) |

| *Layihə mərhələsi* | Hədəflənmiş maraqlı tərəflər | İştirak mövzusu(ları) | İstifadə olunan metod(lar) | Yeri/tezliyi | Öhdəliklər |
|---|---|---|---|---|---|
| *1. Müfəssəl layihələndirmə* | Digər maraqlı tərəflər (xarici)<br>Digər dövlət idarələri;<br>Layihə və onların maliyyəçilərindən asılı olan və ya onların yaxınlığında olan digər layihə təşəbbüsçüləri | Layihə üzrə məlumat - əhatə dairəsi, əsaslandırılması və DB-nın ESN;<br>Koordinasiya fəaliyyəti;<br>Torpaq alınması prosesi;<br>Ətraf mühitə təsirin qiymətləndirilməsi prosesi;<br>Şikayətlərə baxış mexanizmi | Şəxsi görüşlər və FQM-lar;<br>İctimai/icma görüşlərinə dəvətlər | Lazım olduqda | QMKİDK<br>(E&S qrupu) |
| *1. Müfəssəl layihələndirmə* | Digər maraqlı tərəflər (daxili)<br>Digər heyət;<br>Texniki nəzarət üzrə məsləhətçilər; | Layihə üzrə məlumat - əhatə dairəsi, əsaslandırılması və DB-nın ESN;<br>ESTQ və digər alt idarəetmə planları üzrə təlim;<br>Şikayətlərə baxış mexanizmi | Şəxsi görüşlər və FQM-lar;<br>Təlimlər/seminarlar;<br>İctimai/icma görüşlərinə dəvətlər | Lazım olduqda | QMKİDK<br>(E&S qrupu) |

## 4.2 İstifadə olunacaq iştirak üsulları haqqında məlumat

*ESN10 B - Layihənin icrası zamanı iştirak və xarici hesabatverməyə uyğun olaraq (23-27-ci paraqraflar),* maraqlı tərəflərin iştirakı burada müzakirə olunan bir sıra mümkün üsullar vasitəsilə layihənin bütün icrası müddətində həyata keçiriləcəkdir.

### *4.2.1 İctimai/icma görüşləri*

ILIA Layihəsi ilə bağlı digər fəaliyyətlərdən əvvəl, müvafiq layihə sənədlərinin və bu MTİP-in açıqlanması zamanı QMKİDK maraqlı tərəfləri cəlb etməklə yerli səviyyədə layihə üzrə brifinq təşkil edəcəkdir. Zərurət yarandıqda, brifinq başlanğıcda bir dəfə keçirilə bilər və ehtiyac yaranarsa və ya layihədə ciddi dəyişikliklər olarsa, daha bir görüş təşkil edilə bilər.

### *4.2.2 Kommunikasiya materialları*

MKHŞYL haqqında məlumat broşuralar, flayerlər, afişalar və s. ibarət çap materialları vasitəsilə layihə məlumatlarını və yenilikləri ötürmək üçün müxtəlif vasitələrlə ictimaiyyətə açıqlanacaqdır. Kommunikasiya materialları QMKİDK/LİQ tərəfindən hazırlanacaq və bu ünvanda (QMKİDK-də) təmin olunacaqdır. "İctimaiyyətlə əlaqələr dəsti" xüsusi olaraq hazırlanacaq və həm çap, həm də onlayn formada təqdim ediləcəkdir. QMKİDK/LİQ həmçinin öz veb səhifəsini həm Azərbaycan, həm də ingilis dillərində əsas layihə yenilikləri və layihənin icrası haqqında hesabatlarla müntəzəm olaraq (ən azı rüblük əsasda) yeniləyəcəkdir. Veb səhifədən həmçinin layihə üzrə şikayət mexanizmi ilə bağlı məlumat vermək üçün istifadə edilə bilər.

### *4.2.3 Kütləvi informasiya vasitələri/sosial media ilə əlaqə*

Layihənin icrası zamanı təyin olunmuş ekoloji və sosial məsələlər üzrə mütəxəssis (QMKİDK-LİQ əməkdaşlarından) maraqlı tərəflərlə, o cümlədən LTMT-lar, icma liderləri ilə sıx əlaqə saxlamaq üzrə cavabdeh olacaqdır. Ekoloji və sosial məsələlər üzrə mütəxəssisə, əsas Koordinator kimi, həmçinin layihə müddətində xüsusi Layihə veb səhifəsində, sosial media kanallarında (Facebook və s.) və məlumat lövhələrində müvafiq məlumatları yerləşdirmək tapşırılacaqdır. Bundan əlavə, zərurət yaranarsa, layihə çərçivəsində videomaterialların (video paylaşım platforması üçün, məsələn, YouTube) hazırlanması və ya televiziya/kabel televiziyasında sənədli filmin yayımı təşkil oluna bilər və bu da layihənin təsvirini, qarşıdan gələn ictimai tədbirlərin və ya xüsusi Layihə fəaliyyətlərinin başlanmasının əvvəlcədən elan edilməsini nəzərdə tutur.

### *4.2.4 Məlumat masaları*

Layihənin başlanğıcında yerli sakinlərə maraqlı tərəflərin iştirakı ilə bağlı fəaliyyətlər, layihə tədbirləri, koordinatorun əlaqə məlumatları və s. üzrə məlumat vermək üçün icra hakimiyyətləri ilə birlikdə hər bir rayonda "məlumat masası" təşkil ediləcəkdir. Koordinator LTMQŞ-lər və digər maraqlı tərəflərlə görüşmək və layihə üzrə məlumat paylaşa bilmək üçün rayonlarda belə məlumat masalarını yaradacaqdır. Layihə ilə bağlı müxtəlif sosial və ekoloji məsələlərə dair layihə broşuraları və vərəqələri bu məlumat masalarında əldə oluna biləcəkdir.

### *4.2.5 Şikayətlərə baxış mexanizminin həyata keçirilməsi*

Dünya Bankının ESN10 sənədinə uyğun olaraq, Layihə ilə bağlı şikayət və problemlərin həlli üçün layihə üzrə xüsusi şikayətlərə baxış mexanizmi yaradılacaqdır. Yerli sakinləri şikayətlərə baxış kanalları və prosedurları ilə tanış etmək üçün ŞBM broşurası və ya kitabçası hazırlanacaqdır. Hər icra hakimiyyəti binasında bağlı təklif/şikayət qutuları quraşdırılacaq və QMKİDK-LİQ şikayətlərin təqdim edilməsindən həllinə və şikayətçilərlə məlumat verilməsinə qədər izlənilməsi üçün şikayətlərin qeydiyyatını aparacaqdır. Bundan əlavə, LİQ tərəfindən insanların layihə ilə bağlı şikayətlərə çıxış əldə etməsi üçün QMKİDK/LİQ veb səhifəsi, elektron ünvanlar, Facebook hesabı və müvafiq idarələrin mobil telefonları kimi digər kanallar da yaradılacaqdır. Bu kanallar haqqında məlumat geniş şəkildə, həmçinin alternativ olaraq bağlı təklif/şikayət qutularının üzərində paylaşılacaqdır.

Şikayətlərə aşağıdakı şəkildə baxılacaqdır:

(i) podratçının və SE-nin təhlükəsizlik üzrə heyəti şikayətləri ilkin olaraq qeyd edir
(ii) şikayətlər üçün QMKİDK-LİQ qaynar xəttinin əlaqə məlumatlarının təmin edilməsi
(iii) şikayətlərə baxış kitabına bütün şikayətlər üzrə qeydlər və yenilənmiş məlumatlar daxil edilir
(iv) Yarımillik və ya rüblük hesabatda xülasə təqdim edilir.

#### *4.2.6 Potensialın gücləndirilməsi təlimləri və seminarları*

Müxtəlif mövzular və məsələlər üzrə potensialın gücləndirilməsi təlimləri və seminarları QMKİDK-LİQ və ola bilsin ki, müvafiq dövlət və ya qeyri-hökumət xidmət təminatçılarına təqdim oluna bilər. Əhatə olunacaq məsələlərə müdaxilə/təcridetmə ilə bağlı həssaslıq, əmək, gender məsələləri və s. daxildir.

### 4.3 Həssas qrupların fikirlərini nəzərə almaq və iştiraka təşviq etmək üçün təklif olunan strategiya / diferensiallaşdırılmış tədbirlər

Aztəminatlı və həssas qrupların əlavə yükünü və çətinliyini nəzərə alaraq, ESN10 par. 16-da qeyd olunur ki, “MTİP aztəminatlı və ya həssas olaraq müəyyən edilmiş şəxslərin effektiv iştirakın təmn edəcək diferensiallaşdırılmış tədbirləri əhatə edəcəkdir. Belə fərqli təsirə məruz qalan qruplarla əlaqə üçün xüsusi yanaşmalar və resursların artırılması tələb oluna bilər ki, onlar potensial olaraq onlara təsir edəcək məsələlər üzrə məlumatı əldə edə bilsinlər.”

Bu məqsədlə layihə aztəminatlı və həssas qrupların məlumat əldə etmək, rəy bildirmək və ya şikayətlərini təqdim etmək üçün bərabər imkanlara malik olmasını təmin etmək məqsədi ilə xüsusi tədbirlər görəcəkdir. Layihə işçiləri, xüsusilə QMKİDK-LİQ üçün və ya QMKİDK-LİQ tərəfindən işə götürülmüş sosial məsələlər üzrə məsləhətçi kimi çalışanlar bu qruplarla əlaqə saxlamağın yollarını tapmalı və layihənin təsirləri haqqında lazımi məlumatlandırma brifinqlərini təqdim etməlidirlər.

Qrupların şəraitinə uyğunlaşdırılmış fokus qrup müzakirələri (FQM) də zərurət yarandıqda nəzərdə tutula bilər və məlumat onların başa düşə biləcəyi dildə təqdim ediləcəkdir. Müvafiq olaraq, fiziki hərəkətlilik məhdudiyyətləri olan (əlillər və ya hərəkət imkanları məhdud) hətta dolayı yolla təsirə məruz qala bilən insanlara öz fikirlərini bildirmək üçün şərait yaradılmalıdır. Maraqlı tərəflərin iştirakını təmin etmək üçün müxtəlif qruplar üçün münasib olan müxtəlif vaxtlarda məsləhətləşmələrin təşkili, ehtiyac olduqda nəqliyyat vasitələrinin təmin edilməsi və məkan baxımından təcrid olunmuş icmalar ilə əlaqə yaradılması kimi məqsədyönlü tədbirlərdən istifadə ediləcəkdir.

### 4.4 Məlumatın açıqlanması

Layihə sənədlərinin, o cümlədən Azərbaycan və ingilis dillərində sosial fəaliyyətlə bağlı sənədlərin açıqlanması üçün QMKİDK-in hazırkı internet səhifəsindən istifadə olunur.

Layihə ilə bağlı yuxarıdakı bölümlərdə sadalanan bütün gələcək sosial və ətraf mühitin monitorinqi hesabatları Layihə yenilikləri, sosial və ekoloji hesabatlarda və ya sənədlərdə istifadə olunan terminologiya üçün asan başa düşülən təlimatlar daxil olmaqla, eyni QMKİDK veb səhifəsində açıqlana bilər. Layihənin şikayətlərin həlli mexanizmi ilə bağlı təfərrüatlar xüsusi elektron şikayət formasına malik olacaq və eyni zamanda internet səhifəsində yerləşdiriləcəkdir. Ekoloji və sosial məsələlər üzrə mütəxəssisin (bu halda koordinatorun) əlaqə məlumatları və əlaqə yaradılacaq idarənin məlumatları internet səhifəsində yerləşdirilməlidir. Layihənin veb səhifəsi LTMT-lar və digər maraqlı tərəflər üçün yenilənəcəkdir.

## 5 MARAQLI TƏRƏFLƏRİN İŞTİRAKI ÜÇÜN VƏZİFƏLƏR, ÖHDƏLİKLƏR VƏ RESURSLAR

### 5.1 İcra mexanizmləri

Layihə QMKİDK tərəfindən həyata keçiriləcəkdir. Yaradılmış LİQ ekoloji və sosial idarəetmə və potensial ekoloji və sosial risklərin aradan qaldırılması da daxil olmaqla layihənin gündəlik idarə olunmasına cavabdeh olacaqdır. LİQ maraqlı tərəflərlə qarşılıqlı əlaqə saxlamaq öhdəliyi daşıyacaqdır. Layihənin icrası başladıqdan sonra MQ

(monitorinq və qiymətləndirmə) və ekoloji və sosial məsələlər üzrə mütəxəssislər də layihənin nəticələri çərçivəsinin müntəzəm monitorinqini və Dünya Bankının ESÇ-yə uyğunluğunu, o cümlədən MTİP-in icrasını təmin etmək üçün LİQ-ə qoşulacaqlar.

### 5.2 Vaxt qrafiki

Layihənin bu MTİP-i qüvvədə olan sənəd kimi qəbul ediləcəkdir. Bu sənəd layihəyə hər hansı dəyişikliyi daxil etmək və əks etdirmək üçün layihə dövrü ərzində yenilənməli və dəqiqləşdirilməlidir. MTİP-in fokusunda və əhatə dairəsində baş verəcək hər hansı dəyişiklik QMKİDK-LİQ tərəfindən maraqlı tərəflərə çatdırılacaqdır. MTİP-in həyata keçirilməsi zamanı nəzərə alınmalı olan layihə dövrünün mühüm mərhələləri aşağıdakılardır:

- **Layihələndirmə/Plan:** Layihənin sistemləri və komponentlərinin texniki şərtlərlərə, eləcə də Dünya Bankının Layihə üzrə müvafiq ESN-larında nəzərdə tutulmuş / razılaşdırılmış tələblərə uyğun hazırlanması, təmin edilməsi və saxlanmasının təmin edilməsi prosesi;
- **İcra**: proses və fəaliyyətlər Dünya Bankının Layihə üzrə müvafiq ESN-larınə uyğun olaraq bütün tələblərdə nəzərdə tutulduğu kimi həyata keçirilir.

### 5.3 Vəzifələr və öhdəliklər

MTİP-in həyata keçirilməsi üçün layihənin MTİP üzrə qrupuna QMKİDK-LİQ-nun ekoloji və sosial məsələlər üzrə mütəxəssis daxil olacaqdır. Ekoloji və sosial məsələlər üzrə mütəxəssis Layihə üzrə dəstəklənən fəaliyyətlərin Layihəyə aid olan ESS-lara uyğunluğuna görə məsuliyyət daşıyacaqdır. Ekoloji və sosial məsələlər üzrə mütəxəssis maraqlı tərəflərin iştirakının bütün aspektləri üçün məsuliyyət daşımalı və onlara rəhbərlik etməlidir. Lakin MTİP-da nəzərdə tutulan müxtəlif fəaliyyətləri həyata keçirmək üçün kommunikasiya və icma koordinatorları (ehtimal ki, iki (2) işçi) digər əsas maraqlı tərəflərlə sıx əlaqə yaratmalıdır. Bu iştirakçıların/maraqlı tərəflərin vəzifələri və öhdəlikləri aşağıdakı cədvəldə ümumiləşdirilir.

## 6 ŞİKAYƏTLƏRƏ BAXIŞ MEXANİZMİ

ESN10 C – Şikayətlərə baxış mexanizminə uyğun olaraq, Borcalanın layihənin ekoloji və sosial fəaliyyəti ilə bağlı layihənin təsirinə məruz qalan tərəflərin narahatlıq və şikayətlərinə vaxtında cavab verməsi gözlənilir (*ESN10, paraqraf 26*). Bundan əlavə, “Layihə üçün mümkün və uyğun olduqda, şikayətlərə baxış mexanizmi[3] ehtiyac olduqda layihəyə xas olan xüsusi tədbirlərlə tamamlanan mövcud formal və ya qeyri-formal şikayət mexanizmlərindən istifadə edəcəkdir (*ESN10 paraqraf 27*). Əsas mülahizələr aşağıda təqdim edilir:

(i) Şikayətlərə baxış mexanizminin narahatlıqları heç bir xərc və ya əvəz olmadan mədəni xüsusiyyətlər baxımdan məqbul və layihənin təsirinə məruz qalan bütün tərəflər üçün asanlıqla əlçatan olan tez, effektiv və şəffaf şəkildə həll etməsi gözlənilir. Mexanizm, proses və ya prosedur məhkəmə və ya inzibati müdafiə vasitələrinə çıxışa mane olmayacaqdır. Borcalan icmanın iştirakı ilə bağlı fəaliyyətləri zamanı layihənin təsirinə məruz qalmış tərəfləri şikayət prosesi haqqında məlumatlandıracaq və alınan bütün şikayətlərə cavabları sənədləşdirən qeydi ictimaiyyətə təqdim edəcəkdir; və

(j) Şikayətlərə baxış məsələsi mədəni xüsusiyyətləri nəzərə alaraq həyata keçiriləcək və gizli, obyektiv, həssas və layihənin təsirinə məruz qalan tərəflərin ehtiyac və narahatlıqlarına cavab verəcəkdir. Mexanizm həm də anonim şikayətlərin təqdim edilməsinə və baxılmasına imkan yaradacaqdır.

*ESN10 Əlavə 1 paraqraf 2* aşağıdakı kimi layihəyə daxil edilməli olan ŞBM üzrə bəzi təfərrüatlı tələbləri təqdim edir:

(a) İstifadəçilərin şikayətlərini şəxsən, telefon, mətn mesajı, poçt, e-poçt və ya veb səhifə vasitəsilə təqdim edə biləcəyi müxtəlif yollar;
(b) Şikayətlərin yazılı şəkildə qeydə alındığı və məlumat bazası kimi saxlanıldığı jurnal;
(c) İstifadəçilərin şikayətlərinin təsdiqini, cavabını və həllini gözləyə biləcəyi vaxt müddətini müəyyən edən açıq elan edilmiş prosedurlar;

[3] BB ESÇ (2018) 100, qeyd 9

(d) Şikayətlərə baxış proseduru, idarəetmə strukturu və qərar qəbul edənlər haqqında şəffaflıq; və
(e) Şikayət həll edilmədiyi təqdirdə, həll edilməmiş şikayətlərin yönləndirilə biləcəyi apelyasiya prosesi (milli yurisdiksiyalar da daxil olmaqla.

## 6.1 Layihə üzrə ŞBM-nin yaradılması

ESN10 tələblərinə uyğun olaraq MTİP çərçivəsində şikayətlərin həlli üçün atılacaq addımlar aşağıdakılardır:

**Addım 1 Şikayətlərə baxış komissiyası (ŞBK):** ŞBK yerli səviyyədə QMKİDK-LİQ tərəfindən yaradılacaqdır. Bu komissiya ən azı tanınmış yerli liderlər (məsələn, yerli icra hakimiyyəti orqanlarının məsul işçiləri) vasitəsilə əhali nümayəndələrindən ibarət olmalıdır. ŞBK zərər çəkmiş tərəflər arasında vasitəçi rolunu oynayacaq və münaqişələrin qarşılıqlı razılaşma yolu ilə həll etmək üçün səy göstərəcəkdir. Şikayətlərin qəbulu kanalları şifahi (fiziki iştirak və ya telefon), kağız üzərində (sənəd şəklində və ya adi poçt) və ya elektron (elektron poçt, internet səhifəsi, WhatsApp və s.) daxil olan şikayətləri qeydiyyatdan keçirə bilən CSC-nin əməkdaşlarına həvalə edilə bilər. Həll mərhələlərinə şikayətin yoxlanılması, nəzərdən keçirilməsi, qiymətləndirilməsi, ŞBK-nın daxili diskussiyaları, şikayətçi ilə müzakirələr, güzəşt və qərar qəbulu daxildir. Şikayətlərin qəbulu kanallarının əlaqə məlumatları yerli əhaliyə çatdırılmalıdır. Bu addımın müddəti 7-10 gün təşkil edəcəkdir.

**Addım 2 QMKİDK-LİQ:** ŞBK-nın tövsiyələri QMKİDK-LİQ-ə göndərilir. QMKİDK-LİQ LTMQŞ-lərin şikayətlərinə baxılmasına cavabdehdir və zəruri hallarda tədbir görülməsi üçün bu şikayətləri müvafiq qurumlara/idarələrə göndərəcəkdir. LTMT-lar telefon, e-poçt, birbaşa görüşlər və məktublar vasitəsilə QMKİDK-LİQ ilə əlaqə saxlamaq imkanına malik olacaqlar. QMKİDK-LİQ-in (əlaqələndirici) əlaqə məlumatları layihənin icrasına başlamazdan əvvəl LTMT-lara paylanacaq və icmalardakı əsas yerlərdə yerləşdiriləcəkdir. Bundan əlavə, LTMT ilə bağlı həll edilməmiş problemlər olduqda, QMKİDK-LİQ seçim kimi "vasitəçiliyə" müraciət edə bilər (*ESN10 Əlavə 1 paraqraf 3*). Bu addımın müddəti 15 gün təşkil edəcəkdir.

**Addım 3 (Məhkəmə qaydası):** Məhkəmə son instansiya olacaqdır. Prinsipcə, layihənin təsirə məruz qalan tərəflər layihə icraçılarının fəaliyyəti və ya hərəkətsizliyi ilə razılaşmadıqları zaman istənilən vaxt müvafiq məhkəməyə müraciət edə bilərlər. Eyni zamanda, şikayətlərin məhkəmə səviyyəsinə çatdırılmamasına əlverişli alternativ kimi Layihə üzrə şikayətlərin həllini asanlaşdırmaq üçün layihəyə aid olan ŞBM tam və şəffaf şəkildə həyata keçiriləcəkdir. Bununla belə, LTMQŞ-lər ŞBM-nin yekun qərarı ilə razılaşmadıqda məhkəməyə müraciət edə bilərlər. Bu addımın müddəti 30 gün təşkil edəcəkdir.

*ESN10 Əlavə 1 paraqraf 2(a)-ya* uyğun olaraq, ŞBM layihənin təsirinə məruz qalan tərəflər, icma üzvləri, vətəndaş cəmiyyəti, media və digər maraqlı tərəflər də daxil olmaqla layihənin bütün maraqlı tərəfləri üçün əlçatan olacaqdır. Maraqlı tərəflər layihənin ümumi idarə edilməsi və həyata keçirilməsi ilə bağlı şikayətlər, rəylər, sorğular, təkliflər və ya hətta təriflər təqdim etmək üçün ŞBM-dən istifadə edə bilərlər. ŞBM xarici maraqlı tərəflərin problem və şikayətlərini səmərəli, vaxtında və sərfəli şəkildə həll etmək məqsədi daşıyır. İşçilərin şikayətləri üçün ayrıca mexanizmdən istifadə olunacaqdır. QMKİDK-LİQ əvvəlki bölmədə qeyd olunan vəzifə və öhdəliklərə uyğun olaraq maraqlı tərəflərin ŞBM-nin idarə edilməsinə cavabdeh olacaqdır.

## 6.2 Ciddi şikayətlər üzrə protokollar və prosedurlar

Dünya Bankı tərəfindən maliyyələşdirilən layihədə şikayətlərin hər bir mümkün aspektini əhatə etmək üçün həssas hallara dair müəyyən protokollar və prosedurlar tanınmalı və zərurət yarandıqca asanlıqla müəyyən edilməlidir. Müəyyən ediləcək həssas hallar arasında cinsi istismar və zorakılıq (CİZ) və cinsi qısnama (CQ) ilə bağlı olan hallar ola bilər. Tərifinə görə[4], cinsi istismar "başqasının cinsi istismarından pul, sosial və ya siyasi fayda əldə etmək daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, cinsi məqsədlər üçün həssaslıq, diferensial güc və ya etibar mövqeyindən hər hansı faktiki və ya sui-istifadə cəhdinə" aiddir. Cinsi zorakılıq "zorla və ya qeyri-bərabər və ya məcburi şərtlər altında cinsi xarakterli faktiki və ya hədələnmiş fiziki müdaxilədir". Cinsi qısnama

[4] Amerikada CİZ/CQ-nın qarşısının alınması və icma əsaslı şikayət və müraciət mexanizmləri üçün regional alətlər dəsti.

“işçilər arasında baş verir və hər hansı arzuolunmaz cinsi sataşma və ya cinsi xarakterli arzuolunmaz şifahi və ya fiziki davranışı ehtiva edir.

Mühafizəkar cəmiyyət kontekstində sosial normalar qeydə alınmayacaq bu kateqoriyalara aid olan şikayətlər üçün müəyyən maneələr yarada bilər. İcmanın, layihə işçilərinin və müxtəlif maraqlı tərəflərin qanun pozuntularını bildirməkdə özlərini təhlükəsiz hiss edəcəkləri və qanun pozucularına qarşı dərhal və qətiyyətli tədbirlərin görüləcəyinə inandıqları mühitin yaradılmasına xüsusi diqqət yetirilməsi vacibdir.

Şikayət mexanizmləri məsələlərin müzakirəsindən əvvəl və onun müzakirəsi zamanı bitərəfliyi və məxfiliyi qorumaqla təhlükəsiz, genderə həssas və kontekstə uyğun olmalıdır. CİZ və CQ üçün vaxtında, qərəzsiz, müstəqil və ədalətli araşdırmaları təmin etmək üçün ŞBM funksiyaları gücləndiriləcəkdir. QMKİDK öz araşdırma funksiyasına inam yaratmaq üçün bütün tədbirləri görəcək, o cümlədən, müvafiq hallarda, layihə üçün uyğun kanallar vasitəsilə bu cür işlərdə təcrübəsi olan müstəqil üçüncü tərəfi cəlb edəcəkdir.

Ciddi şikayətlər üçün protokollar və prosedurlar aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- Daxil olan bütün şikayətlər qeydiyyata alınacaq və məxfi saxlanılacaqdır. Statistik məqsədlər üçün cəlb olunan şəxslərin müəyyən edilməsinin qarşısını almaq üçün işlər anonimləşdiriləcək və qruplaşdırılacaqdır.
- İş öz həllini tapdıqdan sonra şikayətlər üzrə məsləhətçi, müvafiq olaraq, həll yollarının effektiv olmasını təmin edəcəkdir.
- Cinayət işləri dövlət ittihamçısına yönləndiriləcəkdir.

## 6.3 Şikayət jurnalları

“Şikayət jurnalları və məlumat bazasının” saxlanması üçün *ESN10 Əlavə 1 paraqraf 2* tələbinin bir hissəsi kimi QMKİDK-LİQ MTİP-in icrasının bir hissəsi kimi minimum aşağıdakı məlumatları ehtiva edəcək şikayətlər jurnalını aparacaqdır:

- Fərdi istinad nömrəsi;
- Şikayəti, sualı və ya digər rəyi təqdim edən şəxsin adı, ünvanı və/və ya əlaqə məlumatları (şikayət anonim təqdim edilmədiyi halda);
- Şikayətçinin şikayəti, rəyi və ya sualı/yeri ilə bağlı təfərrüatlar;
- Şikayət tarixi;
- Şikayətə baxılması üçün təyin edilmiş şəxsin adı (şikayətçiyə şikayətin alınmasını təsdiq etmək, araşdırma aparmaq, həll yollarını təklif etmək və s.);
- Təklif olunan həllin təfərrüatları, o cümlədən təklif olunan həllin bir hissəsi olan hər hansı düzəldici tədbirlərə icazə vermək və onları həyata keçirmək üçün cavabdeh olacaq şəxs(lər);
- Təklif olunan həllin şikayətçiyə bildirildiyi tarix (anonim olmadıqda);
- Şikayətçinin təklif olunan həll barədə ona məlumat verildiyini, mümkün olduğu halda, yazılı şəkildə təsdiq etdiyi tarix;
- Şikayətçinin həlldən razı olub-olmaması və şikayətin bağlanıb-bağlanmaması barədə təfərrüatlar; və
- Həllin icra olunduğu tarix (varsa).

## 6.4 Şikayətlər üzrə monitorinq və hesabat

Monitorinq və hesabatın təfərrüatları yuxarıda təsvir edilir. QMKİDK-LİQ ŞBM-in gündəlik icrasına və Dünya Bankına hesabat verilməsinə görə məsuliyyəti daşıyacaqdır. Rəhbərliyin şikayətlərə baxılmasına nəzarətini təmin etmək məqsədilə LİQ rəhbərliyinin təşəbbüsü ilə razılaşdırılmış həllərin faktiki icrasının yoxlanılması daxil olmaqla, bütün prosesə nəzarət etmək üçün daxili audit həyata keçiriləcəkdir.

## 6.5 Mərkəzi əlaqələndirici qurum – LİQ

Maraqlı tərəflərin iştirakı proqramı ilə bağlı əlaqələndirici qurum *(QMKİDK-LİQ tərəfindən təmin ediləcək və yenilənəcəkdir*):

| Təsvir | Əlaqə detalları |
|---|---|
| Ad | |
| Ünvan | |
| E-poçt | |
| Telefon | |

*ESN10 Əlavə 1 paraqraf 2*-in bir hissəsi olaraq, ictimai elan prosedurlarına dair tələb, layihə və gələcək maraqlı tərəflərin iştirak proqramları ilə bağlı hər hansı məlumat layihənin internet səhifəsində və Rayon İcra Hakimiyyətinin binasındakı məlumat masalarında yerləşdiriləcəkdir. Məlumatı həmçinin Bakı şəhəri üzrə QMKİDK-dən əldə etmək olar. Maraqlı tərəflərin iştirakı planının icrasını sənədləşdirən ən son aylıq ES (ekoloji və sosial) hesabatlar layihənin internet səhifəsində açıqlana bilər.

### 6.6 Dünya Bankının şikayətlərə baxış sistemi

Dünya Bankının dəstəklədiyi layihənin mənfi təsirinə məruz qaldıqlarını hesab edən icmalar və şəxslər Dünya Bankının şikayətlərə baxış xidmətinin (ŞBX) layihə səviyyəsində mövcud şikayətlərə baxış mexanizmlərinə şikayətlər təqdim edə bilərlər. ŞBX layihə ilə bağlı məsələlərin həlli üçün daxil olan şikayətlərə operativ baxılmasını təmin edir. Məsələlər Dünya Bankının diqqətinə çatdırıldıqdan və Bank rəhbərliyinin cavab vermək imkanı olduqdan sonra şikayətlər istənilən vaxt verilə bilər. Şikayətlərin DBŞBX-ə necə təqdim ediləcəyi barədə məlumat almaq üçün zərər çəkmiş və ya şikayəti olan şəxslər aşağıdakı ünvana müraciət edə bilərlər: https://projects.worldbank.org/en/projects-operations/products-andservices/grievance-redress-service . Şikayətlərin Dünya Bankının təftiş panelinə necə təqdim edilməsi barədə məlumatı www.inspectionpanel.org saytından əldə edə bilərsiniz.

## 7 MONİTORINQ VƏ HESABAT

### 7.1 Layihənin monitorinq hesabatları (komponentlər üzrə, müvafiq olaraq)

Maraqlı tərəflərin iştirakı prosesinin monitorinqi və qiymətləndirilməsi QMKİDK-in müəyyən edilmiş məsələlərə cavab verməsini və onları daha effektiv etmək üçün qarşılıqlı əlaqə üzrə fəaliyyətlərin cədvəlini və xarakterini dəyişdirə bilməsini təmin etmək üçün vacib əhəmiyyət kəsb edir. QMKİDK-LİQ-dan MTİP-in monitorinqi və hesabatına cavabdeh olan mütəxəssis ekoloji və sosial məsələlər üzrə mütəxəssis olacaqdır. Maraqlı tərəflərin iştirakı prosesinin monitorinqi prosesin effektivliyini qiymətləndirməyə imkan verir. Vaxt baxımından iki fərqli, lakin əlaqəli monitorinq fəaliyyəti həyata keçiriləcəkdir:

- **İştirakla bağlı fəaliyyətlər zamanı:** iştirak zamanı düzəlişlərin/təkmilləşdirmələrin aparılmasına imkan vermək üçün qısamüddətli monitorinq; və
- **Maraqlı tərəflərin iştirakı üzrə bütün fəaliyyətlər başa çatdıqdan sonra**: yerinə yetirilən MTİP-in effektivliyini qiymətləndirmək üçün iştirakın sonunda nəticələrin nəzərdən keçirilməsi.

MTİP üzrə fəaliyyətlərin icrasına dair vəziyyət, o cümlədən ŞBM-in funksiyası haqqında məlumat layihənin gedişatı ilə bağlı bütün hesabatlara daxil ediləcəkdir. Maraqlı tərəflərin iştirakının hər bir mərhələsi üçün bir sıra əsas fəaliyyət göstəriciləri QMKİDK-LİQ-in ekoloji və sosial məsələlər üzrə qrupu tərəfindən hazırlanacaqdır. Göstəricilər və göstəricilərə görə fəaliyyət iştirakla bağlı tapşırıqların uğurla yerinə yetirildiyini göstərəcəkdir.

### 7.2 Maraqlı tərəflərdən ibarət qruplara hesabatvermə

Maraqlı tərəflərdən ibarət qruplara hesabat vermək və maraqlı tərəflərin iştirakı prosesini qiymətləndirmək QMKİDK-LİQ-in müəyyən edilmiş məsələlərə cavab verməsini və onları daha effektiv etmək üçün iştirak üzrə fəaliyyətlərin qrafikini və xarakterini dəyişdirə bilməsini təmin etmək üçün vacib əhəmiyyət kəsb edir. Məsələlərin bütün səviyyələrdə və peşəkar səviyyədə həll olunması arzuolunandır. Aydın və başa düşülən olması üçün hər bir şey informativ xarakter daşımalı və təqdimat şəklində istifadə edilməlidir. Bütün maraqlı tərəflər bütün mərhələlər və bütün problemlərin həlli barədə məlumatlandırılmalıdır.

Layihənin ekoloji və sosial məsələlər üzrə mütəxəssisi ilk növbədə layihənin təsirinə məruz qalan ərazilərdə ictimai görüşlər vasitəsilə LTMQŞ-lərə və digər maraqlı tərəflərə hesabat verəcəkdir. Görüşlərin protokolları növbəti ictimai görüşlərdə paylaşılacaqdır. ŞBM vasitəsilə alınan rəylərə mümkün qədər yazılı və şifahi cavab veriləcəkdir. Telefon nömrələri olan maraqlı tərəflərə cavab vermək üçün SMS və zənglərdən istifadə olunacaqdır. Əsas layihə yenilikləri layihənin veb səhifəsində yerləşdiriləcəkdir. Sosial media (ilk növbədə LTMQŞ-lər və digər maraqlı tərəflər üçün layihə veb səhifəsi (və ya sosial media platforması) vasitəsilə) da müxtəlif maraqlı tərəflərə hesabat vermək üçün istifadə olunacaqdır.

# 8 ƏLAVƏLƏR

## Əlavə 1. Şikayət forması nümunəsi

| Şikayət forması | | | |
|---|---|---|---|
| Şikayətlərə istinad nömrəsi (ŞBM koordinatoru tərəfindən doldurulmalıdır): | | | |
| Əlaqə məlumatları (anonim təqdim oluna bilər) | Ad (lar): | | |
| | Ünvan: | | |
| | Telefon: | | |
| | E-poçt: | | |
| Sizinlə necə əlaqə saxlamağa üstünlük verirsiniz (birini qeyd edin) | Poçtla: ☐ | Telefonla: ☐ | E-poçtla: ☐ |
| Üstünlük verdiyiniz dil | ☐ Azərbaycan | ☐ Rus | ☐ digər___________ |
| Şikayətinizin təfərrüatlarını təqdim edin. Zəhmət olmasa problemi, kimin başına gəldiyini, nə vaxt və harada baş verdiyini, neçə dəfə olduğunu və s. təsvir edin. Mümkün qədər ətraflı təsvir edin. | | | |
| Əgər şikayətiniz varsa, şikayətiniz üçün hansı həlli təklif edirsiniz? Problemi həll etmək üçün Məşğulluq Xidmətləri Mərkəzi və ya başqa tərəf/şəxs tərəfindən yerinə yetirməsini istədiyiniz bir şey varmı? | | | |
| Bu formanı layihəyə necə təqdim etmisiniz? | veb səhifə ☐ | e-poçt ☐ | şəxsən ☐ |
| | şəxsən ☐ | telefonla ☐ | Digər (dəqiqləşdirilməli) ☐ |
| Bu formanı kim doldurub (yuxarıda adı çəkilən şəxs deyilsə)? | Ad və əlaqə məlumatları: | | |
| İmza | | | |
| Məsul olan koordinatorun adı | | | |
| Həll olunub və ya ŞBK1-ə yönəldilib? | ☐ Həll olunub | ☐ Yönəldilib | Yönəldilibsə, tarix: |
| Həll olunub və ya ŞBK2-yə yönəldilib? | ☐ Həll olunub | ☐ Yönəldilib | Yönəldilibsə, tarix: |
| **Tamamlama** | | | |
| Yekun həll (qısa təsvir) | | | |
| | Qısa təsvir | Qəbul edilib? (B/X) | Təsdiq imzası |
| 1-ci təklif olunan həll | | | |
| 2-ci təklif olunan həll | | | |
| 3-cü təklif olunan həll | | | |